# التَّذْهِيبُ فِي أَدِلَّةِ مَتْنِ الْغَايَةِ وَالتَّقْرِيبِ

# Dəlilləriylə Şafei Elmihalı

## Ğayətu-l İxtisar


Yazar:
Qazı Əbu Şuca`

Tərcümə edən:
Tural Alişanov

Dəlilləndirən:
Dr. Mustafa Buğa

Redaktə və Təshih edən:
Ramil Əliməmmədov



برهان
Burhan

# *Dəlilləriylə*

# *Şafii Elmihalı*

**التّهذيب في أدلّة متن الغاية والتّقْريب**

**Qazı Əbu Şuca`**

Ayət və Hədislərlə dəlilləndirən
**Dr. Mustafa Buğa**

Tərcümə edən
**Tural Alişanov**

# MÜNDƏRİCAT


Müəllifin ön sözü........................................................................6

Qazı Əbu Şuca haqqında........................................................................8

**TƏMİZLİK BÖLÜMÜ**

Suların növləri........................................................................9

Murdar heyvanların dərisi........................................................................11

Qabların işlədilməsi........................................................................11

Misvak........................................................................12

Dəstəmazın fərzləri........................................................................12

Dəstəmazın sünnətləri........................................................................13

İstinca........................................................................15

Dəstəmazı pozan şeylər........................................................................17

Qüsl........................................................................18

Qüslun fərzləri........................................................................19

Qüslun sünnətləri........................................................................19

Sünnət olan qüsullar........................................................................20

Məstlər üzərinə məsh etmək........................................................................22

Məshi pozan şeylər........................................................................23

Təyəmmüm........................................................................23

Təyəmmümün fərzləri........................................................................24

Təyəmmümün sünnətləri........................................................................24

Təyəmmümü pozan şeylər........................................................................24

Sarğı üzərinə məsh etmək........................................................................25

Nəcasət........................................................................26

Qadınlara məxsus hallar........................................................................28

Heyz və nifas halında haram olan şeylər....29
Cünub olan kimsəyə haram olan şeylər....30
Dəstəmazsız olan kimsəyə haram olan şeylər....30

**NAMAZ BÖLÜMÜ**

Fərz namazlar və vaxtları....31
Namazın vacib olmasının şərtləri....33
Sünnət olan namazlar....34
Namazın səhih olmasının şərtləri....37
Namazın rüknları....39
Namazın sünnətləri....42
Namazın hey'ətləri....44
Namazda qadınla kişinin bir-birindən fərqli xüsusları....47
Namazı pozan şeylər....49
Fərz olan namazların rükətləri....50
Namazda səhv....51
Namaz qılmağın məkruh olduğu vaxtlar....52
Camaat namazı....53
Müsafirin namazı....54
Namazı cəm etmək....55
Cümə namazı....56
Cümə namazının səhih olmasının şərtləri....56
Cümənin fərzləri....58
Cümənin hey'ətləri....58
İki bayram namazı....59
Küsuf və Xüsuf (Günəş və Ay tutulması) namazı....60
Yağış (Tələbi) namazı....61

Qorxu halında namaz.......................................................................................................63
İpək paltar və qızıl.........................................................................................................64
Cənazə.........................................................................................................................65
Cənazə namazı................................................................................................................66
Cənazənin dəfni...............................................................................................................67
Ölü üçün ağlamaq...........................................................................................................68

**ZƏKAT BÖLÜMÜ**

Zəkatın vacib olduğu mallar...........................................................................................69
Heyvanlarda zəkat...........................................................................................................70
Pulun zəkatı...................................................................................................................71
Əkin məhsullarının zəkatı................................................................................................72
Meyvələrin zəkatı............................................................................................................72
Ticarət mallarının zəkatı..................................................................................................73
Dəvələrin zəkatı..............................................................................................................73
İnəklərin zəkatı...............................................................................................................74
Qoyun (və keçilərin) zəkatı..............................................................................................74
Ortaq malın zəkatı...........................................................................................................75
Qızıl və gümüşün zəkatı..................................................................................................75
Əkin məhsullarının və meyvələrin zəkatı..........................................................................76
Ticarət mallarının zəkatı..................................................................................................76
Fitrə sədəqəsi.................................................................................................................77
Zəkat verilən yerlər.........................................................................................................78
Zəkat verilməyən kəslər...................................................................................................79

**ORUC BÖLÜMÜ**

Orucun fərz olmasının şərtləri.........................................................................................80

Orucun fərzləri....81
Orucu pozan şeylər....81
Oruclu üçün müstəhəb olan şeylər....82
Oruc tutulması haram olan günlər....83
Oruc tutulması məkruh olan günlər....83
Oruclu halda cinsi münasibətdə olmaq....84
Ölünün yerinə orucun qəza edilməsi....84
Yaşlı, hamilə, uşaqəmzikli, xəstə və yolçunun orucu....85
Etikaf....86

**HACC BÖLÜMÜ**

Haccın fərz olmasının şərtləri....87
Haccın rüknları....88
Ümrənin rüknları....89
Haccın vacibləri....90
Haccın sünnətləri....91
Ehram....92
Ehramlıya qadağan olan şeylər....93
Ərafatda vəqfəni qaçıranlar....95
Ehramda vacib olan qanlar (qurbanlar)....96

## *MÜƏLLİFİN ÖN SÖZÜ*

**RAHMƏN VƏ RAHİM OLAN ALLAHIN ADI İLƏ**

Həmd, Kitabında “Hər qəbilədən bir dəstə (döyüşə çıxmayıb Peyğəmbərin yanında) qalmalıdır ki, dini dərindən öyrənsinlər”. Buyuran Allaha məxsusdur.

Salat və salam, “Allah, kimin xeyrini murad edərsə, onu dində bilikli qılar.” məalındaki öz və geniş qapsamlı sözlərin sahibi, sonuncu Peyğəmbər Hz. Muhammədə və onun alinə və Əshabına və gözəllikdə onlara uyaraq, Allahın dinini öyrənib və öyrətənlərin üzərinə olsun.

Həqiqətən “əl-Ğayə və ət-Təqrib” mətni, şəkil və məzmun baxımından Şafei fiqhinin ən yaxşı kitablarındandır. Həcm etibarı ilə hər nə qədər kiçik olsa da, fiqhin bütün bablarını qapsamaqla birlikdə ibadət, müamələt və digər mövzularla əlaqəli hökm və məsələlərin çoxunu ehtiva etmişdir. Mövzu və bölümləri ilə seçilməklə yanaşı, ifadənin asanlığı, sözün gözəlliyi və yaxşı quruluşu ilə Allahu Təalanın dinini öyrənən kimsəyə, onu idrak etməyi və zehnində tutmasını asanlaşdırır.

Bu kitab, Allahın bir təqdiri olaraq qədimdən bəri və günümüzdə elm tələbələri və alimlərin oxuduğu, əzbərlədiyi, açıqladığı və üzərinə şərh yazdığı bir kitab olmaqla ayrı bir yer tutmaqdadır.

Lakin bu kitab dəlillərə deyinmədən sadəcə fiqhi hökmləri ehtiva edirdi. Amma günümüzün elm tələbələri, şər-i hökmləri və onu dəstəkləyən bir dəlilində olmasını istəyirlər. Məndə Allahu Təalanın dininə xidmət etməyə rəğbət etdim və hər kəsin sevdiyi bu kitabı ziyalı müsəlman gənclərə, Fiqh tliblərinə dinlərində bəsirətli, fiqhlərində bilikli, inanclarında səbat, ibadətlərində hüzur, iş və müamilələrində istiqamətli edən dəlilləri ilə süslədim.

Bu işi, dini elmlərdə, xüsusi ilə Fiqh sahəsində ustadlarımla istişarə etdim. Onlar, buna sevindilər və məni təşviq etdilər. Çalışmağımın nəticəsində məni müvəffəq edən Allahın lütfü üzərimdə böyükdür.

Mənim bu kitabda ki işim; Kitab, Sünnə və Səhabə əsərlərindən nəqli dəlilləri zikir etməklə məhdudlaşmışdır. Ancaq “azda olsa” bəzən əqli həqiqətlərə və qiyasi dəlillərə də toxundum.

Dəlilləri, əksəriyyətlə məzhəb kitablarında keçənlərdən seçməyi əsas aldım. Amma daha açıq və güclü dəlil tapdığım zaman onu yazmağı tərcih etdim.

Dəlilləri araşdırarkən, mümkün olduğu qədər əsl qaynaqlarında özüm araşdırdım. Xüsusilədə əsl qaynaq hədis kitabları olunca, onlarda keçən mətin və varsa hədisin və ya səhifənin və ya da cüz nömrəsini qeyd etdim. Ayətlərə gəlincə, surələrin adını və ayətlərin nömrələrini yazdım. Sonra dəlilin içində anlaşılması çətin olan ifadələri, dəlil olma yönünü anlaşılacaq şəkildə açıqladım.

Ehtiyac olduqda mətində keçən bəzi ləfizləri və ya tərifləri də açıqladım. Amma bunu daim etmədim. Çünki mən bunu yazarkən kitabı şərh etməyi qəsd etmədim. Zatən bu kitabın kifayət qədər şərhi var.

Mətində zəif bir görüş gördüyümdə, ondan daha səhih və güclü olan görüşü, məzhəbin güvənilən kitablarında taparaq açıqladım.

Yetərincə fayda vermək və Allahdan savab qazanma ümidi ilə zaman-zaman bəzi faydalı bigiləri əlavə etməyi də əldən vermədim.

Əsl mətni səhifənin üst hissəsində, yazdığım dəlil və açıqlamalarımı isə alt hissəsinə aldım. Mətinlə əlaqəli açıqlamaları rəqəmlərlə göstərdim. Və bu kitaba “ət-Təzhib fi Ədilləti Mətni əl-Ğayə və ət-Taqrib” adını verdim.

Allahdan diləyirəm ki bu çalışmağımı, sadəcə rızasına yönəlik ixlaslı etsin: mənə, ana və atama və üzərimdə haqqı olanlara bir sədəqəyi-cariyə olaraq qəbul etsin. Şübhəsiz O, istədiyi hər şeyə qadirdir və qarşılıq vermə ucalığına sahibdir.

*MUSTAFA BUĞA*

**بسم الله الرحمنِ الرحيم**

**الحمد لله رب العالمين وصلى الله على سيدنا محمد النبي وآله الطاهرين وصحابته أجمعين**

**قال القاضي أبو شجاع أحمد بن الحسين بن أحمد الأصفهاني رحمة الله تعالى: سألني بعض الأصدقاء حفظهم الله تعالى أن أعمل مختصرا في الفقه على مذهب الإمام الشافعي رحمة الله تعالى عليه ورضوانه في غاية الاختصار ونهاية الإيجاز ليقرب على المتعلم درسه ويسهل على المبتدئ حفظه. وأن أكثر فيه من التقسيمات وحصر الخصال فأجبته إلى ذلك طالبا للثواب راغبا إلى الله تعالى في التوفيق للصواب إنه على ما يشاء قدير وبعباده لطيف خبير**

***Rahman və Rahim olan Allahın adı ilə***

*Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Əfəndimiz, Hz. Peyğəmbər Muhammədə və onun təmiz Ali və bütün Səhabələrinin özərinə olsun. İsfahanlı Qadı Əbu Şuca Əhməd bin Hüseyin bin Əhməd deyir ki; “Bəzi dostlar, -Allah onları qorusun- İmami Şafinin (r.h) məzhəbinə dair Fiqihdə son dərəcə qısa və öz bir kitab yazmağımı istədilər. Çünki bu şəkildə olan bir kitab yeni başlayanlar üçün oxumaq, öyrənmək və əzbərləmək baxımından daha asan və əlverişli olur. Həmin dostlar, bu kitabda ayrı ayrı Fiqhi mövzulara və ehtiyac duyulan məsələlərə də yer verməyimi istədilər. Mən də savab qazanmaq məqsədi ilə, Allahdan doğru olana müvəffəq etməsi diləyərək onların bu istəklərinə cavab verdim. Şübhəsiz Allah; dilədiyi şeyə Qadir, qullarına qarşı mərhəmətli və hər hər hallarından xəbərdardır.*

*QAZI ƏBU ŞUCA`*

# كتاب الطهارة

# TƏMİZLİK BÖLÜMÜ

أنواع المياه

**المياه التي يجوز بها التطهير سبع مياه ماء السماء وماء البحر وماء النهر وماء البئر وماء العين وماء الثلج وماء البرد**

***Suların növləri***

*Təmizliyin caiz olduğu sular 7 – dir:*

1. *Yağış suyu,*
2. *Dəniz suyu,*
3. *Çay suyu,*
4. *Quyu suyu,*
5. *Bulaq suyu,*
6. *Qar suyu,*
7. *Dolu suyu.*[1]

[1] Qısaca: Yerdən fışqıran və göydən yağan bütün sularla təmizlik edilə bilər. Bu sularla təmizlik etməyin caiz olduğuna dair dəlil, Quran ayətləri və Peyğəmbər Əfəndimizin hədisləridir. Ayət: "Göydən sizin üzərinizə yağmur endirmişdi ki, onunla sizi təmizləsin." (Ənfal: 11) Hədis isə budur: Əbu-Hureyrə (r.h) rəvayət edir ki: Biri Allah Rasulu (s.a.v)-ə sual verərək belə dedi: "Ey Allahın Rasulu, biz dənizə (yəni gəmiyə) minirik və özümüzlə bərabər az su götürürük. Əyər onunla dəstəmaz alsaq susuz qalarıq. Bu halda dəniz suyu ilə dəstəmaz ala bilərikmi ?" Ona cavab olaraq Peyğəmbər (s.a.v); "Onun suyu təmizləyici, ölüsüdə halaldı" buyurdu. Bu hədisi beşlər (beş hədis kitabı) rəvayət edir. Tirmizi (69) "bu həsəni-səhih hədisdir" demişdir. (Hədisdə ki, "ölüsü halaldır, yəni, şəri` kəsim olmadan dənizdə ölən balıq və onun kimiləri yeyilir" deməkdir.

**ثم المياه على أربعة أقسام: طاهر مطهر غير مكروه وهو الماء المطلق, وطاهر مطهر مكروه وهو الماء المشمس, وطاهر غير مطهر أو كان قلتين فتغير وهو الماء المستعمل والمتغير بما خالطه من الطاهرات, وماء نجس وهو الذي حلت فيه نجاسة وهو دون القلتين والقلتان: خمس مائة رطل بغدادي تقريبا في الأصح**

***Sonra bu sular dörd qismə ayrılır***:

*Həm təmiz, həm təmizləyici və eyni zamanda insan bədəni üçün işlədilməsi məkruh olmayan sular. Bunlara "mütləq sular" deyilir.*[2]

*Həm təmiz, həm təmizləyici ancaq insan bədəni üçün işlədilməsi məkruh olan sular. Bu qisim sular metal qablarda günəşin hərarəti ilə isinmiş sulardır.*[3]

*Təmiz, ancaq təmizləyici olmayan sulardır. Bu sular, işlədilmiş*[4] *və təmiz bir şey qarışaraq*[5] *dəyişikliyə uğrayan sulardır.*

*İki qüllə olmayan*[6] *suya nəcasət qarışıb və ya iki qüllə olub da qarışan nəcasətdən dolayı rəng, dad və ya qoxusundan birisinin dəyişdiyi sulardır*[7]. *Səhih olan görüşə görə iki qüllə, təqribən beş yüz Bağdad litri`dir*[8].

---

[2] Mütləq suyun təmiz və təmizləyici olduğuna dair dəlil: İmam Buxari (217) Əbu Hureyrə (r.h)-dan rəvayət etdiyi hədisdir. Əbu Hureyrə (r.h) dedi: "Bir bədəvi məsciddə işəməyə başladı. İnsanlar onun üstünə tökülüşdülər. Hz. Peyğəmbər (s.a.v) onlara belə dedi: "Ona toxunmayın və sidiyinin üstünə bir vedrə su və ya bir çəllək su tökün. Çünki siz asanlaşdıranlar olaraq göndərildiniz, çətinləşdirənlər olaraq göndərilmədiniz."

[3] Məkruh olmasının səbəbi, Hicaz kimi isti iqlimdə Baras xəstəliyinə və ya xəstəliyin artmasına səbəb olmasıdır. Bədənin xaricində işlədilməsi məkruh deyildir.

[4] Yəni: Dəstəmaz almaqda və ya qüsl etməkdə işlədilən sudur. Bu cür suların təmiz olduğuna dair dəlil, Buxari (191) və Müslim`in (1616) Cabir bin Abdullah`dan (r.a) bu rəvayət etdikləri bu hədisdir: "Mən özümdən keçmiş vəziyyətdə xəstələndiyimdə Hz. Peyğəmbər (s.a.v) mənim ziyarətimə gəldi və dəstəmaz alıb suyundan üzərimə səpdi." Əyər təmiz olmasaydı üzərimə səpməzdi. Təmizləyici olmadığına dair dəlil isə, Müslim (283) və başqalarının əbu Hureyrə`dən (r.a) rəvayət etdiyi bu hədisdir: "Peyğəmbər (s.a.v) belə buyurdu: Sizdən biri cünub ikən durğun suda yuyunmasın." Orada olanlar, "ey əbu Hureyrə ! bəs necə edəcək" dediklərində Əbu Hureyrə (r.a), alıb (üzərinə tökərək) yuyunacaq dedi. Bu hədis, az (durğun) suda yuyunmağın, suyu təmizləyici olmaqdan çıxardığını ifadə edir. Yoxsa az (durğun) suda yuyunmaq qadağan olunmazdı. (Az durğun suda) dəstəmaz almağın hökmüdə, qüsl almağın hökmü kimidir. Çünki ikisində də məna və məqsəd birdir. Oda dəstəmazsızlığın hökmünü qaldırmaqdır.

[5] Yəni: suya yad olan və qarışdıqdan sonra sudan ayrılması mümkün olmayan təmiz bir şey. Məsələn: misk, duz və bənzəri şeylər kimi.

[6] Beşlər (beş hədis kitabı), Abdullah bin Ömərdən (r.h) rəvayət etdiyinə görə, Abdullah dedi ki: "Peyğəmbər (s.a.v)-mə yırtıcı heyvan və canlıların uğrayıb su içdiyi səhradaki sular haqqında soruşulanda belə dediyini eşitdim; "Su iki qüllə olduğu zaman pislik daşımaz." Əbu Davuda (65) aid rəvayətdə isə, "su nəcis olmaz" şəklində keçir.

Hədisin məfhumu: Su iki qüllədən az olduğu zaman rəngi, dadı və quxusundan bir şey dəyişməsə belə nəcis olar. Buna Müslimin (278) əbu Hureyrədən rəvayət etdiyi bu hədis dəlalət edir: Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizdən biriniz yuxusundan oyandığı zaman, əlini üç dəfə yumadığı müddətcə qaba daldırmasın. Çünki o, əlinin harada gecələdiyini (dəydiyini) bilməz." Beləcə yuxudan oyanan kimsəyə, gözlə görülməyən nəcasətə bulaşma qurxusundan dolayı az suya əlini suya daldırmaq qadağan edildi. Məlumdur ki, gözlə görülməyən nəcasət suyu dəyişdirməz. Əyər mücərrəd təmas etməklə nəcis olmasaydı Peyğəmbər (s.a.v) yuxudan bu əməldən çəkindirməzdi.

[7] Bununla əlaqəli dəlil icmadır: İmami Nəvəvi "əl-Məcmu" adlı kitabında İbni-Munzirin belə dediyini yazır: "Az və ya çox suya nəcasət qarışıb rəngini və ya dadını yada qoxusunu dəyişərsə, bu su nəcisdir və bunda icma vardır. Amma "Su təmizdir, onun dadını və ya qoxusunu dəyişən şeylərdən başqa heç bir şey onu nəcis etməz" rəvayətinə gəlincə, bu hədis sənəd baxımından zəifdir. Imami Nəvəvi bu hədis ilə dəlil gətirilməyin səhih olmadığını və İmami Şafinin də bu hədisin zəifliyini elm əhlidən nəql etdiyini" ifadə edir. (əl-Məcmu 1/160)

[8] İki qüllə, təqribən yüz doxsan (190) litrdi. Həcim etibarı ilə əlli səkkiz (58) cm (kubdur).

## جلود الميتة

**فصل وجلود الميتة تطهر بالدباغ إلا جلد الكلب والخنزير وما تولد منهما أو من أحدهما وعظم الميتة وشعرها نجس إلا الآدمي**

### *Murdar heyvanların dərisi*

*Murdar heyvanların dərisi aşılamaqla təmiz olur*[9]*. Yalnız it və donuz*[10] *və bu ikisindən və ya bunlardan biri ilə təmiz bir heyvanın birləşməsindən doğulan heyvanın dərisi aşılama ilə təmiz olmaz. Murdar heyvanın sümüyü və tükü də nəcisdir. İnsan ölüsü isə təmizdir*[11]*.*

## استعمال الأواني

**فصل ولا يجوز استعمال أواني الذهب والفضة ويجوز استعمال غيرهما من الأواني**

### *Qabların işlədilməsi*

*Qızıl və gümüş qabların işlədilməsi caiz deyildir*[12]*. Bu ikisindən başqa qabların işlədilməsi caizdir*[13]*.*

[9] Müslim (366), Abdullah bin Abbasdan (r.a) belə rəvayət edir: Abdullah (r.a) dedi ki; Peyğəmbər (s.a.v)-in belə dediyini eşitdim: "Dəri aşılandığı zaman təmiz olar."

[10] Çünki it və donuz canlı ikəndə nəcisdir. Elə isə öldükdən sonra da onun parçası daha da nəcisdir.

[11] Çünki Quran-i Kərimdə belə buyrulur; "Leş... sizə haram edildi." (Maidə/3) Leş, şəri` kəsim olmadan həyatını itirən hər heyvandır. Buna, eşşək kimi əti yeyilməyənlərdən kəsilən heyvan və şəri` kəsimin şərtləri yerinə gəlmədən kəsilən əti yeyilən hayvanlar daxildir. Məsələn: hər nə qədər sağlığa zərər verməsədə, mürtəd (dindən çıxan) birisinin kəsdiyi heyvan kimi. O halda leşin haram edilməsi, onun nəcis olduğuna dəlildir. Çünki (insan kimi) möhtərəm və və zərəri olmayan bir şeyin haram edilməsi, o şeyin nəcis olduğuna dəlildir. Nəcis olan bir şeyin parçalarının da nəcis olması təbiidir. İnsan ölüsü və həmçinin onun parçaları isə nəcis deyildir. Çünki Quran-i Kərimdə belə buyurulur: "Biz Adəm oğullarını hörmətli (şərəfli) etdik." (İsra/70) Elə isə insan oğlu öldükdən sonra onun nəcis olduğuna hökm etmək bu ayətə tərs düşər. İnsan ətinin haram edilməsi, hörmətli, yəni şərəfli olduğundan qaynaqlanır.

[12] Buxari (5110) və Müslim (2067), Huzeyfə bin Yəmandan (r.a) mövzu ilə əlaqədər bu hədisi rəvayət edirlər: Huzeyfə (r.a) dedi ki: Peyğəmbər (s.a.v)-in belə dediyini eşitdim: "İpək və ipək paltarları geyinməyin, qızıl və gümüş qablarda su içməyin, onlardan hazırlanmış qablarda yemək yeməyin. Çünki bu şeylər dünyada onlar (kafirlər) üçün, axirətdə isə sizin üçündür."

[13] Yəni, təmiz olan digər qabların işlədilməsi caizdir. Çünki haram olduğuna dair dəlil olmadıqca, əşyada əsl olan "ibahadır." Yəni təmiz sayılmasıdır.

**السواك**

**فصل والسواك مستحب في كل حال إلا بعد الزوال للصائم وهو في ثلاثة مواضع أشد استحبابا: عند تغير الفم من أزم وغيره وعند القيام من النوم وعند القيام إلى الصلاة**

***Misvak***

*Hər halda (hər zaman, hər yerdə) misvak işlətmək müstəhəbdir[14]. Ancaq oruclu kimsə üçün, zəvaldan (günəş səmanın tam ortasına gəlib, qərbə doğru meyil etdikdən) sonra müstəhəb deyildir[15].*

*Misvak, üç yerdə daha çox müstəhəbdir:*

*Uzun zaman danışmamaq və başqa səbəblərdən dolayı ağız qoxusunun dəyişdiyi zaman[16].*
*Yuxudan qalxdığı zaman[17].*
*Namaza duracağı zaman[18]*

**فرائض الوضوء**

**وفروض الوضوء ستة أشياء النية عند غسل الوجه وغسل الوجه وغسل اليدين إلى المرفقين ومسح بعض الرأس وغسل الرجلين إلى الكعبين والترتيب على ما ذكرناه**

***Dəstəmazın fərzləri***

*Dəstəmazın fərzləri 6 - dır:*

*Üzü yuyarkən dəstəmaz almağa niyyət etmək,*
*Üzü yumaq,*
*Dirsəklərlə bərabər hər iki əli yumaq,*
*Başın bir qismini məsh etmək,*
*Topuqlarla bərabər ayaqları yumaq,*
*Fərzləri bu sıralamaya uyğun yerinə gətirmək. Yəni, Tərtibə uymaq[19].*

---

[14] Nəsai (1/10) və başqası, Hz Aişə (r.anha)-dan bu hədisi rəvayət edirlər: Peyğəmbər (s.a.v) buyurdu: "Misvak, ağız üçün təmizlik, Rəbb üçün razı etmə vəsiləsidir."

Misvak, dişlərin ovalandığı alətə deyilir. Dişləri təmizləyə bilən hər sərt şeyi işlətməklə sünnət yerinə gəlmiş olar. Ancaq "misvak" deyə bilinən Ərak ağacının çubuğu daha gözəldir.

[15] Buna dair dəlil, Buxari (1795) və Müslimin (1151) Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyi bu hədisdir. Peyğəmbər (s.a.v) buyurdu: "And olsun ki, oruclu kimsənin ağız qoxusu, Allah qatında misk qoxusundan daha gözəldir." Misvak istifadə etmək ağız qoxusunu kəsdiyi üçün, zəvaldan sonra oruclu kimsənin misvak istifadə etməsi müstəhəb görülməmişdir. Əksinə məkruh görülmüşdür.

[16] Çünki ağız qoxusu uzun zaman sükut etmək və ya yemək-içməyi tərk etmək və pis qoxulu şeyləri yemək kimi başqa səbəblərdən dolayı meydana gəlir ki, misvak istifadə etməklə o qoxu yox olar.

[17] Buxari (242) və Müslim (255) və başqası Huzeyfə (r.a)-dan rəvayət edirlər: Huzeyfə (r.a) buyurdu ki: "Peyğəmbər (s.a.v) gecə qalxdığında (mübarək) ağzını misvak ilə fırçalayıb təmizləyərdi."

[18] Həmçinin dəstəmaz alacağı zaman da misvak istifadə edərdi. Bunun dəlili, Buxari (847) və Müslimin (252) və başqasının Əbu Hureyrə (r.a)-dan rəvayət etdikləri bu hədisdir. Peyğəmbər (s.a.v) buyurdu: "Əgər ümmətimə çətinlik yaratmasaydım, hər namaz anında onlara misvak işlətməyi əmr edərdim." İmam Əhməd bin Hənbəlin (6/325) bir rəvayətində,"Hər dəstəmazla bərabər misvakdan istifadə etməyi əmr edərdim," şəklində keçir. Bu hədis, misvak istifadə etməyin müəkkəd bir müstəhəb olduğunu ifadə edir.

[19] Dəstəmazın məşru olması və fərzlərinin bəyanı xüsusunda dəlil, bu ayəti kərimədir: "Ey iman edənlər, namaza qalxmaq istədiyiniz zaman üzlərinizi, dirsəklərlə bərabər əllərinizi yuyun, başınızı məsh edin və ayaqlarınızı da topuqlara qədər yuyun." (Maidə/6) Müslim (246) dəstəmazın necə alınacağına dair Əbu Hureyrə (r.a)-dan bunu

**سنن الوضوء**

**وسننه عشرة أشياء التسمية وغسل الكفين قبل إدخالهما الإناء والمضمضة والاستنشاق ومسح جميع الرأس ومسح الأذنين ظاهرهما وباطنهما بماء جديد وتخليل اللحية الكثة وتخليل أصابع اليدين والرجلين وتقديم اليمنى على اليسرى والطهارة ثلاثا ثلاثا والمولاة**

## *Dəstəmazın sünnətləri*

*Dəstəmazın sünnətləri 10 – dur:*

1. *Dəstəmaza başlayarkən "Bismilləh" demək*[20]*,*
2. *(Ağzı açıq olan bir qabdan əli ilə su alacaqsa) Batırmadan əvvəl əllərini yumaq,*
3. *(Ağıza su verərək) Mazmaza, və (Buruna su verərək) İstinşaq etmək,*
4. *Başın tamamını məsh etmək*[21]*,*
5. *Qulaqların içini və çölünü yeni bir su ilə məsh etmək*[22]*,*

---

rəvayət edir. " Əbu Hureyrə (r.a) dəstəmaz alarkən üzünü yudu və suyu üzün hər bir yerinə tam şəkildə çatdırdı. Son sağ əlini bazusu da daxil yudu. Sonra sol əlini bazusu da daxil yudu. Sonra başına məsh çəkdi. Sonra sağ ayağını baldırıda daxil yudu. Sonra sol ayağını baldırı da daxil yudu və belə dedi: Allah Rasulunu (s.a.v) belə dəstəmaz aldığını gördüm."

Başın bir qismini məsh etməyin yetərli olduğuna dair dəlil, İmam Müslimin (274) Muğira bin Şöbə (r.a)-dan rəvayət etdiyi hədisdir. "... Peyğəmbər (s.a.v), dəstəmaz alarkən alnına (kəkilinə) və əmmaməsinin üzərinə məsh etdi." Peyğəmbər (s.a.v)-in alnına (kəkilinə) məsh etməklə qane olması, məshin fərz olan miqdarın başın bir hissəsinin olduğuna dəlildir. Başın hər hansı bir hissəsinə məsh etməklə fərz yerinə gəlmiş olar.

Dəstəmazın əvvəlində və həmçinin niyyətin tələb olunduğu hər yerdə niyyətin olduğuna dəlil, Buxari (1) və Müslimin (1907) Ömər bin Xəttab (r.a)-dan rəvayət etdikləri bu hədisdir. Ömər (r.a) dedi ki: Peyğəmbər (s.a.v)-in belə buyurduğunu eşitdim: "Əməllər ancaq niyyətlərə görədir." Yəni, Şər`ən əməllər, ancaq niyyət edildiyi zaman sayılır.

Dəstəmazda tərtibin fərz olduğuna dair dəlil, yuxarıda Əbu Hureyrə (r.a)-dan rəvayət olunan hədis və başqa səhih hədislərlə sabit olan Peyğəmbər (s.a.v)-in dəstəmaz alma şəklidir. Imam Nəvəvi, əl-Məcmu (1/484) adlı kitabında belə deyir: "Şafii alimləri, Peyğəmbər (s.a.v)-in dəstəmazının necəliyi haqqında Səhabə camaatından gələn səhih hədislər ilə dəlil gətirmişdir. Bu səhabələrin tamamı Peyğəmbər (s.a.v)-in tərtiblə dastəmaz aldığını ifadə etmişdilər.

Səhabələrin çoxluğu və Peyğəmbər (s.a.v-)in dəstəmaz alarkən çox görmələri və bir dəfə, iki dəfə və ya üç dəfə yuyulacağına dair dəstəmazın necəliyində ixtilafların çox olması ilə bərabər, Peyğəmbər (s.a.v)-in tərtibsiz dəstəmaz aldığı sabit olmamışdır. Peyğəmbər s.a.v-in bu şəkildə dəstəmaz alması, Quràni Kərimdə əmr olunan dəstəmazın açıqlamasıdır. Şayət tərtibin tərk edilməsi caiz olsaydı, caiz olduğunun bilinməsi üçün Peyğəmbər s.a.v bəzi hallarda tərtibə riayət etməyi tərk edərdi. Necə ki dəstəmaz əzalarını bəzi vaxtlarda bir, bəzi vaxtlarda iki, bəzi vaxtlarda da üç dəfə yuyardı.

[20] Nəsai (1/61) Ənəs (r.a)-dan bunu rəvayət edir: Ənəs (r.a) dedi ki: "Peyğəmbər (s.a.v)-in bəzi Səhabələri dəstəmaz almaq üçün su axtardılar, amma tapmadılar. Allah rasulu (s.a.v), "Sizdən birinizdə su varmı? "deyə soruşdu. Bu arada biraz su gətirildi. Peyğəmbər (s.a.v), içində suyun olduğu qaba əlini qoydu və belə dedi: "Allahın adı ilə dəstəmaz alın." Bu arada Peyğəmbər (s.a.v)-in barmaqlarının arasından suyun fışqırdığını gördüm. Hətta yetmiş kişiyə yaxın adam o sudan dəstmaz aldı.

[21] Yuxarıda keçən dəstəmazın dörd sünnətinin dəlili, Buxari (183) və Müslimin (235) Abdullah bin Zeyd (r.a)-dan rəvayət etdiyi bu hədisdir. "Ondan Peyğəmbər (s.a.v)-in necə dəstəmaz aldığı soruşuldu. Oda bir qab su istədi və orada olanlara Peyğəmbər (s.a.v)-in dəstəmazını, dəstəmaz alaraq göstərdi. Öncə qabdan su tökərək əllərini üç dəfə yudu. Sonra əlini suya salaraq, ovucu ilə üç dəfə ağzına və burnuna su alıb təmizlədi. Sonra əlini suya salaraq üç dəfə üzünü yudu. Sonra əllərini dirsəklərə qədər iki dəfə yudu. Sonra əlini suya salaraq başına məsh etdi. əllərini bir dəfə önə və arxaya gəzdirdi. Sonra topuqlara qədər ayaqlarını yudu."

[22] Tirmizi (36) İbn Abbas (r.a)-dan bunu rəvayət edir. "Peyğəmbər (s.a.v), başını və qulaqlarının içini və çölünü məsh etdi. Nəsainin (1/74) rəvayətində isə belə keçir: "Başına və qulaqlarına məsh etdi. Qulaqlarının içini

6. *Sıx olan saqqalını hilallamaq[23],*
7. *Əl və ayaq barmaqlarının arasını ovmaq[24],*
8. *Sağ organları sol organlardan öncə yumaq[25],*
9. *Dəstəmaz orqanlarını üç dəfə yumaq[26]*
10. *Orqanları ard-arda (ara vermədən) yumaq[27]*

**FAYDA:** Dəstəmazdan sonra bu duanın oxunması müstəhəbdir;

**أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا اللَّهُ وَحْدَهُ لَا شَرِيكَ لَهُ، وَأَشْهَدُ أَنَّ مُحَمَّدًا عَبْدُهُ وَرَسُولُهُ: اللَّهُمَّ اجْعَلْنِي مِنْ التَّوَّابِينَ، وَاجْعَلْنِي مِنْ الْمُتَطَهِّرِينَ، سُبْحَانَكَ اللَّهُمَّ وَبِحَمْدِكَ أَشْهَدُ أَنْ لَا إِلَهَ إِلَّا أَنْتَ أَسْتَغْفِرُك وَأَتُوبُ إِلَيْك**

***Əşhədu əlləə iləəhə illəllàhu vəhdəhù ləə şərìkə ləhù, və aşhədu ənnə Muhammədən abduhù və rasùlù. Allàhumməc-alnì minə't-təvvàbìn, vəc'alnì minə'l-mutətahhirìn. Subhànəkə-llahummə və bi'həmdikə, əşhədu əl'ləə iləəhə illəə əntə əstəğfirukə və ətùbu iləykə.***

*"Şahidlik edirəm ki, Allahdan başqa İlah yoxdur-təkdir, ortağı yoxdur. Və yenə şahidlik edirəm ki, Muhamməd (s.a.v), Onun qulu və elşisidir. Allahım! Məni çox tövbə edənlərdən və məni təmizlənənlərdən et. Səni hər cür nöqsanlıqdan tənzih edir və Sənə həmd edirəm. Allahım! Şahidlik edirəm ki, Səndən başqa İlah yoxdur. Səndən günahlarımın bağəşlanmasını diləyir və sənə tövbə edirəm."*

Bu duanın tamamı Müslim (234), Tirmizi (55) və Nəsainin "gündüz və gecə əməlləri" haqqında rəvayət etdikləri hədislərdə keçir.

---

şəhadət barmağı ilə, çölünüdə baş barmaqları ilə ..." Hakimin (1/151), Peyğəmbər (s.a.v)-in dəstəmazı xüsusunda Abdullah bin Zeyddən belə rəvayət edir: "Peyğəmbər (s.a.v) dəstəmaz alarkən qulaqlarını, başına məsh etdiyi suyun xaricində, yeni bir su ilə məsh etdi." Hafiz Zəhəbi "bu hədis səhihdir" deyir.

[23] Əbu Davud (145), Ənəs (r.a)-dan rəvayət edir: "Peyğəmbər (s.a.v) dəstəmaz aldığı zaman bir ovuc su götürər, çənəsinin altına salaraq saqqalının arasını yuyar və belə buyurardı: "İzzət və Cəlal Sahibi Rəbbim mənə belə əmr etdi!"

[24] Əbu Davud, Laqit bin Sabra (r.a)-dan rəvayət edir. Laqit (r.a) dedi ki: "Mən, Ey Allahın rasulu, mənə dəstəmaz haqqında xəbər ver" dedim. O da (s.a.v), "gözəl dəstəmaz al, barmaqlarının arasını hilalla və oruclu deyilsənsə, burnuna yaxşıca su çəkib təmizlə" buyurdu."

[25] Buxari (140) İbn Abbas (r.a)-dan rəvayət edir: "İbn Abbas (r.a) dəstəmaz aldı. (Belə ki,) ... Sonra bir ovuc su aldı və onunla sağ əlini (qolunu) yudu. Sonra bir ovuc su aldı və onunla sol əlini (qolunu) yudu. Sonra da (əlini su ilə isladaraq) başını məsh etdi. Sonra sudan bir ovuc da aldı və az-az axıdaraq sağ ayağını yudu. Sonra bir ovuc da su aldı və sol ayağını yudu. Sonra belə dedi: H.z Peyğəmbəri (s.a.v) bax belə dəstəmaz alarkən gördüm."

[26] Müslim (230), Osman (r.a)-dan rəvayət edir: "Osman (r.h) Sizə Allah rasulunun necə dəstəmaz aldığını göztərim mi ? dedikdən sonra, dəstəmaz organlarını üç dəfə yuyaraq dəstəmaz aldı."

[27] Yəni: adətən yuyulan organın suyu qurumadan digər organı yumaq. Bunun dəlili, yuxarıda keçən hədislərdə məlum olan ardıcıllığ (a riayət olunması və arada fasilənin olmamasıdır).

**الاستنجاء**

**والاستنجاء واجب من البول والغائط والأفضل أن يستنجي بالأحجار ثم يتبعها بالماء ويجوز أن يقتصر على الماء أو على ثلاثة أحجار ينقي بهن المحل فإذا أراد الاقتصار على أحدهما فالماء أفضل**

**ويجتنب استقبال القبلة واستدبارها في الصحراء ويجتنب البول والغائط في الماء الراكد وتحت الشجرة المثمرة وفي الطريق والظل والثقب ولا يتكلم على البول ولا يستقبل الشمس والقمر ولا يستدبرهما**

## *İstinca*

*Böyük və kiçik tualet ehtiyacından sonra təmizlənmək vacibdir. Gözəl olan, öncə daşlarla və arxasından sudan istifadə edərək təmizlənməkdir. Yalnız su ilə təmizlənmək caiz olduğu kimi, "nəcis olan yeri təmizləyə bilən" yalnız üç daş ilə də istinca edərək təmizlənmək caizdir. İkisindən birisini ixtisar etmək istəsə, suyu işlətmək daha gözəldir.[28]*

*Böyük və kiçik tualet ehtiyacını görən kimsə aşağıda ki əməllərdən qaçınar:*

*Səhra kimi (qapalı olmayan yerlərdə) Qibləyə yönəlməkdən və ya ona arxasını dönməkdən,[29]*
*Durğun suda böyük və kiçik tualet ehtiyacını görməkdən,[30]*
*Meyvə verən ağacların altına ...,*
*Yollarda və kölgəlik olan yerlərdə...,[31]*
*Yerdəki dəlil və yarıqlara...,[32]*
*Tualet ehtiyacını görərkən danışmaqdan,[33]*

---

[28] Buxari (149) və Müslim (271), Ənəs bin Malik (r.a)-dan rəvayət edir. Ənəs (r.a) dedi ki: "Peyğəmbər (s.a.v), ayaqyoluna çıxdığında mən və bir uşaq (onun üçün) bir qab su və (üzərinə dəmir çəkilmiş) əsa apardıq. (H.z Peyğəmbər (s.a.v)) su ilə yuyunardı." Buxari (155) və başqası İbn Məsud (r.a)-dan rəvayət edir. İbn Məsud (r.a) dedi mi: "Peyğəmbər (s.a.v), təbii ehtiyacını dəf etmək üçün bir yerə gəldi və mənə üç daş gətirməyi əmr etdi." Əbu Davud (40) və başqası , Aişə (r.a)-dan rəvayət edirlər. Aişə (r.a) dedi ki: Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizdlərdən biri ayaqyoluna çıxdıqda təmizlənmək üçün özü ilə üç daş götürsün! Bu daşlar ona kifayət edər."

Əbu Davud (44), Tirmizi (3099) və İbn Macə (357), Əbu Hureyrə (r.a)-dən rəvayət edirlər. Əbu Hureyrə (r.a), Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu: " Bu ayə Quba əhli üçün nazil olmuşdur; "Orada paklanmağı sevən kişilər vardır. Allah pakları sevər. (Tövbə/108)" Əbu Hureyrə (r.a) dedi ki: "Onlar su ilə təmizlənirdilər və bu ayə onlara görə nazil oldu."

[29] Buxari (386) və Müslim (264), Əbu Əyyub əl-Ənsari (r.a)-dan, o da Peyğəmbər (s.a.v)-dən rəvayət edir: "Ayaq yoluna çıxdıqda nə önünüzü, nə də arxanızı qibləyə çevirməyin! Ya şərqə, ya da qərbə tərəf durun!" Bu hədis, səhra və ya qapalı olmayan məkanlara məxsusdur və bunun dəlili budur. Buxari (148), Müslim (226) və başqası İbn Ömər (r.a)-dan belə rəvayət edir: "Bəzi ehtiyacıma görə (bacım) Həfsə (r.a)-nın evinin damına çıxmışdım. H.z Peyğəmbəri (s.a.v) arxasi qibləyə, önü Şama doğru olduğu halda təbii ehtiyacını dəf etdiyini gördüm." Yuxarıda keçən iki hədis bir-birinə zidd kimi görünsədə, aralarında zidlik yoxdur. Birinci hədis ayaqyolu ehtiyacını görmək üçün nəzərdə tutulmayan və onun kimi qapalı olmayan məkanlara aid olduğu halda, ikinci hədis ayaqyolu üçün nəzərdə tutulan və onun kimi qapalı olan məkanlara aiddir.

[30] Müslim (281) və başqası, Cabir (r.a)-dan rəvayət edir: "Peyğəmbər (s.a.v) durğun (axmayan) suda kiçik tualet ehtiyacını görməyi qadağan etdi." Bu hədisdə sadəcə kiçik tualet ehtiyacından söz edilsədə, böyük tualet ehtiyacı daha çirkin olduğu üçün onunda qadağan olması daha münasibdir. Bu qadağan məkruhluq ifadə edər. İmam Nəvəvidən, "Haramı ifadə etdiyi" nəql olunmuşdur.(Müslimin şərhi: 3/187)

[31] Müslim (269) və başqası, Əbu-Hureyrə (r.a)-dan belə rəvayət edir. Peyğəmbər (s.a.v), "çox lənət gətirən iki şeydən qorxun" buyurdu. Onlar: "Ey Allahın Elçisi, çox lənət gətirən bu iki şey nədir ?" deyə soruşdular. Peyğəmbər (s.a.v), onlara belə cavab verdi.: "insanların yoluna və kölgələndiyi yerdə ayaqyoluna çıxmaq."

[32] Əbu-Davud (29) və başqası, Abdullah bin Sərcəs (r.a)-dan rəvayət etdiyinə görə belə dedi; "Peyğəmbər (s.a.v), yerdəki, dəliklərə yüngül işə çıxmağı qadağan etdi."

*Günəşə və ya aya yönəlməkdən və ya arxasını dönməkdən.*[34]

[33] Müslim (370) və başqası İbn Ömər (r.a)-dan belə rəvayət edir: “Biri yoldan keçərkən, Peyğəmbər (s.a.v)-i yüngül işə çıxarkən gördü və bu arada Peyğəmbər (s.a.v)-ə salam verdi. Ancaq Peyğəmbər (s.a.v) onun salamına qarşılıq vermədi.” Əbu Davud (15) və başqası Əbu Səid (r.a)-ın Peyğəmbər (s.a.v)-dən belə eşitdiyini rəvayət edirlər: “İki adam ayaqyolu ehtiyacını görmək üçün övrət yerlərini açıb danışaraq çıxmasın. Həqiqətən Allah, bu əmələ qəzəb edər.”

[34] İmam Nəvəvi, *əl-Məcmu (1/103)* adlı kitabında deyir ki: “bu mövzu ilə əlaqədar olan hədis zəyifdir, hətta batildir. Məşhur və səhih olan budur ki, günəş və aya yönəlmək məkruh, arxasını dönmək isə məkruh deyildir.” Xatib, *əl-İqna* (1/46) adlı kitabında “Mötəməd (sağlam) olan görüş budur” deyir.

**نواقض الوضوء**

**والذي ينقض الوضوء ستة أشياء ما خرج من السبيلين والنوم على غير هيئة المتمكن وزوال العقل بسكر أو مرض ولمسا الرجل المرأة الأجنبية من غير حائل ومس فرج الآدمي بباطن الكف ومس حلقة دبره على الجديد**

***Dəstəmazı pozan şeylər***

*Dəstəmazı pozan şeylər 6 – dır:*

1. *Ön və arxa yollardan çıxan şeylər*[35]*,*
2. *Oturaq yerin (arxanın) yaxşıca yerləşmədiyi halda yatmaq,*
3. *Xəstəlik və ya sərxoşluq səbəbi ilə ağlını itirmək*[36]*,*
4. *Arada bir mane olmadan kişinin (dərisinin) naməhrəm qadının (dərisinə) toxunması*[37]*,*
5. *Əlin içi ilə insanın tənasül orqanına toxunması*[38]*,*
6. *İmami Şafinin cədid (yeni) görüşünə görə, əlin içi ilə anal halqasına toxunmaq*[39]*,*

---

[35] Bunun dəlili, bu ayəti kərimədir: "… Sizdən biri ayaqyolundan gəlmişsə…" (Maidə/6) Ayrıca hədisdə də, Buxari (135) və Müslim (225) Əbu Hureyrə (r.a )- dan belə rəvayət edir. Peyğəmbər (s.a.v) buyurdu: "Hədəs halı (dəstəmazın pozulması halı) baş verdiyi zaman, namazı dəstəmaz almadıqca qəbul olmaz. Həzrəmövt`dən olan bir adam belə dedi: Ey Əbu Hureyrə, hədəs nə deməkdir. Cavab Verdi ki: səsli və ya səssiz yel çıxartmaqdır." Ön və ya arxadan çıxan hər şey – təmiz olsa belə- Əbu Hureyrə (r.a)-ın zikir etdiyi şeyə qiyas edilir.

[36] Əbu Davud (203) və başqası, H.z Əli (r.a)-dan belə rəvayət edir. Allah rasulu (s.a.v) buyurd: "Gözlər arxanın ipidir. Kim yatarsa dəstəmaz alsın." Yəni insane oyanıq ikən bir şeyin çıxmasına diqqət edər və onu hiss edər. Yatdığı zaman isə bir şeyin çıxma şübhəsi yaranır.

[37] Çünki Qurani Kərimdə dəstəmazın pozulması ilə əlaqəli olan ayətdə belə keçir: "…Və ya qadınlara toxunmuşsunuzsa..." (Maidə: 6)

[38] Beşlər (5 hədis kitabı), Busra bintu Safvan (r.a)-dan rəvayət etdiyinə görə, Peyğəmbər (s.a.v) belə buyurdu: "Övrət (tənasül) yerinə toxunan kimsə, dəstəmaz almadıqca namaz qılmasın." Nəsai`nin (1/100) rəvayətində, "Övrət (tənasül) yerinə toxunmaqdan ötrü dəstəmaz alınır" şəklində keçir. Özünün və ya başqasının övrətinə yerinə toxunması fərq etməz. İbn Macə`nin (481) Ümmü Həbibə (r.a)-dan rəvayətində belə keçir: "Övrət (tənasül) yerinə toxunan dəstəmaz alsın." Bu ifadə kişilərə şamil olduğu kimi qadınlara da şamildir. Eyni zamanda arxa mənfəzə (anal halqasına) da şamildir.

[39] İmami Şafi`nin yeni görüşü, Misirə getdikdən sona orada əsərində yazaraq təsnif etdiyi və ya fətva verdiyi görüşlərdir. Məzhəb içində daim bu görüşlə əməl olunur. Ancaq məzhəb alimlərinin, İmami Şafinin əvvəlki görüşlərindən tərcih etdiyi məsələlər istisna.

**موجبات الغسل**

**والذي يوجب الغسل ستة أشياء ثلاثة تشترك فيها الرجال والنساء وهي التقاء الختانين وإنزال المني والموت وثلاثة يختص بها النساء وهي الحيض والنفاس والولادة**

***Qüsl***

*Qüslu vacib edən hallar 6 – dır:*

*Bunların üçündə kişilər və qadınlar ortaqdır.*

1. *Cinsi münasibət*[40]
2. *Məni`nin (bel suyunun) çıxması*[41]
3. *Ölüm*[42]

*Qüslu vacib edən digər üç səbəb isə sadəcə qadınlara məxsusdur:*

1. *Heyz (aybaşı)*[43]
2. *Nifas (zahılıq)*[44]
3. *Doğum*[45]

---

[40] Buxari (287) və Müslim (348), Əbu Hureyrə (r.a)-dan, o da Peyğəmbər (s.a.v)-dən belə rəvayət edir: "(Kişi) qadının dörd əzası (əlləri və ayaqları) arasında oturar, sonar da onunla cinsi əlaqəyə girərsə, (hər ikisinə) qüsl etmək vacib olar." Müslim`in rəvayətində, "hər nə qədər məni (bel suyu) çıxmasa belə" şəklində keçir. Bu hədis, məni çıxmasa belə yalnız cinsi münasibətdə qüslun lazım olduğu dəlildir. Necə ki, Müslim`in rəvayəti bunu açıq bir şəkildə ifadə edir.

[41] Buxari (278) və Müslim (313), Ümmü Sələmə (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Ümmü Süleym (r.a), Peyğəmbər (s.a.v)-in yanına gəldi və belə dedi: Ey Allahın Rəsulu, şübhəsiz Allah haqqı söyləməkdən həya etməz. Qadın ehtilam olduğunda ona qüsl etmək vacib olur? H.z Peyğəmbər (s.a.v) buyurdu: "Bəli, su gördüyü zaman." Yəni: Məninin çıxdığını gördüyü zaman qüsl lazım gəlir. Əbu Davud (239) və başqası, H.z Aişə (r.a)-dan rəvayət etdiklərinə görə belə dedi: "Peyğəmbər (s.a.v)-dən, yuxuda ehtilam olduğunu xatırlamayıb paltarında yaşlılıq görən biri haqda soruşuldu. "Qüsl alsın" deyə cavab verdi. Sonra ehtilam olduğunu xatırlayıb paltarında yaşlılıq görməyən kimsə haqda soruşuldu. "Ona qüsl yoxdur" deyə cavab verdi. Ümmü Süleym (r.a), "Qadın da bu səbəbdən qüsl almalıdır?" deyə soruşduqda belə buyurdu: "Bəli! Çünki qadınlar kişilərin bənzəridir." Yəni yaradılış və təbiətdə onların bənzəridir.

[42] Buxari (1195) və Müslim (939), Ümmü Atiyyə əl-Ənsari (r.a)-dan belə rəvayət edir: "Peyğəmbər (s.a.v)-in qızı vəfat etdiyi zaman, bizə gələrək "onu üç dəfə yuyun...!" dedi. Buxari (1208) və Müslim (1206), İbnu Abbas (r.a)-dan bunu rəvayət edir: "Bir kişi dəvəsinin üzərindən yıxıldı və boynu sınaraq öldü. Biz də Peyğəmbər (s.a.v) ilə bərabər idik. O ehramda idi. Bu arada Peyğəmbər (s.a.v) belə buyurdu: "onu su və sidirlə yuyun və iki paltarda (parçada) kəfənləyin..."

[43] Bu mövzuda dəlil, bu ayəti-kərimədir: "Heyz zamanı qadınlardan kənar olun, (heyzdən) təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən (qüsl aldıqdan) sonra isə Allahın sizə əmr etdiyi yerdən onlara yaxınlaşın." (Bəqərə/222)

Buxari (314), H.z Aişə (r.a)-dan belə rəvayət edir: Allah rəsulu (s.a.v), Əbu Hubeyşin qızı Fatimə (r.a)-a belə dedi: "Heyz gəldiyində namaz qılmağı tərk et. Getdiyində (sona çatdığında) isə qüsl et və namaz qıl."

[44] Bu Xüsusda dəlil, doğum etmək halını, heyz halına qiyas etməkdir. Çünki bu halda çıxan qan, toplanmış heyz qanıdır.

[45] Çünki doğulan uşaq mənidən meydana gəlmiş və əksər hallarda onunla bərabər qan da çıxar.

**فرائض الغسل**

**وفرائض الغسل ثلاثة أشياء النية وإزالة النجاسة إن كانت على بدنه وإيصال الماء إلى جميع الشعر والبشرة**

***Qüslun fərzləri***

*Qüslun fərzləri 3 – dür:*

1. *Niyyət etmək*[46]
2. *Bədəninin üzərində nəcasət varsa, onu təmizləmək*[47]
3. *Bədənində ki bütün tükləri dərisi ilə bərabər yumaq*[48]

**سنن الغسل**

**وسننه خمسة أشياء التسمية والوضوء قبله وإمرار اليد على الجسد والمولاة وتقديم اليمنى على اليسرى**

***Qüslun sünnətləri***

*Qüslun sünnətləri 5 – dir:*

1. *Qüslə "bismilləh" deyərək başlamaq*[49],
2. *Qüsldan əvvəl dəstəmaz almaq*[50],
3. *Əlləri, bədənin üzərində gəzdirmək (ovmaq)*[51],
4. *(Orqanları) Ard arda yumaq*[52],
5. *Sağ tərəfi sol tərəfdən əvvəl yumaq*[53].

---

[46] Bunun dəlili; "Əməllər ancaq niyyətlərə görədir" hədisidir.

[47] Bunun dəlili, Buxarinin (246), Peyğəmbər (s.a.v)-in mübarək bədənini yuması xüsusunda Hz. Məymunə (r.a)-dan etdiyi bu rəvayətdir: "(sonra) ayıb yerini yuyar və ona (oralara) bulaşanı (nəcasət və kiri) yuyardı." Ancaq İmam Nəvəvi, kitablarında qüsl suyunun kiri də təmizləməyə kifayət etdiyi, beləliklə iki dəfə yuyunmağa gərək olmadığını ifadə etmişdir. Mötəməd (güvənilən) olanda budur. Bu etibarla qüsl etmədən əvvəl kiri yuyub təmizləmək sünnətdir. (əl-İqna)

[48] Buxari (245) və Müslim (316), Hz. Aişə (r.a)-dan belə rəvayət edir: " Peyğəmbər (s.a.v) cünubluqdan qüsl etdiyi zaman (əvvəlcə) iki əlini yumaqdan başlayar, sonra namaz üçün dəstəmaz aldığı kimi dəstəmaz alar, sonra barmaqlarını suya salıb onlar ilə saçlarının köklərini isladar, sonra iki əliylə başəna üç ovuc su tökər, sonra da bütün vücuduna su tökərdi." Əbu Davud (249) və başqası H.z Əli (r.a)-ın Peyğəmbər (s.a.v)-dən belə eşitdiyini rəvayət edir: "Kim bir tük yeri miqdarı su ilə islatmayıb cənabətli buraxarsa, Allah ona atəşdə (cəhənnəmdə) belə belə edər." Hz. Əli (r.a) buyurdu: "Bu səbəbdən saçlarıma düçmən kəsildim." Buna görə Hz. Əli (r.a) saçlarını qırxardı.

[49] Çünki hədisi şərifdə belə keçir: "Rəhman və Rəhim olan Allahın adı ilə başlanılmayan hər iş, bərəkən yönündən kəsik və nöqsandır." (Kəşf-ul Xafə: 1964)

[50] Az əvvəl yuxarıda keçən H.z Aişə (r.a)-dan rəvayət olunan hədisə əsasən... .

[51] Bunu vacib görən Malikilərə müxalifət etməkdən qurtulmaq üçün.

[52] Yenə Malikilərə müxalifət etməkdən qurtulmaq üçün. Çünki bu da onlara görə vacibdir.

[53] Çünki Buxari (166) və Müslim-in (268), H.z Aişə Anamızdan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) ayaqqabısını geyinərkən, saçını darayarkən, yuyunarkən (xülasə), bütün (əksər) işlərində sağ tərəfdən başlamağı xoşlayardı."

**الاغتسالات المسنونة**

**والاغتسالات المسنونة سبعة عشر غسلا غسل الجمعة والعيدين والاستسقاء والخسوف والكسوف والغسل من غسل الميت والكافر إذا أسلم والمجنون والمغمى عليه إذا أفاقا والغسل عند الإحرام ولدخول مكة وللوقوف بعرفة وللمبيت بمزدلفة ولرمي الجمار الثلاث وللطواف وللسعي ولدخول مدينة رسول الله صلى الله عليه وسلم**

***Sünnət olan qüsullar***

*Sünnət olan qüsllər 17 – dir:*

1. *Cümə namazı üçün qüsl almaq[54],*
2. *İki bayram namazı üçün qüsl almaq[55],*
3. *Yağış duası namazı üçün qüsl almaq,*
4. *Günəş tutulması namazı üçün qüsl almaq,*
5. *Ay tutulması namazı üçün qüsl almaq[56],*
6. *Ölünü yuyan kimsənin qüsl alması[57],*
7. *Yeni müsəlman olan adamın qüsl alması[58],*
8. *Dəlinin ağlı başına gəldiyi zaman qüsl alması,*
9. *Huşunu itirən kimsənin özünə gəldiyi zaman qüsl alması[59],*

---

[54] Buxari (837) və Müslim (844) və başqası, İbn Ömər (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizdən biriniz cüməyə gəldiyi zaman qüsl alsın." Müslimə aid rəvayətdə isə, "sizdən biriniz cüməyə gəlmək istədiyi zaman" şəklində keçir. Hədisdə ki ifadə, cümə günü qüsl almağı vacib kimi göstərsə də Tirmizinin (492), "Kim cümə günü dəstəmaz alarsa sünnətə uymuş olar və yaxşı etmiş olar. Kim də qüsl alarsa, daha fəzilətlisini (yaxşısını) etmiş olar" şəklində ki rəvayəti, qüslun vacib olma ehtimalını uzaqlaşdırır.

[55] İmam Malik, əl-Muvatta adlı kitabında belə rəvayət edir: "Abdullah bin Ömər (r.a) Ramazan bayramı günü namazgaha getmədən əvvəl qüsl alardı." Qurban bayramı günü qüsl alma da, buna qiyas edilmişdir.

[56] Yağış duası, ay tutulması və günəş tutulması üçün qüsl almağın müstəhəb olduğuna dair nəqli dəlilə rastlaşmadım. Umulur ki, alimlər bunları cümə və bayram günlərinə qiyas ediblər. Çünki burada da camaatın məşru olması və insanları toplanması yönündən cümə və bayram günü mənasındadır.

[57] Əbu Hureyrə (r.a), Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Kim bir ölünü yuyarsa, qüsl alsın. Və kim də cənazəni daşıyarsa, dəstəmaz alsın." Bu hədisi beşlər (5 hədis kitabı) rəvayət edir. İmam Tirmizi (993) bu hədisin Həsən hədis olduğunu deyir. Hədisin vaciblik ifadə etməyinə mane olan, Hakim`in (1/386) bu rəvayətidir: "Ölünüzü yuduğunuz zaman, üzərinizə qüsl almaq vacib deyildir."

[58] Əbu Davud (355) və Tirmizi (605), Qays bin Asimin belə dediyini rəvayət edir: "Mən müsəlman olmaq məqsədi ilə Peyğəmbər (s.a.v)-in yanına gəldim. Mənə, su və sidr qüsl almağımı əmr etdi." "Sidr," məlum ağacdan ovulan yarpaqdır.

Tirmizi, bu hədisi rəvayət etdikdən sonra, "elm əhlinin qatında əməlin bunun üzərinə olduğunu və müsəlman olan kişinin qüsl alması və paltarını da yuması müstəhəb olduğunu" deyir. Nəticə olaraq, müsəlman olduqdan sonra qüsl almaq vacib deyildir. Çünki Peyğəmbər (s.a.v)-in, hər müsəlman olanın qüsl almasına dair bir əmri yoxdur.

[59] Bu mövzuda dəlil, Buxari (655) və Müslimin (418), H.z Aişə (r.anha)-dan rəvayət etdiyi hədisdir: "Hz.Peyğəmbər (s.a.v)-in halı ağırlaşmışdı. O buyurdu: "Camaat namazı qılındımı ?" Cavab verdik ki: Xeyr, onlar səni gözləyirlər, ya Rəsulallah! Buyurdu ki: "Mənim üçün ləyəndə su hazırlayın!" (H.z Aişə) dedi: biz onun dediyini etdik. O (ləyəndə oturub) yuyundu. Çətinliklə özünü ayağa qaldırmağa çalışdı. Lakin huşunu itirdi. Sonra özünə gəldi və buyurdu: "Camaat namaz qıldımı ?" Biz dedik: xeyr, onlar səni gözləyirlər, ya Rasulallah! Buyurdu ki: "Mənim üçün ləyəndə su hazırlayın!" (H.z Aişə) dedi: O (ləyəndə) oturub yuyundu. Ayağa qalxmağa çalışdı. Lakin yenə yenə huşunu itirdi... " göründüyü kimi Peyğəmbər (s.a.v) huşunu itirib, sonra özünə gəldikdən sonra qüsl almışdır. Dəli kimsənin də qüsl alması buna qiyas edilmişdir. Hətta dəlinin qüsl alması daha uyğundur.

10. *Ehrama girəcəyi zaman qüsl almaq*[60]*,*
11. *Məkkəyə girmək üçün qüsl almaq*[61]*,*
12. *Ərafatda vəqfə etmək üçün qüsl almaq*[62]*,*
13. *Müzdəlifədə gecələmək üçün qüsl almaq*[63]*,*
14. *Üç cəmrəyə (şeytana) daş atmaq üçün qüsl almaq*[64]*,*
15. *Təvaf etmək üçün qüsl almaq,*
16. *Safa və Mərvə arasında səy (gedib-gəlmək) etmək üçün qüsl almaq,*
17. Mədinə-i Münəvvərəyə girmək üçün qüsl almaq.

---

[60] Tirmizi (830), Zeyd bin Sabit (r.a)-dan bunu rəvayət edir: "Mən, Peyğəmbər (s.a.v)-i, ehram üçün soyunub qüsl aldığını gördüm."

[61] Buxari (1478) və Müslim (1259), İbn Ömər (r.a)-dan belə rəvayət edir: "İbn Ömər (r.a), Məkkəyə gəldiyi hər dəfəsində səhərə kimi Tuva (Məkkə yaxınlığında) adlanan yerdə gecələyər və qüsl alar. Sonra günorta Məkkəyə daxil olardı və Peyğəmbər (s.a.v)-in belə etdiyini söyləyərdi."

[62] İmam Malik, əl-Muvatta adlı əsərində (1/322) İbn Ömər (r.a)-dan belə rəvayət edir: "İbn Ömər (r.a), ehrama girmədən əvvəl qüsl alardı. Həmçinin Məkkəyə girmək Ərafat`da vəqfə etmək üçün qüsl alardı."

[63] Səhih olan budur ki, müzdəlifədə gecələmək üçün qüsl almaq müstəhəb deyildir. (Bax: Nihayə)

[64] Mötəməd (güvənilən) budur ki; Təvaf üçün qüsl almaq sünnət deyildir.

**المسح على الخفين**

**والمسح على الخفين جائز بثلاث شرائط أن يبتدئ لبسهما بعد كمال الطهارة وأن يكونا ساترين لمحل الفرض من القدمين وأن يكونا مما يمكن تتابع المشي عليهما ويمسح المقيم يوما وليلة والمسافر ثلاثة أيام بلياليهن وابتداء المدة من حين يحدث بعد لبس الخفين فإن مسح في الحضر ثم سافر أو مسح في السفر ثم أقام أتم مسح مقيم**

***Məstlər üzərinə məsh etmək***

*Məstlər üzərinə məsh etmək üç şərtlə caizdir:*[65]

1. *Məstləri, dəstəmaz tamamlandıqdan sonra geyinmək (Yəni, hər iki ayağı yuduqdan sonra geyinmək)*[66]*,*
2. *Hər iki məstin, ayaqlardan yuyulması fərz olan yerləri örtməsi,*
3. *Hər iki məstin, üzərində ard-arda gəzə bilməyin mümkün olması (davamiyyətli olması),*

*Muqim (məskunlaşdığı yerdə yaşayan) kimsələr bir gün bir gecə, müsafir (yolçu olan) kimsələr isə gecələri ilə bir yerdə üç gün (ayaqlarını yumadan) məstlər üzərinə məsh edərək dəstəmaz ala bilərlər.*[67] *(İstər muqim, istərsə də müsafir olanlar üçün) məshin müddəti, məstləri geyindikdən sonra* dəstəmazın *pozulduğu zamandan başlayar.*

*Əyər yaşadığı yerdə məsh edib sonra səfərə çıxarsa və ya səfərdə olan birisi məsh edib sonra yaşadığı yerə qayıdarsa, muqimlik halında olan kimsənin məsh edə biləcəyi miqdar (1 gün, 1 gecə) məsh edər.*

---

[65] Məshin caiz olduğuna dair hədislər çoxdur. Bunlardan biri, Buxari (380) və Müslimin (272), Cərir (r.a)-dan rəvayət etdikləri bu hədisdir: "Cərir (r.a) ayaqyoluna çıxdı, sonra dəstəmaz aldı və məstlərinin üzərinə məsh çəkdi. Ondan: "Sən belə edirsən ?" deyə soruşulduğunda, O: Bəli Peyğəmbər (s.a.v)-i ayaqyoluna çıxdığını, sonra dəstəmaz alıb ayağına məstin üzərinə məsh çəkdiyini gördüm." Həsəni Bəsri, "məsh mövzusunda feli və sözlü olmaqla yetmiş rəvayət vardır" deyir.

[66] Buxari (203) və Müslim (274), Muğira bin Şöbə (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Yolçuluq əsnasında bir gecə Peyğəmbər (s.a.v) ilə bərabər idim. Onun (s.a.v) əllərinə su tökdüm. O da (s.a.v) , üzünü və və dirsəklərə qədər əllərini yuduqdan sonra başına məsh etdi. Sonra məstlərini çıxarmaq üçün əyildim. Bu arada Peyğəmbər (s.a.v) dedi: "onlarla işin olmasın, mən onları (ayaqlarım) təmiz olduğu halda geyinmişəm," –dedi və onlara məsh çəkdi."

[67] Müslim (276) və başqası, Şureyh bin Həni (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Hz. Aişə (r.a)-nın yanına gəldim. Ondan məstlər üzərinə məsh etmək haqda soruşmaq Müslim (276) və başqası, Şureyh bin Həni (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Hz. Aişə (r.a)-nın yanına gəldim. Ondan məstlər üzərinə məsh etmək haqda soruşmaq istəyirdim. Mənə belə cavab verdi: "Əli (r.a)-nın yanına get, ondan soruş çünki o, Peyğəmbərlə (s.a.v) səfərə çıxardı. Mən ondan bu haqda soruşduqda belə buyurdu: "Peyğəmbər (s.a.v) müsafirə üç gün - üç gecə, yerli üçün isə bir gün - bir gecə məsh çəkməyə izn verdi."

**مبطلات المسح على الخفين**

**ويبطل المسح بثلاثة أشياء بخلعهما وانقضاء المدة وما يوجب الغسل**

***Məshi pozan şeylər***

*Məshi pozan şeylər 3 – dür:*

1. *Məstlərin ayaqdan çıxması və ya çıxarılması,*
2. *Məstin müddətinin bitməsi,*
3. *Qüsl almağı gərəkdirən bir halın meydana gəlməsi[68],*

**التيمم**

**وشرائط التيمم خمسة أشياء: وجود العذر بسفر أو مرض، ودخول وقت الصلاة، وطلب الماء، وتعذر استعماله وإعوازه بعد الطلب، والتراب الطاهر الذي له غبار فإن خالطه جص أو رمل لم يجز**

***Təyəmmüm***

*Təyəmmümün şərtləri 5 –dir:*

1. *Səfər və ya xəstəlik kimi bir üzrün olması[69],*
2. *Namaz vaxtının girməsi[70],*
3. *Suyun axtarılması (və tapılmaması),,*
4. *Suyun tapılması halında işlədilməsinin üzrlü olması və -mövcud suya- ehtiyacın olması,*
5. *Tozlu təmiz torpağın olması. Əyər torpağa əhəng və ya qum qarışarsa, təyəmmüm caiz olmaz.*

---

[68] Tirmizi (96) və Nəsai (1/63), Safvan bin Assal (r.a)-dan rəvayət etdiklərinə görə belə dedi: "Biz səfərdə olduğumuz zaman Peyğəmbər (s.a.v), "cənabətlik halı xaric", yatmaqdan, böyük və kiçik tualet ehtiyacından dolayı dəstəmaz aldığımızda, məstləri 3 gün 3 gecə çıxartmadan üzərinə məsh etməyimizi əmr edərdi."

[69] Çünki Qurani Kərimdə belə buyurulur: "Əyər xəstə və ya səfərdə olsanız, yaxud sizlərdən biri ayaqyolundan gəlibsə və ya qadınlara toxunmuşsunuzsa, su tapmasanız, təmiz torpaqla təyəmmüm edin." (Maidə/6)

Buxari (341) və Müslim (682), İmran bin Huseyn (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Peyğəmbər (s.a.v) ilə bərabər səfərə çıxmışdıq. Peyğəmbər (s.a.v) insanlara namaz qıldırdı. Namazı bitirincə camaatla birgə namaz qılmayıb (kənarda) təkbaşına dayanmış bir adam gördü. Peyğəmbər (s.a.v) buyurdu: "Ey filankəs, camaatla birgə namaz qılmağına mane olan nədir ?" Adam dedi: cunub olmuşam (yanımda) su da yoxdur. Peyğəmbər (s.a.v) buyuru: "təmiz torpaqla təyəmmüm et, o sənə kifayət edər."

[70] Buxari (328), Cabir bin Abdullah (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: " Yer üzü mənə məscid və təmizləyici qılındı. Ümmətimdən hər bir şəxs namaz vaxtı girdiyində namazı qılsın." İmam Əhmədin rəvayətində, "Harada namaz vaxtına yetişdimsə, məsh edib namaz qıldım" şəklində keçir.

Hər iki rəvayətdən anlaşıldığına görə: namazın vaxtı girdikdən sonra, suyu tapmayan kimsə təyəmmüm edib namazını qıla bilər.

فرائض التيمم

وفرائضه أربعة أشياء النية ومسح الوجه ومسح اليدين مع المرفقين والترتيب

***Təyəmmümün fərzləri***

*Təyəmmümün fərzləri 4 – dür:*

1. *Niyyət etmək,*
2. *Torpaqla üzünü məsh etmək,*
3. *Dirsəklərlə bərabər əlləri məsh etmək,*
4. *Tərtibə (sıraya) riayət etmək*[71].

سنن التيمم

وسننه ثلاثة أشياء التسمية وتقديم اليمنى على اليسرى والمولاة

***Təyəmmümün sünnətləri***

*Təyəmmümün sünnətləri 3 – dür:*

1. *"Bismilləh" çəkmək,*
2. *Sağ üzvü sol üzüvdən əvvəl məsh etmək,*
3. *Muvalat (yəni, üzvləri ard arda məsh etmək)*[72].

مبطلات التيمم

والذي يبطل التيمم ثلاثة أشياء ما أبطل الوضوء ورؤية الماء في غير وقت الصلاة والردة

***Təyəmmümü pozan şeylər***

*Təyəmmümü pozan şeylər 3 – dür:*

1. *Dəstəmazı pozan şeylər,*
2. *Namaza girmədən su görmək*[73],
3. *Dindən çıxmaq.*

---

[71] Çünki Quranı Kərimdə, tərtib deyə ifadə olunan sıralama belə keçir: "... təmiz torpaqla təyəmmüm edin və ondan üzünüzə və əllərinizə məsh edin." (Maidə/6) Ayəti Kərimədə keçən, "təyəmmüm edin (yəni, qəsd edin)" ifadəsi niyyətin fərz olduğuna dəlildir. Ayrıca hədisi şərifdə belə buyurulur: "Əməllər ancaq niyyətlərə görədir."

[72] Dəstəmazda olduğu kimi. Çünki təyəmmüm də dəstəmazın bədəlidir və onun yerinə keçir.

[73] Tirmizi (124) və başqası Əbu-Zər (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Təmiz torpaq müsəlmanın təmizləyicisidir, on il su tapmasa belə. Ancaq su taparsa onunla dəstəmaz alsın. Həqiqətən su işlədərək dəstəmaz almaq daha xeyirlidir." Bu hədis, su tapıldığı zaman dəstəmazın pozulmasına dəlildir.

**مبطلات التيمم**

**وصاحب الجبائر يمسح عليها ويتيمم ويصلي ولا إعادة عليه إن كان وضعها على طهر ويتيمم لكل فريضة ويصلي بتيمم واحد ما شاء من النوافل**

***Sarğı üzərinə məsh etmək***

*Bədənindəki dəstəmaz orqanlarında qırıq və ya yara səbəbiylə sarğısı olan kimsə,sarğı dəstəmazlı ikən sarılmışsa (və sarğı təyəmmüm əzalarında –üz və qollarda- deyilsə), onu açmadan və altını yumadan yalnız üzərinə məsh edər və yerinə təyəmmüm alar. Bu şəkildə namazlarını qılar və qıldığı namazları (təkrar) iadə etməz.*[74]

*Bir təyəmmüm ilə yalnız bir fərz namaz qılınır.*[75] *Nafilə namazları isə istədiyi qədər qıla bilər.*

[74] Əbu-Davud (336) və başqası Cabir (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Səfərə çıxmışdıq. Içimizdən bir kişiyə daş dəydə və başını yardı. Sonra onun boynuna cənabət qüslu düşdü. Yoldaşlarından: “Mənim təyəmmüm etməyimə bir rüxsət varmı ?” deyə soruşduqda, onlar: “Sən su istifadə edə bilirsən ona görə sənin üçün bir rüxsət bilmirik!” dedilər. Kişi qüsl aldı və öldü. Peyğəmbər (s.a.v)-in yanına qayıtdığımız zaman bunu ona xəbər verdilər. Peyğəmbər (s.a.v) buyurdu: “Allah onları öldürsün, kişini öldürdülər! Bilmədiklərini soruşa bilmirdilərmi. Şübhəsiz cahilliyin dərmanı sualdır! Ona yalnız təyəmmüm etməsi və yarasının üzərinə bez bağlayıb üzərinə məsh etməsi, sonra bədəninin qalan hissəsini yuması ona kifayət idi.”

[75] Beyhaqi (1/221) səhih bir isnadla İbn Ömərdən (r.a)-dan bunu rəvayət edir: “Dəstəmaz pozulmasa belə hər fərz üçün təyəmmüm alar.”

**أنواع النجاسات**

**وكل مائع خرج من السبيلين نجس إلا المني وغسل جميع الأبوال والأرواث واجب إلا بول الصبي الذي لم يأكل الطعام فإنه يطهر برش الماء عليه ولا يعفى عن شيء من النجاسات إلا اليسير من الدم وما لا نفس له سائلة إذا وقع في الإناء ومات فيه فإنه لا ينجسه والحيوان كله طاهر إلا الكلب والخنزير وما تولد منهما أو من أحدهما والميتة كلها نجسة إلا السمك والجراد والآدمي ويغسل الإناء من ولوغ الكلب والخنزير سبع مرات إحداهن بالتراب ويغسل من سائر النجاسات مرة تأتي عليه والثلاثة أفضل وإذا تخللت الخمرة بنفسها طهرت وإن خللت بطرح شيء فيها لم تطهر**

***Nəcasətlər***

*Məni (bel suyu) xaric,*[76] *ön və arxadan çıxan hər şey nəcisdir.*[77] *Bu səbəbdən bütün idrar və nəcisləri yumaq vacibdir.*[78] *Ancaq yemək yeməyən (oğlan) uşağın idrarı xaric. Onun dəydiyi yerin üzərinə su səpməklə təmiz olur.*[79]

*Paltar və ya bədəndə az olan irin və qan xaricindəki nəcasətlərdən əfv yoxdur. Ayrıca (milçək kimi) axıcı qanı olmayan bir canlı, içində maye olan bir qaba düşərsə, onu nəcis etməz.*[80]

---

[76] İnsanların və "it və donuz xaric" digər heyvanların mənisi nəcis deyildir. İnsan mənisi haqqında Müslim (288) və başqasının Hz. Aişə (r.a)-dan bunu rəvayət edir: "Mən Rəsulullahın (r.a) paltarından mənini ovalardım. Rəsulullahda gedib həmin paltarda namaz qılardı." Şayət məni nəcis olsaydı ovalamaq kifayət etməzdi.

Ancaq insanlardan başqa canlıların mənisinə gəlincə: çünki heyvanın əsli təmizdir. Belə olunca insanın mənisinə bənzəyir. İt və donuz isə, onların özləri nəcis olduğu üçün mәniləri də nəcisdir.

[77] Buxari (214) Ənəs bin Malik (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) təbii ehtiyacını dəf etmək üçün ayaqyoluna çıxdığında, mən onun üçün su aparardım, o da onunla yuyunardı."

Buxari (176) və Müslim (303), Hz. Əli (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Tez-tez məzisi gələn bir adam idim. (Ancaq) Peyğəmbər (s.a.v)-ə (bunun hökmünü) soruşmağa utanırdım. (Elə buna görə də) Miqdad bin Əvsədə (r.a) əmr etdim (ki, bu haqda) Rəsulullah (s.a.v)-dən soruşsun, o da soruşdu. Peyğəmbər (s.a.v) buyurdu ki; "Məzi də (məzi ifraz olduqda sadəcə) dəstəmaz alınar. Müslimdə isə "övrət yerini yuyar və dəstəmaz alar" şəklində keçir.

Buxari (155), Abdullah bin Məsud (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) təbii ehtiyacını dəf etmək üçün bir yerə gəldi və mənə üç ədəd daş gətirməyi əmr etdi. Mən iki daş tapdım, üçüncünü axtardım, ancaq tapa bilmədim. (Onun yerinə) bir dənə təzək götürüb hamısını ona apardım. Peyğəmbər (s.a.v) daşın ikisini də aldı, təzəyi isə tulladı və belə dedi: "bu murdardır". Bu hədislər, bədənin ön və arxa yollarından çıxan şeylərin nəcis olduğuna dəlalət edir. Çünki Peyğəmbər (s.a.v), onlardan yuyunmuş və ya başqasına yumağı əmr etmiş və yaxud nəcis olduğunu aşıq şəkildə ifadə etmişdir. Ön və arxa yollardan çıxıb da burada adı anılmayan şeylərdə adı keçənlərə qiyas olunur.

[78] Çünki Buxari, Müslim və başqasının rəvayət etdiklərinə görə, "bədəvinin biri məsciddə yüngül işə çıxır. Bunu üzərinə Peyğəmbər (s.a.v), həmin yerə bir vedrə suyun tökülməsini əmr edir."

[79] Buxari (221), Müslim (227) və başqası, Mihsanın qızı Ümmü Qeys (r.a)-dan belə rəvayət edir: "Ümmü Qeys (r.a), yemək yeməyən balaca uşağını Peyğəmbər (s.a.v)-in yanına gətirdi. Peyğəmbər (s.a.v) də onu qucağına otuzdurdu, uşaq onun paltarına bövl etdi. Peyğəmbər (s.a.v) su gətizdirdi və suyu sidiyin üzərinə (sadəcə) səpdi, sidiyi(n axdığı yeri) yumadı."

[80] Buxari (5445) və başqası Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizdən birinizin qabına milçək düşdüyü zaman, onun tamamını batırsın sonra çıxarıb atsın. Çünki onun qanadlarından birisində şəfa digərində isə xəstəlik vardır.

Bu hədisin dəlil olma yönü budur: Əgər milçək qabın içində ki şeyi nəcis etsəydi, Peyğəmbər (s.a.v) onu batırmağı əmr etməzdi. Milçək kimi axıcı qanı olmayan digər canlılarda milçəyə qiyas edilmişdir.

*İt, donuz və bunlardan doğulan və ya onlardan birisinin təmiz bir heyvanla birləşməsi naticəsində doğulan heyvan xaric,*[81] *bütün heyvanlar təmizdir6.*[82]

*Balıq, çəyirtkə və insan ölüsü xaric,*[83] *bütün leşlər nəcisdir.*

*İt və donuzun yaladığı qab, "biri torpaqla olmaqla" yeddi dəfə yuyulur.*[84] *Digər nəcəsətlərdən isə bir dəfə yumaqla təmizlənir.*[85] *Ancaq üç dəfə yumaq daha yaxşıdır.*

*Şərab, öz-özünə sirkəyə çevrilərsə təmizdir.*[86] *Əyər içinə bir şey atmaq sirkəyə çevrilərsə, təmiz deyildir.*[87]

---

[81] Çünki it və donuzun hər biri (cismani olaraq) nəcisdir. Allahu Təala Qurani Kərimdə belə buyurur: "Murdar sayılan donuz əti." (Ənam/145) İtin nəcis olduğuna isə az irlidə gələcək hədisi şərif dəlalət edir.

[82] Yəni: Bütün heyvanlar canlı ikən təmizdir.

[83] Yəni: Şəriətə uğun kəsilməyib ölən bütün heyvanların leşi nəcisdir. Ancaq balıq, çəyirtkə və insanlar nəcis deyildir. Çünki Peyğəmbər (s.av), balıq və çəyirtkəni nəzərdə tutaraq, "bizə iki ölü halal qılındı" buyurmuşdur.

[84] Buxari (170) və Müslim (279), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə peyğəmbər (s.a.v) belə buyurdu: "Köpək birinizin qabından (su) içdiyi zaman, qabı yeddi dəfə yusun." Müslim`in rəvayətində "Köpək, birinizin qabından içdiyi zaman, birincisi torpaqla olmaqla yeddi dəfə yumaqla o qab təmiz olar." Dariqutni`də (1/65): "Onlardan biri torpaqla" çəklində keçir. Bu xüsusda donuz da itə qiyas edilir. Çünki donuz, itdən daha ağır nəcasətdir.

[85] Bu xüsusda dəlil, İbn Ömərin (r.a) rəvayət etdiyi bu hədisdir: "Namaz əlli, cənabətdən dolayı yuyunmaq yeddi və paltardan idrarı yumaq yeddi dəfə idi. Rəsulullah (s.a.v), namaz beş vaxt, cənabətdən dolayı yuyunmaq bir və paltardan idrarı yumaq da bir dəfə endirilincəyə (Allah`a) dua etməyə davam etdi." Bu hədisi, Əbu Davud (247) rəvayət edir və hədisi zəif göstərməmişdir. Digər nəcasətlərdə təmizlənməsində bövlə qiyas edilmişdir.

[86] Çünki nəcis olmasının səbəbi sərxoşluq verməsidir. Sirkəyə çevrilməsi ilə bu səbəb ortadan qalxınca təmiz sayılır.

[87] Çünki şərabin içinə atılan şey, şəraba təmas etməklə nəcis olur və nəcis qalır. Bu arada şərab, sirkəyə çevrilsə də içinə atılan şeyin nəcis olması, onu yenidən nəcis edər.

أحكام الحيض والنفاس والاستحاضة

**ويخرج من الفرج ثلاثة دماء دم الحيض والنفاس والاستحاضة فالحيض هو الدم الخارج من فرج المرأة على سبيل الصحة من غير سبب الولادة ولونه أسود محتدم لذاع والنفاس هو الدم الخارج عقب الولادة والاستحاضة هو الدم الخارج في غير أيام الحيض والنفاس وأقل الحيض يوم وليلة وأكثره خمسة عشر يوما وغالبه ست أو سبع وأقل النفاس لحظه وأكثره ستون يوما وغالبه أربعون وأقل الطهر بين الحيضتين خمسة عشر يوما ولا حد لأكثره وأقل زمن تحيض فيه المرأة تسع سنين وأقل الحمل ستة أشهر وأكثره أربع سنين وأقل الحمل ستة أشهر وأكثرها أربع سنين وغالبه تسعة أشهر**

***Qadınlara Məxsus Hallar***

*Qadının tənasül organından üç cür qan çıxar: Heyz, nifas və istihazə qanı.*

1. *Heyz (aybaşı halı), qadın sağlam olduğu halda və doğum səbəbi də[88] olmadan tənasül orqanından çıxan qandır. Bu qan, rəngi qara, hərarətli və yandırıcıdır.[89]*
2. *Nifas (zahılıq halı), doğumdan sonra çıxan qandır.*
3. *İstihazə (üzr qanı), heyz və nifas günləri xaricində çıxan qandır.[90]*

*Heyzin ən az müddəti bir gün bir gecə, ən çox müddəti isə on beş gündür. Əksəriyyətlə görülən müddət isə altı və ya yeddi gündür.*

*Nifasın ən az müddəti bir ləhzə (an), ən çox müddəti isə altımış gündür. Əksəriyyətlə görülən müddət isə qırx gündür.*

*İki heyz arasındaki ən az təmizlik müddəti on beş gündür. ən çox müddəti üçün isə bir hədd yoxdur.*

*Qadınların ən erkən gördüyü heyz yaşı doqquz ildir.[91]*

*Hamiləliyin ən az müddəti altı aydır. Ən çox müddəti isə dört ildir. Əksəriyyətlə görülən müddət isə doqquz aydır.[92]*

---

[88] Buxari (290) və Müslim (1211), Hz. Aişə (r.a)-dan rəvayət etdiyinə görə belə buyuru: “Biz həcc etmək niyyətilə yola çıxdıq. Sərəfə (deyilən yerə) çatdıqda məndə heyz/aybaşı halı baş verdi. Mən ağlamağa başladım. (Elə bu zaman) H.z Peyğəmbər (s.a.v) yanıma daxil oldu və buyurdu: “Sənə nə oldu, (yoxsa) heyzlimi oldun?” Mən: Bəli, -dedim. (H.z Peyğəmbər) buyurdu: “Heç şübhəsiz bu, Allahın Adəm qızlarına yazdığı bir əmrdır (xüsusiyyətdir). Hacılar nə edərlərsə, sən də et., sadəcə təvaf etmə.” Başqa bir rəvayətdə: “Təmizlənincəyə qədər” şəklindədir.

[89] Əbu Davud (286) və başqası, Fatimə bintu Əbu Hubeyş (r.a)-dan bunu rəvayət edir: “O, istihazə olurdu. Peyğəmbər (s.a.v) ona belə buyurdu: “Əyər bilinən qara rəngli heyz qanıdırsa, onda namaz qılma! Yox əyər başqa qandırsa, onda dəstəmaz al və namaz qıl! Bu damardan gələn qandır!”

[90] Buxari (226) və Müslim (333), H.z Aişə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Əbu Hubeyşin qızı Fatimə Peyğəmbər (s.a.v)-in yanına gəlib dedi: Ey Allahın Rəsulu, mənözündən istihazə qanı axan bir qadınam. Heç cür təmiz (pak) olmuram. Namazı tərk edim? Peyğəmbər (s.a.v) buyurdu: “Xeyr! Bu bir damardır (damardan axan qandır), heyz (adət/aybaşı qanı) deyildir. Heyz (aybaşı) görməyə başlayanda, namazı tərk et, (aybaşı) günləri isə, özündən qanı yuyub təmizlə (qüsl et) sonra da namaz qıl.”

[91] Heyz, nifas və təmizlik xüsusunda verilən müddətlər, araşdırma və müşahidə nəticəsində əldə edilən müddətlərdir.

Əbu Davud (311) və başqası Ummu Sələmə (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: “Peyğəmbər (s.a.v)-in zamanında nifas olmuş qadınlar qırx gün (namaz qılmayıb) gözləyərdilər.” Bu hədis, nifasın müddətinin əksər hallarda qırx gün olduğana göstərir. Qırx gündən çox olmasına zid deyildir.

[92] Hamiləliyin ən az müddətinə, Əhqaf surəsinin 15-ci ayəti: “... Onun bətndə daşınma və süddən kəsilmə müddəti (toplam olaraq) otuz ay çəkir” və Loğman surəsi 14-cü ayəti: “... Onun süddən kəsilməsi isə iki il ərzində olur” dəlil olaraq göstərilir. Hamiləlik və süddən kəsilmənin tamamı 30 ay, yalnız süddən kəsilməsi isə iki il (24 ay) olunca, yalnız hamiləlik müddəti altı ay olur.

Hamiləliyin ən üzün müddəti və əksər hallarda müddətinə dair dəlil isə müşahidə və araşdırmadır.

**محرمات الحيض والنفاس**

**ويحرم بالحيض والنفاس ثمانية أشياء الصلاة والصوم وقراءة القرآن ومس المصحف وحمله ودخول المسجد والطواف والوطء والاستمتاع بما بين السرة والركبة**

### *Heyz və Nifas Halında Haram Olan Şeylər*

*Heyz və nifas halında aşağıdaki səkkiz şey haramdır:*

1. *Namaz qılmaq,*
2. *Oruc tutmaq*[93]*,*
3. *Quran oxumaq*[94]*,*
4. *Qurana toxunmaq və daşımaq*[95]*,*
5. *Məscidə girmək*[96]*,*
6. *Kəbəni təvaf etmək*[97]*,*
7. *Cinsi münasibətdə olmaq*[98]*,*
8. *(Kişinin, heyz halında ki xanımının) Diz ilə göbək arasındaki yerlərdən faydalanmaq.*[99]

---

[93] Buxari (298) və Müslim (80), Əbu Səid (r.a)-dan bunu rəvayət edirlər: "Peyğəmbər (s.a.v)-ə qadının dininin nöqsanlığı haqqında soruşulan suala belə cavab verdi: "Qadın heyz gördüyündə namaz qılmağı və oruc tutmağı tərk etmirmi ? Yəni: Qadının Dini nöqsanlığı ifadəsi bundan qaynaqlanır. Heyz və nifaslı qadın tutmadığı Ramazan orucunu qəza edər. Ancaq qılmadığı namazları qəza etməz. Buxari (315) və Müslim (355), Muaz (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Mən Hz. Aişə (r.a)-dan belə soruşdum:"Necə olur ki, heyz olmuş qadın tutmadığı orucları sonradan qəza tutmalı, qılmadığı namazların isə qəzasını qılmamalıdır." Aişə (r.a) dedi: biz o hala düşərdik. Bizə tutmadığımız orucları sonradan tutmaq, qılmadığımız namazların isə qəzasını qılmamaq əmr olundu."

[94] İbn Macə (596), İbn Ömər (r.a)-dan rəvayət etdiyinə görə Rəsulullah (s.a.v) belə buyurdu: "Cünub və heyzli olan Qurandan bir şey oxuya bilməz."

[95] Çünki Qurani Kərimdə belə buyurulur: "Ona ancaq pak olanlar toxunar." (Vaqiə/79) Hədisdə də belə buyurulur:"Təmiz olandan başqa kimsə Qurana toxunmasın." Bu hədisi Dariqutni; (1/12) mərfu`, İmam Malik də əl-Muvatta adlı kitabında (1/199) Mürsəl hədislərdən sayaraq rəvayət etmişdir.

[96] Əyər məscidi bulaşdırmaqdan qorxursa hökm budur. Şayət bulaşdırmaqdan qorxmursa, bu halda məscidə girmək deyil, orda gözləmək və dolaşmaq haramdır. Çünki Əbu Davud (232) H.z Aişədən, o da Peyğəmbər (s.a.v)-dən bunu rəravət edir: "Mən məscidi nə cunublu, nədə ki heyzli kimsyə halal qılmaram. "Yəni, yalnız içinə girməyi halal olsa da, içində durmaq və dolaşmaq halal deyildir. Buna Müslim`in (298) və başqasının, H.z Aişə`dən rəvayət etdikləri bu hədis dəlalət edir: "Rəsulullah (s.a.v) mənə, "məsciddən mənə səccadəni ver!" dedi. Mən isə, "heyzliyəm" dedim. Peyğəmbər (s.a.v), "heyz sənin əlində olmayan bir şeydir" dedi. Nəsai (1/147), Məymunə (r.a)-dan bunu rəvayət edir: "Bizdən birimiz heyzli olduğu halda qalxıb səccadəni məscidə götürüb sərərdi."

[97] Hakim (1/459), İbni Abbasdan (r.a) rəvayət etdiyinə görə Rəsulullah (s.a.v) belə buyurdu: "Beyti (kəbəni) təvaf etmək eynən namaz kimidir. Ancaq (fərq budur ki) təvafda danışa bilirsiz. Elə isə kim danışarsa, ancaq xeyirli danışsın."

[98] Çünki Qurani Kərimdə belə buyurulur: "Səndən heyz barəsində soruşurlar. De: "Bu, əziyyət verici bir haldır. Heyz vaxtı qadınlarla yaxınlıq etməkdən uzaq olun və pak olmayınca onlarla yaxınlıq etməyin. Onlar təmizləndikdən sonra isə Allahın sizə buyurduğu yerdən onlara yaxınlaşın." Şübhəsiz ki, Allah tövbə edənləri də sevər pak olanları da." (Bəqərə/222)

[99] Əbu Davud (212), Abdullah bin Sad (r.a)-dan rəvayət etdiyinə görə: "O, Peyğəmbər (s.a.v)-dən belə soruşdu: "Qadınım heyzli ikən onunla necə yaxınlıq etmək mənə halal olar?" Peğəmbər (s.a.v): "İzardan yuxarı hissəsi sənindir." Yəni: Ətəyin örtdüyü yerin üst qismi. İzar, bədənin orta hissəsini örtən bir paltardır. Çox hallarda diz ilə göbək arasını örtən şeydir.

محرمات الجنب

**ويحرم على الجنب خمسة أشياء الصلاة وقراءة القرآن ومس المصحف وحمله والطواف واللبث في المسجد**

***Cünub olan kimsəyə haram olan şeylər***

*Cünub olan kimsəyə 5 şey haramdır:*

1. *Namaz qılmaq[100],*
2. *Quran-i Kərim oxumaq,*
3. *Quran-i Kərimə toxunmaq və onu daşımaq,*
4. *Kəbəni təvaf etmək,*
5. *Məsciddə durmaq.*

حرمات المحدث

**ويحرم على المحدث ثلاثة أشياء الصلاة والطواف ومس المصحف وحمله**

***Dəstəmazsız olan kimsəyə haram olan şeylər***

*Dəstəmazı olmayan kimsəyə üç şey haramdır:*

1. *Namaz qılmaq,*
2. *Kəbəni təvaf etmək,*
3. *Qurani Kərimə toxunmaq və onu daşımaq[101].*

---

**QEYD:** Alimlər, nifasında, halal, haram,məkruh və ya məndub olan hər şeydə heyz kimi olduğunda icma etmişdir.

[100] Çünki Allahu Təala Qurani Kərimdə belə buyuru: “Ey iman gətirənlər, sərxoş halda nə dediyinizi bilənə kimi namaza yaxınlaşmayın. Həmçinin müsafir olduğunuz hal istisna olmaqla cənabətli halda qüsl edənə kimi (namaza yaxınlaşmayın).” (Nisa/43)

Müslim (224) və başqası, İbni Ömər (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Peyğəmbər (s.a.v)-in belə buyurduğunu eşitdim: “Təharətsiz namaz qəbul olunmaz.” Hədisdəki “təharətsiz” kəliməsi həm cunub, həm də normal dəstəmazsızlığa şamildir.

[101] Buxari (6554) və Müslim (225), Əbu Hureyrə (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: “Allah, sizdən birinizin dəstəmazı pozulduğu zaman dəstəmaz almadıqca namazını qəbul etməz.”

# كتاب الصلاة

# NAMAZ BÖLÜMÜ

**مواقيت الصلاة**

**الصلاة المفروضة خمس الظهر وأول وقتها زوال الشمس وآخره إذا صار ظل كل شيء مثله بعد الزوال والعصر وأول وقتها الزيادة على ظل المثل وآخره في الاختيار إلى ظل المثلين وفي الجواز إلى غروب الشمس والمغرب ووقتها واحد وهو غروب الشمس وبمقدار ما يؤذن ويتوضأ ويستر العورة ويقيم الصلاة ويصلي خمس ركعات والعشاء أول وقتها إذا غاب الشفق الأحمر وآخره في الاختيار إلى ثلث الليل وفي الجواز إلى طلوع الفجر الثاني والصبح وأول وقتها طلوع الفجر الثاني وآخره في الاختيار إلى الأسفار وفي الجواز إلى طلوع الشمس**

### *Fərz namazlar və vaxtları*

*Fərz namazlar 5 – dir:*[102]

1. *Günorta (zöhr) namazı: Bu namazın vaxtı, günəşin zəvalı (ən yüksək nöqtədən qərbə tərəf meyl etməsi) ilə başlayar.*[103] *Son vaxtı isə, günəşin zəvaldan sonra (tam təpədə ikən cisimlərin yerə düşən kölgəsi xaric) hər cismin kölgəsi özünün bir mislinə çatdığı zamanadək davam edər.*

---

[102] Namazın məşru olması xüsusunda dəlil, bir çox ayət və hədislərdir: Ayət: "Şübhəsin namaz möminlərə bəlli vaxtlarda vacib edilmişdir." (Nisa; 103) Hədis: Buxari (8), Müslim (16) və başqası, İbn Ömər (r.a)- dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: " İslam beş əsas üzərinə bina edilmişdir: Allahdan başqa heç bir ilah olmadığına və Muhammədin (s.a.v) Onun elçisi olduğuna şəhadət etmək, namaz qılmaq, zəkat vermək, həcc etmək və Ramazan orucunu tutmaq." İsra gecəsi ilə əlaqəli hədisdə belə gəlmişdir: "Beləliklə Allah ümmətimə əlli (vaxt) namaz fərz qıldı... . Mən də Rəbbimə müraciət etdim. Allahu Təala buyurdu: "(Son olaraq) beşdir (say baxımından beş namazdır), (savab etibari ilə isə) o, əllidir. Mənim yanımda (dərgahımda) söz dəyişməz." (Buxari: 342 və Müslim: 163)

[103] Beş fərz namazların vaxtlarını göstərən hədis, Müslim (614) və başqasının, Əbu Musa əl-Əşari (r.a)-dan, onunda Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyi bu hədisdir: "Peyğəmbər (s.a.v)-in yanına bir kişi gəlib namazın vaxtları haqda soruşduqda, Peyğəmbər (s.a.v) ona heç bir şey demədi. Mütəaqibən sübh namazını dan yeri ağardıqda, insanların bir-birlərini tam şəkildə görüb tanımadıqları vaxtda qıldırdı. Sonra ona yenə əmr etdi və Zöhr namazını günəş zeniti keçdikdən sonra, insanların ən yaxşı biləni gün yarı oldu dediyi vaxtda qıldırdı. Sonra ona yenə əmr etdi və Əsr namazını günəş hündürdə olduğda ikən qıldırdı. Sonra ona yenə əmr etdi və Məğrib namazını gün batdıqdan sonra qıldırdı. Sonra ona yenə əmr etdi və İşa namazını şəfəq itdikdən sonra qıldırdı. Sonra ikinci gün sabah namazını o qədər gecikdirdi ki, namazı insanın günəş çıxdı və ya çıxmağına az qaldı dediyi vaxtda qurtardı. Sonra Zöhr namazını dünən Əsr namazını qıldığı vaxta yaxın bir vaxta kimi gecikdirərək qıldırdı. Sonra Əsr namazını o qədər gecikdirdiki, namazı insanın günəş qızardı dediyi vaxtda qurtardı. Sonra Məğrib namazını şəfəqin sökülməsinə az qalmış vaxta qədər gecikdirərək qıldırdı. Sonra İşa namazını gecənin ilk üçdə-birinə qədər gecikdirib qıldırdı. Sabah sual verən kişini çağırtdırıb ona belə buyurdu: "Namaz vaxtları, bu iki vaxtın arasındadır."

2. *İkindi (əsr) namazı: Bu namazın ilk vaxtı, hər şeyin kölgəsi, öz mislini keçdikdən sonra başlayar. Son vaxtı isə, günəşin batışına qədər davam edər.[104] Ancaq, hər şeyin kölgəsi iki öz mislini keçdiyi andan namazı gecikdirməmək tərcih edilir.*
3. *Axşam (məğrib) namazı: Bu namazın vaxtı təkdir. Bu da günəşin batışı ilə başlayar və əzan oxuyub, dəstəmaz alıb, övrət yerini örtüb, qamət oxuyaraq beş rükət namaz qılacaq qədər davam edər.[105]*
4. *Gecə (işa) namazı: Bu namazın ilk vaxtı, qırmızı şəfəqin yox olması ilə başlayar. Son vaxtı isə, ikinci fəcrin doğuşuna qədər davam edər.[106] Ancaq gecənin üçdə bir bölümündən gecikdirməmək tərcih edilir.*
5. *Sübh (fəcr) namazı: Bu namazın ilk vaxtı ikinci fəcrin doğuşu ilə başlayar. Son vaxtı isə günəşin doğuşuna qədər davam edər. Ancaq günün saralması anından gecikdirməmək tərcih olunur.*

---

[104] Buxari (554) və Müslim (608), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Kim günəş doğmadan öncə sübh namazının bir rükətinə yetişərsə, sübh namazına yetişmiş olar. Və kim də günəş batmadan öncə ikindi namazının bir rükətinə yetişərsə, ikindi namazına yetişmiş olar."

[105] Mətindəki ifadə İmami Şafinin (cədid) yeni görüşüdür. Bu görüşün dəlili, Əbu Davud (393), Tirmizi (149) və başqasının İbni Abbas (r.a)-dan rəvayət etdiyi "Cəbrail" hədisidir. Həmin hədisdə, "Cəbrail (a.s), Peyğəmbər (s.a.v)-ə məğrib namazını iki gündə oruclunun iftar etdiyi vaxta qıldırmışdır." Yəni: hər iki gündə günəş batdıqdan sonra bir vaxtda qıldırmışdır.

İmami Şafinin (qədim) əvvəlki görüşü isə, məğrib namazının vaxtı: qırmızı şəfəqin yox olmasına qədər davam etdiyi yönündədir. Məzhəb imamları da bu görüşü tərcih etmişdir. Çünki dəlilləri daha güclüdür. Məsəslən: Mədinə də gerçəkləşmiş, geridə keçən Müslim (614) hədisi kimi. Bu hədis, Məkkədə gerçəkləşən, Cəbrail hədisi üzərinə tərcih edilmişdir. Çünki etibar, sonda sabit olan şeyədir. Və bu hədisdə, "Cəbrail (a.s) məğrib namazını qırmızı şəfəqin yox oluncaya qədər təxir etdi" deyilir. Ayrıca Peyğəmbər (s.a.v)-in belə buyurduğu da sabit olmuşdur: "Məğrib namazının vaxtı, qırmızı yox olmadığı müddətcə davam edər." (Müslim: 612)

[106] Çünki, Müslim (681) və başqası, Əbu Qətadə (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Yatmaq səhlənkarlıq deyildir, səhlənkarlıq namazı o biri namazın vaxtı girənədək qılmamaqdır." Bu hədis buna dələlət edir ki, həqiqətən bir namazın vaxtı, ancaq başqa namazın vaxtının girməsi ilə çıxar. Ancaq sübh namazı bu ümumilikdən xaricində qalmışdır.

شرائط وجوب الصلاة

وشرائط وجوب الصلاة ثلاثة أشياء الإسلام والبلوغ والعقل وهو حد التكليف

### *Namazın vacib olmasının şərtləri*

*Namazın vacib olmasının şərtləri 3 – dür:*

1. *Müsəlman olmaq,*
2. *Baliğ olmaq,*
3. *Ağıllı olmaq.*

*Bu şərtlər, mükəlləf olmağın ölçüsüdür.*[107]

---

[107] Yəni, zikir olunan bu üç şərt bir kimsədə toplanarsa, namaz və şəri hökümlərlə yükümlü olar. Əyər olmazsa mükəlləfiyyətlik də ortadan qalxar.

Müsəlman olmağın, mükəlləf olmağın şərtlərindən biri olduğuna dair dəlil, Buxari (1331) və Müslim`in (19), İbni Abbasdan rəvayət etdikləri bu hədisdir: "Peyğəmbər (s.a.v) Muaz (r.a)-ı Yəmənə elçi olaraq göndərdiyində belə buyurdu: " Onları Allahdan başqa İlah olmadığına və mənim Onun Elçisi olduğma şəhadət verməyə dəvət et. Əgər onlar buna itaət etsələr, Allah Təalanın onlara gün ərzində beş namazı fərz buyurduğunu xəbər ver... ."

Ağıllı və baliğ olmağın da, mükəlləf olmağın şərtlərindən olduğuna dair dəlil isə, Əbu Davud (4403) və başqasının Hz. Əlidən (r.a), onun da Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyi bu hədisdir: "Üç qrup insandan qələm qaldırılmışdır. Ayılanadək ağlı başında olmayan dəlidən, oyananadək yatandan və həddi-büluğa çatanadək uşaqdan."

**الصلوات المسنونة**

**والصلوات المسنونات خمس العيدان والكسوفان والاستسقاء والسنن التابعة للفرائض سبع عشرة ركعة ركعتا الفجر وأربع قبل الظهر وركعتان بعده وأربع قبل العصر وركعتان بعد المغرب وثلاث بعد العشاء يوتر بواحدة منهن وثلاث نوافل مؤكدات صلاة الليل وصلاة الضحى والتراويح**

***Sünnət olan namazlar***

***(Fərzlərə tabe olmayıb camaatla qılınması) sünnət olan namazlar 5 – dir:***

1. *Ramazan bayramı namazı,*
2. *Qurban bayramı namazı,*
3. *Ay tutulması namazı,*
4. *Günəş tutulması namazı,*
5. *Yağış duası namazı.*

***Fərzlərə tabe olan (rəvatib) sünnətlər toplam olaraq 17 – dir:***

1. *Sübh namazından əvvəl iki rükət*[108]*,*
2. *Günorta namazından əvvəl dörd, sonra da iki rükət*[109]*,*
3. *İkindi namazından əvvəl dörd rükət*[110]*,*
4. *Məğrib namazından sonra iki rükət*[111]*,*

---

[108] Buxari (1116) və Müslim (724), Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə belə buyur: "Peyğəmbər (s.a.v), nafilə namazlardan heç birinə sübh namazının iki rükət sünnəsi qədər ciddi şəkildə diqqət etmirdi. (Yəni, nafilələr arasında ən ciddi şəkildə diqqət etdiyi namaz sübh namazının iki rükət sünnəsi idi.)

[109] Buxari (1127), Hz. Aişə (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v), günorta namazından əvvəl qılınan dörd rükəti və sübh namazından əvvəlki iki rükəti heç vaxt tərk etməzdi." Müslimin (730) rəvayətində isə belədir: "Peyğəmbər (s.a.v) günorta namazından əvvəl evində dörd rükət qılar, sonra çıxıb insanlara namaz qıldırar, sonra evinə girər və iki rükətdə qılardı."

Beşlər (beş hədis kitabı) Ümmu Həbibə (r.a)-dan rəvayət etdiyinə görə belə buyuru: "Peyğəmbər (s.a.v)-in belə dediyini eşitdim: "Kim günorta namazından əvvəl dörd və sonra da dörd rükət qılarsa, Allah onu atəşə haram qılar." Bu hədisə görə, günorta namazından sonraki iki rükətə, iki rükətdə əlavə edilir və dörd rükət olaraq qılınır.

Cümə namazı da, izah olunan xüsuslarda günorta namazı kimidir. Çünki cümə namazı günorta namazının yerinə keçir. Müslim`in (881) Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizdən biriniz cümə namazını qıldığı zaman, ondan sonra dörd rükət qılsın."

Tirmizi`nin (523) rəvayət etdiyinə görə: "İbni Məsud (r.a) cümə namazından əvvəl dörd və sonra da dörd rükət qılardı." Bundan zahirə anlaşılan: İbni Məsudun (r.a) bilgsi, Peyğəmbər (s.a.v)-in feilində qaynaqlanır.

[110] Tirmizi (430), İbni Ömər (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "İkindi namazında əvvəl dörd rükət qılana Allah rəhmət etsin." Bunları iki-iki olaraq qılar. Çünki Tirmizi (429) və başqasının Hz. Əli (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) ikindidən əvvəl dörd rükət qılardı və bir salam ilə aralarını ayırardı.

[111] Buxari (1126) və Müslim (799), İbni Ömər (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Peyğəmbər (s.a.v)-dən on rükət namaz öyrənmişəm: günorta namazından əvvəl iki rükət, ondan sonra da iki rükət, məğrib namazından sonra evində iki rükət, işa namazından sonra evində iki rükət, sübh namazından öncə iki rükət. Bu elə bir vaxt idi ki, o vaxt Peyğəmbər (s.a.v)-in yanına daxil olmaq olmazdı.

Bu hədisdə keçən on rükət sünnət, digərlərinə nəzərən daha müəkkəddir. Ancaq bu hədisdə keçməyən digər rükətlərində sünnət olduğuna, zikr olunan dəlillər dəlalət edir.

Məğrib namazında əvvəl xəfif iki rükət qılmaq müstəhəbdir. Çünki Buxari (599) və Müslim (837), Ənəs (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Biz Mədinədə idik. Müəzzin məğrib namazı üçün əzan oxuduğu zaman səhabədən bir çox kimsə tələsərək dirəklərə doğru durub iki rükət namaz qılardılar. Hətta bəzən qərib bir kimsə məscidə girərdi, bu iki rükəti qılanların çoxluğundan ötrü fərz namazı qılınmış zənn edərdi."

5. *İşa namazından sonra üç rükət. Bu üç rükətdən biri vitir olaraq qılınır*[112].

***(Fərzlərə tabe olmayan) müəkkəd nafilə sünnətlər*[113] *3 – dür:***

1. *Təhəccüd namazı*[114],
2. *Duha namazı*[115],
3. *Təravih namazı*[116].

---

Həmçinin işa namazından əvvəl də xəfif iki rükət namaz qılmaq da müstəhəbdir. Buxari (601) və Müslim (838), Abdullah ibni Müfəzzəl (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Hər iki əzan arasında bir namaz var, hər iki əzan arasında bir namaz var. Sonra üçüncüsündə "istəyən üçün" dedi." Hədisdə keçən "iki əzandan" məqsəd, əzan və qamətdir.

[112] Buna, yuxarı da keçən İbni Ömər (r.a)-dan rəvayət olunan hədis dəlalət etdiyi kim, Müslimdə də (752), Peyğəmbər (s.a.v)-in belə buyurduğu rəvayət edilir: "Vitr, gecənin sonunadək bir rükətdir." Bir rükət, vitr namazının ən azıdır. Normal da üç, ən çoxuda on bir rükətdir.

Buxari (1071), Müslim (736) və başqası, Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), işa namazını qıldıqdan sonra, sübh namazına qədər olan arada on bir rükət qılardı. Hər iki rükət arasında salam verir, bir rükətidə tək olaraq qılardı.

Müəzzin, sübh namazının əzanını oxuyub onun yanına gəlincə və namaz vaxtının girdiyi anlaşılınca, qalxıb xəfif iki rükət namaz qılardı və müəzzin qamət üçün yanına gəlincəyə qədər sağ yanı üzərində uzanardı."

Əbu Davud (1422) və başqası, Əbu Əyyub (r.a)-dan rəvayət etdiklərinə görə, Peyğəmbər (s.a.v) nelə buyurdu: "Vitr haqdır. Elə isə onu istəyən beş, istəyən üç, istəyən də bir rükət qılsın." Hədisdə keçən "vitr haqdır" ifadəsi, "vitr məşru və mətlub (istənilən) bir namazdır" deməkdir.

[113] Yəni, camaatla qılınması istənilən nafilələr və fərzlərə tabe olan rəvatib nafilə namazlardan sonra, bir də müəkkəd üç "nafilə namaz" vardır. Nafilə, sünnət və ya müstəhəb namaz deməkdir.

[114] Müslim (1163) və başqası, Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v)-ə, "Fərz namazdan sonra hansı namaz daha fəzilətlidir?" deyə sual olundu. O da (s.a.v), "Gecənin ortasındaki namaz" deyə cavab verdi." Bu namaz, "gecə namazı" və ya "təhəccüd" deyilir, təbii ki, yuxudan sonra qılınarsa. Allahu Təala Qurani Kərim`də belə buyuru: "Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl." (İsra/79)

[115] Buxari (1880) və Müslim (721), Əbu Hureyrə (r.a)-dan bunu rəvayət edirlər: "Xəlilim (dostum Cəbrail) mənə üç şeyi vəsiyyət etdi: "Hər aydan üç gün oruc tutmağı, duha namazının iki rükətini və yatmamışdan öncə vitr namazını qılmağı."

Duha namazı, hədisdə ifadə edildiyinə görə, ən azı iki rükət. Ən çoxu da səkkiz rükətdir. Çünki, Buxari (350) və Müslim (336), Ümmüi Həni hədisində bunu rəvayət edir: "Ümmü Həni Məkkənin fəthi ilində Peyğəmbərin (s.a.v) yanına gəldi. O , Məkkənin yuxarı yerində dayanıb qüsul alırdı və Fatimə onu, görünməsin deyə örtürdü. O paltarını götürüb ona büründükdən sonra səkkiz rükət duha namazını qıldı."

Fəzilətli olan bu namazı iki-iki qılmaqdır. Çünki Əbu Davudun (1290), Ummu Hənidən etdiyi rəvayətdə belə gəlmişdir: "Peyğəmbər (s.a.v), fətih günü duha namazını səkkiz rükət rükət qıldı və hər iki rükətdən bir salam verdi."

Duha namazının vaxtı, günəşin yüksəlməsindən zəvala kimi davam edər. Ancaq fəzilətli olan, günün ¼-i keçdikdən sonra qılmaqdır. Müslim (748) və başqası, Zeyd bin Ərqam (r.a)-dan rəvayət etdiklərinə belə buyurdu: "Peyğəmbər (s.a.v), Quba əhlinin yanına çıxdı. Bu arada onlar duha namazını qılırdılar. Bunun üzərinə Peyğəmbər (s.a.v), "Əvvabinlərin (Allaha dönənlərin) namazı, istidən dəvə balasının ayaqları yandığı vaxtdır" buyurdu.

[116] Təravih namazı, Ramazan ayının hər gecəsində qılınan iyirmi rükətlik namazdır. Hər iki rükətdən sonra salam verilir. Vaxtı isə, işa namazı ilə sübh namazının arasındadır. Ancaq vitr namazından əvvəl qılınır.

Buxari (37), Müslim (759) və başqası, Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Kim Ramazanı İnanaraq və xalis niyyət ilə ehya edərsə, keçmiş günahları bağışlanar."

Buxari (882) və Müslim (761), Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə: “Peyğəmbər (s.a.v) bir gecə məscid də namaz qıldı. Bir dəstə insan da onun namazı ilə namaz qıldılar. Sonra ikinci gecə də qıldı və qılan insanlar çoxaldı. Sonra üçüncü və ya dördüncü gecədə insanlar toplandı. Ancaq Peyğəmbər (s.a.v) onların yanına çıxmadı. Sabah olunca, “sizin etdiyinizi (yığışmağınızı) gördüm. Mənim sizin yanınıza çıxmağıma mane olan, (təravih namazının) sizə fərz olar deyə qorxmağım oldu” dedi.”

Buxari (1906), Abdurrahmən bin Abdulqari (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Ramazanda Ömər bin Xəttab ilə məscidə çıxdım; gördük ki, insanlar fərqli guruplara ayrılmış: kimi tək başına namaz qılır, kimi də bir gurupla... Bu arada Ömər (r.a) dedi ki; bunlar bir qarinin (imamın) arxasında toplanıb namaz qılsalar daha uyğun olacağını düşünürəm. Sonra buna əzm etdi və onları Ubey bin Ka`b-ın arxasında topladı. Sonra digər bir axşam bərabər çıxdıqda  və insanların bir imamın arxasında namaz qıldıqlarını gördükdə, Ömər (r.a), “(təravhin camaatla qılınması) nə gözəl bidətdir bu...!

Beyhaqi (2/996) və başqası səhih bir isnadla  bunu rəvayət edirlər: “Səhabə, Ömər (r.a)-ın dönəmində Ramazanda iyirmi üç rükət namaz qılırdılar.

İmam Malik də əl`Muvatta adlı kitabında (1/115) bunu rəvayət edir: “İnsanlar, Ömər (r.a)-ın zamanında, Ramazanda iyirmi rükət namaz qılardılar.”

Beyhaqi, “keçən iki hədis bir-birini tamamlayır” demişdir. Belə ki, iyirmi rükət “təravih namazı”,üç rükət də “vitr namazı” olmaqla iyirmi üç rükət edər.

**شرائط الصلاة**

**وشرائط الصلاة قبل الدخول فيها خمسة أشياء طهارة الأعضاء من الحدث والنجس وستر العورة بلباس طاهر والوقوف على مكان طاهر والعلم بدخول الوقت واستقبال القبلة ويجوز ترك القبلة في حالتين في شدة الخوف وفي النافلة في السفر على الراحلة**

***Namazın səhih olmasının şərtləri***

***Namaza girmədən öncəki şərtlər 5 – dir:***

1. *Bədəni hədəsdən[117] və nacasətdən[118] təmizləmək,*
2. *Təmiz bir paltar ilə ayıb yerini örtmək (sətri-övrət)[119],*
3. *Təmiz bir yerdə namaza durmaq[120],*
4. *Namaz vaxtının girdiyini bilmək[121],*
5. *Qibləyə yönəlmək[122].*

---

[117] Yəni: dəstəmazı olmayanın dəstəmaz, cünub olanın da qüsl alması. Çünki Allahu Təala Quran`i Kərimdə belə buyurur: "Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə əllərinizi yuyun. Başınızı məsh edin, ayaqlarınızı isə hər iki topuğa qədər yuyun. Əyər cünub olmusunuzsa, qüsl edin." (Maidə/6)

[118] Buna Peyğəmbər (s.a.v)-in, nəcasətləri yumaqla əlaqəli əmr dəlalət edir. Məsələn: Fatimə bintu Əbi-Hubeyşə (r.a) dediyi bu söz kimi: "Heyz başlayınca namazı tərk et. Heyzin sayılı günləri keçincə də özündən qanı yu (təmizlə) və namaz qıl."

Həmçinin H.z Əli (r.a)-ın, məzinin yuyulması ilə əlaqəli hədisi buna dəlildir. Ayrıca, Allahu Təlanın, "((Ey Rəsulum!) Libasını təmizlə: (Müddəssir/4))" sözü ilə əmr olunan paltarın təmizliyinə qiyas edilərək, nəcasətdən təmizlənməyin vacib olduğu demək mümkündür.

[119] Çünki Qurani Kərimdə belə buyurulur: " Ey Adəm oxulları! Hər dəfə məscidə gedərkən zinətlərinizi götürün (gözəl geyinin)." (Əraf/31) İbni Abbas (r.a), ayətdə keçən "zinətlərinizi götürün" ifadəsindən məqsəd, namazda təmiz paltarın geyinilməsidir. (Muğni-l Muhtac: 1/184)

Tirmizi (377), Hz. Aişə (r.a)-dan, Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Baliğ olan qadının namazı, baş örtüsüsüz qəbul olunmaz." Başı örtmək vacib olunca, başqa yerlərin örtülməsi daha da vacib olar. Buna Buxarinin (365), H.z Aişə (r.a)-dan etdiyi bu rəvayət dəlalət edir: "Peyğəmbər (s.a.v) sübh namazını qıldırar, bir çox møminə xanımlar da örtüklərinə bürünərək onunla namaz qılardılar. Sonra da öz evlərinə qayıdardılar və heç kəs onları tanımazdı."

Paltarın təmiz olmasının şərt olduğuna dəlil, "((Ey Rəsulum!) Libasını təmizlə: (Müddəssir/4))" ayətidir.

Əbu Davud (365), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə: "Xavlə bintu Yasər, Peyğəmbər (s.a.v)-in yanına gələrək; "Ey Allah Rəsulu! Mənim yalnız bir paltarım var və mən o paltarda heyz görürəm, nə edim? dedi. Allah Rasulu: "təmizləndiyin zaman onu yu, sonra həmin paltarda namazını qıl" dedi. Bu arada Xavlə: "əyər paltardan qan çıxmasa nə edim? dedi. Allah Rəsulu: "qanı yumaq sənə kifayət edər, onun əsərinin qalması sənə zərər verməz" dedi.

[120] Namazın qılınacağı yerin təmiz olması şərtinə, məscid də bövl edən ərabi`nin bövl etdiyi yerə, Peyğəmbər (s.a.v)-in "su tökün!" şəklindəki əmrini ifadə edən hədis dəlalət edir. Ayrıca namaz qılanın paltarının təmiz olması şərtinə də qiyas edilir.

[121] Çünki Quranı Kərimdə belə buyurulur: "Çünki namaz möminlərə bəlli vaxtlarda fərz edilmişdir." (Nisa/103) Yəni, bəlli bir vaxtla məhdudlaşdırılmış şəkildə fərz qılınmışdır. Elə isə vaxtın girdiyini bilmək vacibdir.

[122] Allahu Təala Qurani Kərimdə belə buyurur: "Biz sənin üzünün göyə tərəf çevrildiyini gördük və Biz səni razı qalacağın qibləyə tərəf döndərəcəyik. Sən üzünü (namazda) Məscidu`l-Haram`a tərəf çevir!" (Bəqərə/104)

Buxari (5897) və Müslim (397), namazını pis qılan haqqında olan hədisdə, Peyğəmbər (s.a.v)-dən bunu rəvayət edirlər: "Namaza duracağın zaman tam (gözəl) bir şəkildə dəstəmaz al, sonra qibləyə yönəl və təkbir al."

***İki halda qiblənin tərki caizdir:***

1. *Şiddətli qorxu anında*[123]*,*
2. *Səfərdə minik üzərində nafilə namazı qılarkən*[124]*.*

---

Ayətdə ki, “Məscidu`l-Haram” və hədisdə ki “qiblə”-dən murad, Kəbədir.

Buxari (390) və Müslim (525), Bərra bin Azib (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Peyğəmbər (s.a.v) on altı və ya on yeddi ay Beytülməqdisə tərəf (yönələrək) namaz qıldı. Peyğəmbər (s.a.v) (qibləsinin) Kəbəyə yönəldilməsini (qəlbən) istəyirdi. Nəhayət Allahu Təala Bu ayəni) nazil etdi: “(Ya Rəsulum!) Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük... .” Bu ayə nazil olan kimi, Peyğəmbər (s.a.v) üzünü Kəbəyə tərəf çevirdi.”

[123] Bu qorxunun –mübah bir səbəb olduqda- savaşdan və başqa şeydən qaynaqlanmasının fərqi yoxdur. Çünki Qurani Kərimdə belə buyurulur: “Əyər (nədənsə) qorxsanın, (namazınızı) piyada və ya minik üzərində (qılın).” (Bəqərə/239)

Yəni: qorxu və ya bunun kimi bir səbəbdən dolayı tam bir namaz qılmaq imkanınız olmazsa, sizə rahat gələn şəkildə -piyada və ya minəklərinizin üzərinə minərək- namazınızı qılın. İbni Ömər (r.a), “Qibləyə yönələrək və ya yönəlmiyərək” şəklində demişdir. Bununla əlaqəli, Nafi (r.a) belə dedi: “Mən, Abdullah bin Ömərin, bunu Rəsulullahdan eşidib zikir etdiyi görüşündəyəm. (Buxari/4261)

[124] Buxari (391), Cabir (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Peyğəmbər (s.a.v), miniyi haraya dönürsə dönsün, onun üstündə (nafilə) namaz qəlardı. (Bir rəvayətdə, “şərqə tərəf” şəklində keçir.) Fərz namaz qılmaq istədikdə isə (miniyindən) enər və qibləyə yönələrdi.” İbni Ömər (r.a)-dan edilən bir rəvayətdə də (1045): “Peyğəmbər (s.a.v) səfərdə... nafilə namaz qılardı” şəklindədir.

**أركان الصلاة**

**وأركان الصلاة ثمانية عشرة ركنا النية والقيام مع القدرة وتكبيرة الإحرام وقراءة الفاتحة وبسم الله الرحمن الرحيم آية منها والركوع والطمأنينة فيه والرفع والاعتدال والطمأنينة فيه والسجود والطمأنينة فيه والجلوس بين السجدتين والطمأنينة فيه والجلوس الأخير والتشهد فيه والصلاة على النبي صلى الله عليه وسلم فيه والتسليمة الأولى ونية الخروج من الصلاة وترتيب الأركان على ما ذكرناه**

***Namazın rüknları***

*Namazın rüknları 18 – dir:*

1. *Niyyət*[125]*,*
2. *Qiyam (ayaqda qılmaq), gücü çatdığı təqdirdə*[126]*,*
3. *İhram (namaza giriş) təkbiri,*
4. *Bəsmələ ilə birlikdə Fatihə`nin oxunması. Çünki "Bismilləhirrahmənirrahim" Fatihədən bir ayətdir,*
5. *Rüku,*
6. *Rükuda durmaq (Tumaninə),*
7. *İtidal (Rükudan qalxıb beli doğrultmaq),*
8. *Itidal`da durmaq (Tumaninə),*
9. *Səcdə,*
10. *Səcdədə durmaq (Tumaninə),*
11. *Iki səcdə arasında oturmaq,*
12. *İki səcdə arasındaki oturuşda durmaq (Tumaninə)*[127]*,*

---

[125] Çünki Allahu Təala Quran`i Kərimdə belə buyurur: "Halbuki onlar, dini məhz Allaha məxsus edərək ona qulluq etmələri üçün əmr olundular." (Bəyyinə/5) Mavərdi, "Ərəb dilində, ixlas kəliməsi niyyət mənasındadır," deyir. Ayrıca hədisdə də, "Əməllər yalnız niyyətlərə görə dəyər qazanır," buyurulur.

[126] Buxari (1066), İmran bin Husayn (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Məndə babasil var idi. Namaz haqqında Peyğəmbər (s.a.v)-ə sual verdim. (Peyğəmbər s.a.v) belə buyurdu: "Namazı ayaq üstə qıl, əgər buna gücün çatmazsa oturaraq, yenə gücün çatmazsa yan tərəfinə uzanaraq qılə." Nəsainin rəvayətində belə bir əlavə var: "əgər gücün çatmazsa, arxası üstə qıl. Allah heç kimə gücünün çata bilmədiyindən artığını yükləməmişdir." (Kifayət`l Əxyar, 1/103)

[127] Bura qədər mətndə keçən "rükunların" dəlili, Buxari (724) və Müslim`in (397), Əbu-Hureyrə (r.a)-dan etdikləri bu rəvayətdir: "Peyğəmbər (s.a.v) məscidə daxil oldu. Onun arxasınca bir nəfər də məscidə daxil oldu və namaz qıldı. (Namazı bitirdikdən sonra) Peyğəmbər (s.a.v)-ə salam verdi. O (s.a.v) salamı alıb buyurdu: "qayıt namazı yenidən qıl, çünki sən namaz qılmadın (bu qıldığın namaz deyil)!" Həmin adam qayıtdı və (əvvəl) qıldığı kimi namaz qıldı. Sonra gəlib Peyğəmbər (s.a.v)-ə salam verdi. (Peyğəmbər s.a.v) buyurdu: "Qayıt namazı (yenidən) qıl, çünki sən namaz qılmadın!" Bu, üç dəfə təkrarlandı. (Həmin adam) dedi: Səni haqq olaraq göndərənə and olsun ki, bundan daha yaxşı qıla bilmirəm. Mənə (namazın necə qılındığını) öyrət. (Peyğəmbər s.a.v) buyurdu: "Namaza durduğun zaman: Allahu Əkbər –de, sonra Qurandan sənə asan gələni oxu, sonra elə rüku et ki, rükuda xatircəm olasan (bədən üzvlərin tam sükunətdə olsun, dərhal gedib qayıtma)! Sonra (rükudan) elə qalx ki, qamətin tam düzəlsin (rükudan tam qalxmadan səcdəyə getmə)! Sonra elə səcdə et ki, səcdədə xatircəm olasan (tam sükunətdə dayanmadan qayıtma)! Sonra (birinci səcdədən başını) elə qaldır ki, xatircəmliklə oturasan (oturuşda bədənin tam sükunətə çatmayınca ikinci səcdəyə getmə)! Qıldığın namazın hər yerində söylədiklərimə riayət et!"

Keçən hədisdə, "Qurandan sənə asan gələni oxu" deyildi. İbni-Hibbanın rəvayətində (483) isə, "Sonra Ummul-Quran-ı (Fatihəni) oxu," şəklindədir. Buna, Buxari (723) və Müslimdə (394) keçən, "Fatihə surəsini oxumayanın namazı yoxdur," hədisi də dəlalət edir.

Bəsmələnin, Fatihə və hər surədən bir ayət olduğuna dair dəlil də. Müslimin (400), Ənəs (r.a)-dan etdiyi bu rəvayətdir: "Bir gün Peyğəmbər (s.a.v) bizim aramızda ikən mürgülədi. Sonra gülümsəyərək başını qaldırdı. Biz, "Sizi güldürən nədir, Ey Allahın Elçisi ?" deyə soruşduqda, O (s.a.v) belə cavab verdi: "Mənə bir az əvvəl bir surə nazil

*13. Son oturuş[128],*
*14. Son oturuşda “Əttəhiyyatu...” oxumaq[129],*
*15. Son oturuşdaki “Əttəhiyyatu...”-dan sonra salavat oxumaq[130].*
*16. Birinci salamı vermək[131],*

---

oldu.” Bu arada “Bismilləhirrahmənirrahim`i” çəkdikdən sonra, “Kövsər” surəsini oxudu və beləliklə Peyğəmbər (s.a.v) “Bəsmələn-i,” “Kövsər” surəsindən bir ayət olaraq saydı.”

[128]Çünki Buxari (794), Peyğəmbər (s.a.v)-in namazına dair Əbu Humeyd əs-Saidi (r.a)-dan bunu rəvayət edir: “Peyğəmbər (s.a.v) axırıncı rükətdə (təşəhhüdü oxumaq üçün) oturanda sol ayağını (sağ tərəfə) çəkər (sağ ayağının altına keçirər) sağ ayağını dik vəziyyətdə tutar və (sol) ombası üstə oturardı.”

Ayrıca son oturuş, vacib bir zikrin oxunduğu yerdir. Eyniylə Fatihəni oxumaq üçün qıyamda durmaq kimi. Beləcə son oturuş vacib oldu.

[129] Buxari (5806), Müslim (402) və başqası İbni Məsud (r.a)-dan bunu rəvayət edirlər: “Biz Peyğəmbər (s.a.v) ilə bərabər namaz qılarkən belə dedik: “Salam, qullarından öncə Allaha olsun, Salam Cəbrailə olsun, Salam Mikailə olsun, Salam filankəsə olsun.” Peyğəmbər (s.a.v) (namazı bitib) ayrılınca üzü ilə bizə yönəldi ve belə dedi: “Salam Allahın adlarındandır, sizdən biriniz namazda oturunca “Əttəhiyyatu ...” desin.”

Oturuşda oxunan “Əttəhiyyat” haqqında bir çox rəvayətlər vardır ki, bunların hamısı səhihdir. İmami Şafinin mənimsədiyi “Əttəhiyyat`ın” tam şəkli, Müslim (403) və başqasının İbni Abbas (r.a)-dan ravət etdiyi bu hədisdə keçir: İbni Abbas dedi ki: ““Peyğəmbər (s.a.v) bizə təşəhhüdü Qurandan bir surə öyrətdiyi kimi öyrədirdi. Və belə buyurdu:

**التَّحِيَّاتُ المُبارَكاتُ الصَّلَواتُ الطَّيِّباتُ لِلَّهِ، السَّلامُ عَلَيْكَ أيُّهَا النَّبيُّ وَرَحْمَةُ اللهِ وَبرَكَاتُهُ، السَّلامُ عَلَيْنا وعلى عِبادِ الله الصَّالِحينَ، أشْهَدُ أنْ لا إلهَ إلاَّ اللّهُ، وَأشْهَدُ أنَّ مُحَمَّداً رَسُولُ اللّهِ**

***“Ət-təhiyyatu`l - mubarəkətu`s – saləvatu`t - tayyibətu liiləh. Əs-sələmu Aləykə Əyyuhənnəbiyyu və rahmətullahi və bərakətuh. Əs-sələmu aləynə və alə ibədilləhilləhi`s – salihin. Əşhədu ən lə iləhə illəllah və aşhədu ənnə Muhəmmədər Rasulullah.”***

***"Hər cür səlamlar, bol xeyir və bərəkətlər, bütün ibadətlər və gözəl sözlər Allah üçündür. Səlam, Allahın rəhmət və bərəkəti sənə olsun, ey Nəbi! Səlam bizim və Allahın saleh qullarının üzərinə olsun. Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur. Yenə şəhadət edirəm ki, Muhamməd Allahın qulu və rəsuludur."***

[130] Çünki Qurani Kərimdə belə buyurulur: “Həqiqətən Allah və Mələkləri Peyğəmbərə səlat edirlər. Ey iman gətirənlər! Siz də ona səlat edin və tam bir təslimiyyətlə salam verin.” (Əhzab/56)

Alimlər, Peyğəmbər (s.a.v)-ə səlat etməyin namazın xaricində vacib olmadığına dair İcma etmişdir. Beləliklə səlat yalnız namazda vacib görülmüşdür. Səlatın oxunacağı münasib yer, namazın sonuda təşəhhüd`dən sonra sonuncu oturuşda vacib qılındı. Səlatın tam şəkli belədir:

**اَللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَعَلَى آلِ مُحَمَّدٍ كَمَا صَلَّيْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ ،وَبَارِكْ عَلَى مَحَمَّدٍ وَعَلَى آلِ مَحَمَّدٍ كَمَا بَارَكْتَ عَلَى إِبْرَاهِيمَ وَعَلَى آلِ إِبْرَاهِيمَ فِي الْعَالَمِينَ إِنَّكَ حَمِيدٌ مَجِيدٌ**

***“Allahummə salli alə Muhammedin ve alə ali Muhammedin kəmə salləytə alə İbrahimə və alə ali İbrahim. Və bərik alə Muhammədin və alə ali Muhammedin kəmə bəraktə alə İbrahime ve alə ali İbrahimə fi`l-aləminə innəkə hamidun Məcid.”***

Salatın bu şəkli, Buxari, Müslim və başqasının rəvayət etdiyi səhih hədislərlə sabit olmuşdur. Bəzi rəvayətlərdə bundan az və ya çox şəkildə rəvayət olunmuşdur.

[131] Müslim (498), Aişə (r.a)-dan rəvayət etdiyinə görə: “Peyğəmbər (s.a.v), namaza təkbir ilə başlayıb salam ilə də bitirərdi.”

17. *Namazdan çıxmağa niyyət etmək*[132]*,*
18. *(yuxarıda sayılan) rüknları sırası ilə yerinə gətirmək*[133]*.*

[132] Səhih olan görüşə görə; namazdan çıxmağa niyyət etmək rükn deyildir. Lakin "rükundur" deyən görüşə riayət üçün sünnət olaraq dəyərləndirilir.

[133] Çünki namazı gözəl qılmayan ilə əlaqəli hədisdə sıralama, "summə" kəliməsi ilə ifadə (atıf) edilmişdir. Bu kəlimə tərtib üçündür və Rəsulullahın səhih hədislərlə nəql olunan əməlidə belədir.

سنن الصلاة

**وسننها قبل الدخول فيها شيئان الأذان والإقامة وبعد الدخول فيها شيئان التشهد الأول والقنوت في الصبح وفي الوتر في النصف الثاني من شهر رمضان**

***Namazın sünnətləri***

*Namazın sünnətləri, namaza girmədən əvvəl sünnətlər və namaza girdikdən sonra sünnətlər deyə ikiyə ayrılır:*

***Namaza girmədən öncə sünnətlər 2 – dir:***

1. *Əzan*
2. *İqamə*[134]

---

[134] Əzan və İqamə fərz olan namazlar üçün sünnətdir. Bunların məşru olduğuna dəlil, Buxari (602) və Müslim`in (674), Malik bin Hüveyris (r.a)-dan rəvayət etdikləri bu hədis dəlalət edir: Peyğəmbər (s.a.v) buyurdu ki; "namaz vaxtı girdikdə aranızdan biri sizin üçün əzan oxusun! Ən böyüyünüz də imamlıq etsin!"

Əbu –Davudun (499), Abdullah bin Zeyd (r.a)-dan rəvayət etdiyi hədisdə də bu ifadə edilir: "Namaza qalxdığın zaman "Allahu əkbər, Allahu əkbər" deyərsən... ." Hədisdə keçən əmr vaciblik ifadə etməz. Çünki bunun vacib olmadığına dair başqa dəlillər var.

Əzanın sözləri bunlardı:

**اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، اَشْهَدُ اَنْ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ، اَشْهَدُ اَنْ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ، اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ، حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الْفَلَاحِ، حَيَّ عَلَى الْفَلَاحِ، اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، لَآ اِلٰهَ اِلَّا اللّٰهُ**

***"Allahu əkbər - Allahu əkbər, Allahu əkbər-Allahu əkbər, Əşhədu ən lə iləhə illəllah - Əşhədu ən lə iləhə illəllah, Əşhədu ənnə Muhammədər-Rasulullah - Əşhədu ənnə Muhammədər-Rasulullah, Hayyə aləs-saləh – Hayyə aləs-saləh, Hayyə aləl-fələh – Hayyə aləl-fələh, Allahu əkbər – Allahu əkbər, Lə iləhə illəllah."***

Ancaq sübh əzanında ikinci "***Hayyə aləl-fələh"***- dən sonra, **"اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ" (Əssalətu xayrun minənnəvm** (Namaz yuxudan daha xeyirlidir)**)** sözüdə əlavə edilir.

İqamənin sözləri belədir:

**اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، اَشْهَدُ اَنْ لَآ اِلٰهَ اِلَّا اللّٰهُ، اَشْهَدُ اَنَّ مُحَمَّدًا رَسُولُ اللّٰهِ، حَيَّ عَلَى الصَّلَاةِ، حَيَّ عَلَى الْفَلَاحِ، قَدْ قَامَتِ الصَّلَاةُ قَدْ قَامَتِ الصَّلَاةُ، اَللّٰهُ اَكْبَرُ اَللّٰهُ اَكْبَرُ، لَآ اِلٰهَ اِلَّا اللّٰهُ**

***"Allahu əkbər - Allahu əkbər, Əşhədu ən lə iləhə illəllah, Əşhədu ənnə Muhammədər-Rasulullah, Hayyə aləs-saləh, Hayyə aləl-fələh, Qad-qamətis-saləh, Qad-qamətis-saləh, Allahu əkbər – Allahu əkbər, Lə iləhə illəllah."***

Əzan və İqamənin bu sözləri, Buxari, Müslimdə və başqalarının rəvayət etdikləri səhih hədislərlə sabit olmuşdur.

Əzanı eşidən kimsənin, müəzzinin dediyinin eynisini deməsi sünnətdir. Əzan bitdiyi zaman isə Peyğəmbər (s.a.v)-ə salət gətirər və varid olan duanı oxuyar.

Müslim (384) və başqası, Abdullah bin Amr (r.a)-dan Peyğəmbər (s.a.v)-dən bunu eşitdiyini rəvayət edirlər: "Müəzzinin səsini eşitdiyiniz zaman, onun dediyini deyin , sonra mənə salavat gətirin. Kim mənə bir salavatı desə Allah Təala ona on salavat (rəhmət) deyər. Sonra Allahdan mənim üçün vəsilə istəyin. Çünki o , Cənnətdə elə bir yer

***Namaza girdikdən sonra sünnətlər də 2 – dir:***

3. *Birinci təşəhhüd (oturuş və əttəhiyyat)[135]*
4. *Sübh namazında[136] və Ramazan ayının ikinci yarısında vitr namazında[137] oxunan "Qunut".*

---

dərəcədir ki, ona yalnız Allahın bəndələrindən olan bir kimsə layiqdir. Allahdan O kəsin mən olmasını diləyirəm. Kim mənim üçün Allahdan vəsilə diləsə, ona mənim şəfaətim vacib olar."

Buxari (589) və başqası, Cabir (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Kim əzan eşitdikdə bu duanı oxuyarsa, qiyamət günü şəfaətim ona vacib olar."

Həmin dua budur:

**اَللّٰهُمّ رَبّ هٰذِهِ الدّعْوَةِ التّامّةِ وَالصّلَاةِ الْقَائِمَةِ اتِ مُحَمّدًا الْوَسِيلَةَ وَالْفَضِيلَةَ وَابْعَثْهُ مَقامًا مَحْمُودًا الّذِى وَعَدْتَهُ**

***"Allahummə Rabbə həzihid-dəvətit-təamməh vəs-salətil-qaiməh, əti Muhəmmədənil-vəsilətə vəl-fadilətə. Vəb`ashu məqamən məhmudənilləzi vəadtəh."***

***"Ey bu tam dəvətin (dəyişikliyə uğramayan Tövhid dəvətinin) və qılınacaq namazın Rəbbi olan Allahım! Muhamməd`ə (s.a.v) vəsiləni və fəziləti ver. Onu vəd etdiyin məqami-Mahmuda çatdır." Çünki Qurani Kərimdə belə buyurulur: "Ola bilsin ki, Rəbbin səni məqami-Mahmud`a yüksəltsin." (İsra/79)***

(Əzan oxunduqdan sonra) Peyğəmbər (s.a.v)-ə salat gətirmək və həmçinin müəzzinə, dua etmək sünnətdir. Ancaq əzandan daha aşağı səslə və ayrı şəkildə oxuyacaq ki, bunların əzanın sözlərində olduğu düşünülməsin.

Əzani eşidən kimsə, "**حَىّ عَلَى الصّلَاةِ، حَىّ عَلَى الْفَلَاحِ**" (***Hayyə aləs-saləh, Hayyə aləl-fələh)*** deyiləcək əsnada müəzzinin dediyini deyil, **"لَا حَوْلَ وَلَا قُوّةَ اِلّا بِاللّٰهِ" (Lə havlə və lə quvvətə illə billəh), deyəcək.** (Buxari: 588, Müslim: 385.)

Ayrıca Müəzzin: sübh namazında **"اَلصَّلَاةُ خَيْرٌ مِنَ النَّوْمِ" (Əssalətu xayrun minənnəvm)** dediyində, onun səsini eşidən kimsə **صَدَقْتَ وَبَرَرْتَ "Sadəqtə və bərartə" (doğru söylədin, gözəl sesin)** deməlidir.

Əzanda edilən şeylərin eynisini həmçinin İqamə eşidildiyi zaman edilməsi sünnətdir. Ancaq **قَدْ قَامَتِ الصّلَاةُ قَدْ قَامَتِ الصّلَاةُ** ***Qad-qamətis-saləh, Qad-qamətis-saləh (namaz başladı)*** sözündən sonra, **أَقَامَهَا اللهُ و أَدَامَهَا "Əqaməhəllahu və ədaməhə" (Allah onu ayaqda tutsun və davamlı etsin)** deyilir. (Əbu-Davud: 528)

[135] Bu mövzuda bir çox hədisi şəriflər vardır. Bunlardan bir, Buxarinin (1167) rəvayət etdiyi hədisdir: "Allah Rəsulu (s.a.v) günorta namazının iki rükətini qıldıqdan sonra arada oturmadan (üçüncü rükətə) qalxdı. Namazını bitirəndən sonra iki dəfə səcdə etdi, ondan sonra salam verdi." O halda Peyğəmbər (s.a.v)-in etdiyi səhvdən ötrü sadəcə səcdə etməklə kifayətlənməsi, birinci təşəhhüdün (oturuş və əttəhiyyat) sünnət olduğuna dəlildir.

[136] Hakim, Ebu-Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) Sübh namazının ikinci rükətində rükadan başını qaldırdığı zaman hər iki əlini qaldırıb bu dua ilə dua edərdi: (Muğni`l Muhtac: 1/166)

**اَللّٰهُمّ اهْدِنِى فِيمَنْ هَدَيْتَ، وَعَافِنِى فِيمَنْ عَافَيْتَ، وَتَوَلّنِى فِيمَنْ تَوَلّيْتَ، وَبَارِكْ لِى فِيمَا اَعْطَيْتَ، وَقِنِى شَرّ مَا قَضَيْتَ، فَاِنّكَ تَقْضِى وَلَا يُقْضٰى عَلَيْكَ، وَاِنّهُ لَا يَذِلّ مَنْ وَالَيْتَ وَلَا يَعِزّ مَنْ عَادَيْتَ، تَبَارَكْتَ رَبّنَا وَتَعَالَيْتَ، فَلَكَ الْحَمْدُ عَلٰى مَا قَضَيْتَ، اَسْتَغْفِرُكَ اللّٰهُمّ وَاَتُوبُ اِلَيْكَ، وَصَلّى اللّٰهُ عَلٰى سَيّدِنَا مُحَمّدٍ وَعَلٰى اٰلِهِ وَصَحْبِهِ وَسَلّمَ**

[137] Əbu-Davud, Həsən bin Əli (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), mənə bəzi kəlimələri öyrətdi. Mən onları vitr namazında oxuyuram." O kəlimələr (yəni: qunut duası) budur: ***"Allâhumməhdinî fî mən hədəytə, və âfini fî mən âfəytə, və təvəllənî fî mən təvəlləytə, və bərik lî fî mə a'taytə, və qinî şərra mə qadəytə, fə innəkə təqdi və lâ yuqdâ aləykə və innəhu lə yəzillu mən vâləytə və lə yə'ızzu mən âdəytə təbəraktə rabbənə və tə'âləytə, fə ləka'l-hamdu alə mə qadəytə, əstağfirukə'llâhummə və ətûbu iləykə və sallallâhu alə səyyidinə Muhəmmədin və alə əlihi və sahbihi və salləm."***

Tirmizi (466), "keçən bu hədisin həsən olduğunu və vitrdə qunut əlaqəli Peyğəmbər (s.a.v) –dən bildirilən duadan daha gözəl bir şey bilmədiyini," demişdir.

**هيئات الصلاة**

**وهيئاتها خمس عشرة خصلة رفع اليدين عند تكبيرة الإحرام وعند الركوع والرفع منه ووضع اليمين على الشمال والتوجه والاستعاذة والجهر في موضوعه والإسرار في موضوعه والتأمين وقراءة السورة بعد الفاتحة والكتبيرات عند الرفع والخفض وقول سمع الله لمن حمده ربنا لك الحمد والتسبيح في الركوع والسجود ووضع اليدين على الفخذين في الجلوس يبسط اليسرى ويقبض اليمنى إلى المسبحة فإنه يشير بها متشهدا والافتراش في جميع الجلسات والتورك في الجلسة الأخيرة والتسليمة الثانية**

## *Namazın Heyətləri*

*Namazın Heyət-i sayılan sünnətlər 15 – dir:*

1. *İhram (namaza giriş) təkbirində hər iki əlin qaldırılması,*
2. *Rükuya gedərkən əllərin qaldırılması,*
3. *Rükudan qalxarkən əllərin qaldırılması[138],*
4. *Qiyamda (ayaqda Fatihə oxuyarkən) sağ əlin, sol əlin üzərinə qoyulması[139],*
5. *(ihram təkbiri aldıqdan sonra) "Vəccəhtu" duasını oxuması[140],*
6. *İstiazə ("Əuzunun" oxunması)[141],*
7. *Yerinə görə qiraətin səsli və ya səssiz oxuması[142],*

---

[138] Buxari (705) və Müslim (390) İbn Ömər (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Gördüm ki, Peyğəmbər (s.a.v) namaz üçün iftitah təkbirini aldı və əllərini təkbir gətirdikdə çiyinləri səviyyəsində qaldırdı. Rüku üçün təkbir gətirdikdə də eyni hərəkəti etdi. "Səmiallahu limən həmidəhu" dediyi (rükudan qalxdığı) zamanda eyni tərzdə etdi və "Rabbənə və ləkəl hamd" dedi. Səcdəyə gedərkən və başını səcdədən qalxarkən bunu etmədi."

[139] Müslim (401) Vail bin Hücr (r.a)-dan nəql etdiyinə görə; "Peyğəmbər (s.a.m)-i, Namaza başlayarkən əllərini qaldıraraq təkbir etdiyini və sonra sağ əlini sol əlinin üzərinə qoyduğunu görmüşdür."

[140] Müslim (771), Hz. Əli (r.a)-dan rəvayət etdiyinə görə:"Peyğəmbər (s.a.v) namaza durduğu zaman belə deyərdi:

**وَجّهْتُ وَجْهِيَ لِلّذِى فطرَ السّمَاوَاتِ وَألْارْضَ حَنِيفًا مُسْلِمًا وَمَا اَنَا مِنَ الْمُشْرِكِينَ اِنّ صَلَوتِى وَنُسُكِى وَمَحْيَاىَ وَمَمَاتِى لِلّهِ رَبّ الْعَالَمِينَ لاَ شَرِيكَ لَهُ وَبِذَالِكَ اُمِرْتُ وَاَنَا مِنَ الْمُسْلِمِينَ**

***"Vəccəhtu vəchiyə lilləzi fətara`s-səməvəti və`l-ərda hənifən muslimən və mə ənə minə`l-muşrikin. İnnə saləti və nusuki və məhyəyə və məməti lilləhi rabbi`l-aləmin. Lə şərikə ləh və bizəlikə umirtu və ənə minə`l-muslimin."***

***"Batil dinlərdən uzaq duraraq və müsəlman olaraq üzümü göyləri və yeri yaradan Allaha çevirdim. Mən Allaha ortaq qoşanlardan deyiləm. Namazım, ibadətlərim, həyatım və ölümüm aləmlərin Rəbbi olan Allaha`dır. Onun ortağı yoxdur. Mən bununla əmr olundum və mən müsəlmanlardanam."***

[141] Çünki Quran`i Kərimdə belə buyurulur: "Quran oxuduğun zaman (Əuzu billəhi minəş-şəytanir-racim deyərək) qovulmuş şeytandan Allaha sığın." (Nəhl/98)

[142] Sübh, Məğrib və İşa, (ilk iki rükəti), Cümə, Bayram, Günəş və Ay tutulması, yağış duası, Təravih, Ramazandaki Vitr və gecə edilən Təvaf namazlarında qiraət səsli oxunur. Bunlar yerləri gəldikcə irəlidə açıqlanacaqdır. Gecə qılınan Mütləq Nafilələrdə, səsli və səssiz oxuma arasında bir yol tutulur. Çünki Qurani Kərimdə belə buyurulur: "Namazını çox uca səslə qılma və çox yavaşda qılma. Və bu ikisinin arasında (orta) yol tut." (İsra/110)

Bunun belə olduğuna bir çox hədisi Şəriflər dəlalət edir. Məsələn: Buxari (735) və Müslim (463), Cübeyr bin Mütim (r.a)-dan rəvayət etdyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v)-in məğrib namazında "ət-Tur" surəsini oxuduğunu eşitdim."

Buxari (733) və Müslim (464),Bərra (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v)-in İşa namazında "Vəttini vəz-zəytuni..." (ət-Tur) surəsini oxuduğunu eşitdim. Mən onun səsindən və ya qiraətindən daha gözəl olan bir kimsə (səs) eşitmədim."

8. *(Fatihə bitdikdən sonra) "Əmin" demək*[143]*,*
9. *Fatihədən sonra bir surə (və ya bir neçə ayətin) oxunması*[144]*,*
10. *Qalxarkən və əyilərkən* اَللّٰهُ اَكْبَرُ ***"Allahu əkbər"*** *deyilməsi*[145]*,*
11. *Rükudan qalxarkən* سَمِعَ اللّٰهُ لِمَنْ حَمِدَهُ رَبَّنَا لَكَ الْحَمْدُ ***"Səmiallahu limən hamidəh; Rabbənə ləkə`l hamd"*** *deyilməsi,*
12. *Rükuda,* سُبْحَانَ رَبِّىَ الْعَظِيمِ ***"Subhanə Rabbi`yə-l azim,"*** *və səcdədə,* سُبْحَانَ رَبِّىَ الْاَعْلٰى ***"Subhanə Rabbi`yə-l alə"*** *təsbehlerin oxunması*[146]*,*
13. *Oturuşda sol əlini açaraq, sağ əlini də "şəhadət barmağı xaric" yığaraq hər iki əlin budların üstünə qoyulması. Bu arada şəhadət barmağı sərbəst buraxılacaq. Çünki kəlimə-i şəhadətin oxunacağı əsnada onunla işarə ediləcək*[147]*,*

---

Buxari (739) və Müslim (449), İbni Abbas (r.a)-dan, Cinlərin gəlməsi və Peyğəmbər (s.a.v)-dən Quran`i Kərim dinləmələrinə dair rəvayət etdikləri hədisdə belə keçir; "Peyğəmbər (s.a.v), Səhabələrinə sübh namazını qıldırırdı. Cinlərdə Qurani eşitdikdə onu dinlədilər."

Keçən bu hədislər, Peyğəmbər (s.a.v)-in qiraətinin eşidilə biləcək qədər səsli oxuduğuna dəlalət edir.

Qeyd olunan yerlərin xaricində qiraətin səssiz oxunduğuna, Buxari`nin (713) Xabbab (r.a)-dan rəvayəti dəlalət edir: "Biri Xabbab (r.a)-a sual verdi: "Peyğəmbər (s.a.v) zöhr və əsr namazlarında (Quran) oxuyurdumu ? O: bəli –dedi. Biz dedik: Siz bunu necə bilirdiniz? O dedi: (Mübarək) saqqalının tərpənməsindən."

Buxari (738) və Müslim (396), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Hər namazda qiraət vardır (Quran oxunur). Rəsulullah (s.a.v)-in bizə eşitdiklərini (səsli oxuduğunu) biz də sizə eşitdiririk. Bizdən gizli (səssiz) oxuduqlarını biz də sizdən gizli (səssiz) oxuyuruq."

Qeyd olunan yerlərin xaricində də qiraətin açıqdan oxunduğuna dair Səhabədən heç bir nəql yoxdur.

[143] Əbu Davud (934), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), "Ğayri`l məğdubi aleyhim və-lə`d-dallin" oxuduğu zaman (ardınca) "Amin!" deyirdi. Hətta onun arxasında birinci safda namaz qılanlar (bunu) eşidirdi," İbn Macə (853) bunuda əlavə etmişdir: "(Amin dемələri ilə) məscid titrəyərdi."

İmamın, Fatihəni oxuduqdan sonra camaatın da, İmamın "Amin!" deməsinin ardınca "Amin!" deməsi sünnətdir. Buxari (749) və Müslim (410), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə Allah Rəsulu (s.a.v) belə buyurdu: "İmam: "Öayril-məğdubı aleyhim və ləd-dallin" dediyi zaman siz "amin" deyin. Çünki kimin "amin" sözü mələklərin "amin" sözü ilə üst-üstə düşərsə, onun keçmiş günahları bağışlanar." Əbu Davudun bir rəvayətində də (936): "İmam "amin" dediyi zaman sizdə "amin" deyin... ," şəklindədir.

[144] Oxunacaq surə və ya ayələr,namazın ilk iki rükətində oxunur. Buna dəlalət edən bir şox hədislər vardır. Məsələn: Buxari (745) və Müslim (451), Əbu Qətadə (r.a)-dan rəvayət etdiklərinə görə: "Peyğəmbər (s.a.v), zöhr namazının ilk iki rükətində Fatihə surəsi ilə yanaşı iki surədə oxuyardı." Başqa bir rəvayətdə isə: "Sübh namazında da belə edərdi," deyilir. İmamın arxasında namaz qılan camaat, qiraətin açıqdan oxunduğu namazlarda fatihədən başqa bir şey oxumaz. Çünki Əbu Davud (823-824), Nəsai (2/14) və başqaları Ubadə bin Samit (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Biz sübh namazında Peyğəmbər (s.a.v)-in arxasında namaz qılırdıq. O arada ona (s.a.v) qiraət ağır gəldi. Peyğəmbər (s.a.v) namazı bitirdikdən sonra çevrilərək, "yəqin ki, imamınızın arxasında oxuyursunuz" dedi. Biz də, "bəli ey Allahın rəsulu" dedik. Allah rəsulu (s.av), "Fatihədən başqa bir şey oxumayın, çünki onu oxumayanın namazı yoxdur," dedi." Başqa bir rəvayətdə: "Mən Fatihəni səsli oxuduğum namazlarda, Fatihədən başqa Qurandan heç bir şey oxumayın," şəklindədir.

[145] Buxari (752) və Müslim (392), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə: "Əbu Hureyrə (r.a) onlara namaz qıldırarkən hər dəfə əyiləndə və hər dəfə qalxanda "Allahu əkbər" deyərdi. Namazdan sonra Əbu Hureyrə dedi: Aranızda namazı, Peyəmbər (s.a.v)-in namazına ən çox oxşayan mənəm."

[146] Müslim (772) və başqası Huzeyfə (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Bir gecə peyğəmbər (s.a.v) ilə bərabər namaz qıldım. Həmin namazda sırası gəldikdə rüku etdi. Rükuda, "***Subhanə Rabbi`yə-l azim,"*** dedi. Sonra səcdə etdi. Səcdə də, ***"Subhanə Rabbi`yə-l alə"*** dedi.

[147] Müslim (580), Peyğəmbər (s.av)-in namazda oturuş şəkli haqda İbn-Ömər (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) namazda oturduğu zaman sağ əlinə sağ budunun üzərinə qoyar və bütün

14. *Birinci oturuşda iftiraş (yəni, sol ayağın yatırılması və üzərinə oturulması, sağ ayağın da dikilməsi). Son oturuşda isə təvərrük (yəni, sol ayağın barmaq ucları sağ ayağın altından çıxacaq şəkildə yatırılması ilə oturub və sağ ayağın dikəlməsi*[148]*,*
15. *İkinci salamı vermək*[149]*,*

---

barmaqlarını yığar və baş barmaqdan sonra gələn şəhadət barmağı ilə işarət edərdi. Sol əlinidə sol budunun üzərinə qoyardı."

148 Çünki Buxari (793), Əbu Hümeyd əs-Saidi (r.a) rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v)-in necə namaz qılıdığını hamınızdan yaxşı yadda saxlayan mənəm... . İkinci rükətdə (təşəhhüdü oxumaq üçün) oturanda sol ayağının üstündə oturar və sağ ayağını dik tutardı. Axırıncı rükətdə oturanda isə sol ayağını sağ tərəfə çəkər (sağ ayağının altına keçirər) sağ ayağını dik vəziyyətdə tutar və (sol) ombası üstə oturardı."

149 Müslim (582), Səad (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu; "Peyğəmbər (s.av)-i sağa və sola salam verdiyini görürdüm. Hətta yanaqlarının ağlığını belə görürdüm."

Əbu Davud (996) və başqası İbni Məsud (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) yanaqlarının bəyazlığı görülüncəyə qədər sağına və soluna (başı ilə dönüb, "Əssələmu aleykum və rahmətullah... deyərək) salam verirdi." Tirmizi (295), bu hədis, "Həsən və Səhihdir" deyir.

**الأمور التي تخالف فيها المرأة الرجل في الصلاة**

**والمرأة تخالف الرجل في خمسة أشياء: فالرجل يجافي مرفقيه عن جنبيه ويقل بطنه عن فخذيه في الركوع والسجود ويجهر في موضع الجهر وإذا نابه شيء في الصلاة سبح وعورة الرجل ما بين سرته وركبته والمرأة تضم بعضها إلى بعض وتخفض صوتها بحضرة الرجال الأجانب وإذا نابها شيء في الصلاة صفقت وجميع بدن الحرة عورة إلا وجهها وكفيها والأمة كالرجل**

***Namazda qadınla kişinin bir-birindən fərqli xüsusları***

*Namazda qadınla kişi, 5 xüsusda bir-birindən fərqli hərəkət edər:*

***a) Kişinin fərqli hərəkət etdiyi xüsuslar:***

1. *Kişi, səcdə edərkən dirsəklərini yanlarından uzaqlaşdırar[150],*
2. *Rüku və səcdələrdə qarnını budlarından uzaqlaşdırar[151],*
3. *Qiraətin səsli oxunduğu namazlarad qiraəti səsli oxuyar,*
4. *Namazlarda (xəbərdarlıq etməyi gərəkdirən) hər hansı bir şeylə qarşılaşdığı zaman, "Subhanəllah" deyər[152],*
5. *Kişinin, diz ilə göbəy arası övrət sayılır[153].*

***b) Qadının fərqli hərəkət etdiyi xüsuslar:***

1. *Qadın, səcdə edərkən dirsəklərini yanlarına çəkər,*
2. *Rüku və səcdələrdə qarnını budlarına çəkər[154],*
3. *Naməhrəm kişilərin olduğu yerdə səsini qısar[155],*
4. *Namazda (xəbərdarlıq etməyi gərəkdirən) bir şeylə qarşılaçdığı zaman təsfiq edər, (yəni; sağ əlinin içi ilə sol əlinin çöl qisminə vurar.),*

---

[150] Buxari (383) və Müslim (495), Abdullah ibn Malik bin Büheynə (r.a)-dan rəvayət etdiklərinə görə: "Peyğəmbər (s.a.v), namaz qıldığı (səcdə etdiyi) zaman əllərini (bazularını) elə aralı qoyardı ki, qoltuqlarının ağlığı görünərdi." Əbu-Davud (734) və Tirmizi`nin (270) rəvayətlərində, "Əllərini yanlarından uzaqlaşdırar və əllərini çiyinlərinin qarşısında qoyardı," şəklindədir.

[151] Əbu Davud (735), Peyğəmbər (s.a.v)-in namazı qılınış şəkli haqqında Əbu-Humeyd (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v), səcdə edərkən –qarnını budları üzərinə yükləmədən- budları arasında boşluq buraxardı."

[152] Yəni arxasında namaz qıldığı imamın və ya başqasının başına bir şey gəlibdə ona xəbərdarlıq etmək istədiyi zaman "Subhanəllah" deyər. Çünki Buxari (652) və Müslim (421), Səhl bin Said (r.a)-dan rəvayət etdiyinə görə Rəsulullah (s.a.v) belə buyurdu; "Kimə namazında bir şey üz verərsə, Allahı təsbih etsin (Subhanəllah desin). Çünki o, təsbeh etdikdə ona iltifat edilər. Əl çırpmaq qadınlara məxsusdur."

[153] Darəqutni (1/231) və Beyhaqi (2/229), "Mərfu" olaraq rəvayət etdiyinə görə: "iki dizin üstü və göbəyin altı övrət (yerin) -dəndir."

Buxari (347), Cabir (r.a)-dan bunu rəvayət edir: "O (Cabir), bir (qat) paltarda namaz qıldı və belə dedi: "Mən Peyğəmbər (s.a.v)-i bir paltarda namaz qıldığını görmüşəm." Digər bir rəvayətdə (345) isə belə keçir; "Cabir (r.a) boynuna baöladığı bir izar ilə namaz qıldı."

"İzar" kəliməsi, Ərəbcədə bədənin orta (diz ilə göbək arasında olan) hissəni örtən paltara deyilir.

[154] Beyhaqi (2/223) rəvayət etdiyinə görə: " Peyğəmbər (s.a.v) namaz qılan iki qadınla rastlaşdı və belə buyurdu: "Səcdə etdiyiniz zaman yerə doğru yanaşın. Çünki bu xüsusda qadın, kişi kimi deyildir."

[155] Fitnə qorxusu olduğu üçün. Allahu Təala Quran`i Kərimdə belə buyurur: "Əgər Allahdan qorxursunuzsa, yad kişilərlə yumuşaq (nazlana-nazlana) danışmayın, yoxsa qəlbində xəstəlik olan tamaha düşər." (Əhzab/ 32)

Bu ayə, qadının səsinin bəzən fitnəyə yol açdığına dəalət edir. Bu səbəblə qadından yad kişilərin yanında səslərini qısması tələb olunur.

5. *Hürr (azad) olan qadının, üzü və əlləri xaricində bütün bədəni övrət sayılır.*[156] *Cariyə isə kişi kimidir.*[157]

---

[156]Çünki Quran`i kərimdə belə buyurulur: "Qadınlar öz-özlüyündə görünən (yerlər) istisna olmaqla, zinətlərini göstərməsinlər." (Nur/ 31)

Cumhura qatında məşhur olan budur ki: zinətdən məqsəd, zinət yerləridir. Və "öz-özünə görünən yer" isə üz və əllərdir. (İbni Kəsir: 3/283)

Əbu Davud (640) və başqası, Ümmü Sələmə (r.a)-dan rəvayət etdiklərinə görə: "Ümmü Sələmə, Peyğəmbər (s.a.v)-ə, yubka geyinmədən xalat və baş örtüsü ilə örtünərək namaz qıla bilərmi ?" deyə soruşdu. Peyğəmbər (s.a.v), "xalat, onun ayağının üstünüdə örtəcək qədər uzun isə..." bəli deyə cavab verdi."

Anlaşılan budur ki, qadının xalatı, rüku və qiyam halında onun ayağının üstünü örtürsə, səcdə əsnasında da yerdə toplanıb ayaq ətrafını örtəcək və ayağın dabanını da örtmüş olacaq.

[157] Yəni, namazda övrət olan yerləri örtməsi xüsusunda kişi kimidir. Namazın xaricində isə hürr (azad) olan qadın kimidir.

**مبطلات الصلاة**

**والذي يبطل الصلاة أحد عشر شيئا: الكلام العمد والعمل الكثير والحدث وحدوث النجاسة وانكشاف العورة وتغيير النية واستدبار القبلة والأكل والشرب والقهقهة والردة**

### *Namazı Pozan Şeylər*

*Namazı pozan şeylər 11 – dir:*

1. *Qəsdən danışmaq,*[158]
2. *Çox sayılacaq qədər hərəkət etmək (əməli-kəsir),*[159]
3. *Dəstəmazın pozulması,*
4. *(Bədəninə, paltarına və ya namaz qıldığı yerdə) nəcasətin meydana gəlməsi (bulaşması),*
5. *Övrət yerin açəlması,*
6. *Niyyətin dəyişməsi,*[160]
7. *Qibləyə arxasını dönmək,*[161]
8. *Bir şeyi yemək,*
9. *Bir şeyi içmək,*
10. *Qəhqəhə ilə gülmək,*
11. *Dindən çıxmaq.*[162]

---

[158] Buxari (4260) və Müslim (539), Zeyd bin Ərqam (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Biz namazda danışırdıq. Bizdən birimiz, ehtiyac duyduğu anda (müsəlman) qardaşı ilə danışardı." "Namazları və (xüsusən) orta namazı qoruyun və Allaha itaət üçün (mütiliklə) ayağa qalxın (namaza durun), (Bəqərə/238)" ayəsi nazil olunca susmaqla əmr olunduq."

Müslim (537) və başqası Muaviyə bin əl-Həkəm (r.a)-dan, o da Allah Rəsulun (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu; "Şübhəsiz bu namaz, onun içində insanların kəlamından heç bir şey uyğun (caiz) deyildir. Onda yalnız təsbih, təkbir və Quran oxumaq caizdir."

[159] Çünki bu hal namazın nızamına ziddir.

[160] Məsələn: namazdan çıxmağa niyyət etmək kimi.

[161] Çünki keçən bu beş xüsusda, namazın şərtlərindən və ya rükunlarından birisinin tərki vardır.

[162] Çünki qeyd olunan şeylər namazın hey`ət və şərtlərinə ziddir.

**عدد ركعات وأركان الفرائض**

**وركعات الفرائض سبعة عشر ركعة: فيها أربع وثلاثون سجدة وأربع وتسعون تكبيرة وتسع تشهدات وعشر تسليمات ومائة وثلاث وخمسون تسبيحة. وجملة الأركان في الصلاة مائة وستة وعشرون ركنا: في الصبح ثلاثون ركنا وفي المغرب اثنان وفي المغرب اثنان وأربعون ركنا وفي الرباعية أربعة وخمسون ركنا. ومن عجز عن القيام في الفريضة صلى جالسا ومن عجز عن الجلوس صلى مضطجعا**

***Fərz olan namazların rükətləri***

*(Bir gün ərzində qılınması lazım olan beş vaxt fərz namazların toplam rükətləri və bu rükətlərdə yerinə gətirilməsi lazım olan toplam əməllər aşağıda göstərildiyi kimidir):*

*Beş fərz namazın rükətlərinin toplam sayı 17 – dir.*

*Bu rükətlərdəki:*

*Səcdə sayı 34 – dür.*

*Təkbir sayı 94 – dür.*

*Təşəhhüd (Əttəhiyyat) sayı 9 – dur*

*Salam sayı 10 – dur.*

*Təsbih sayı 153 – dür.*

*Beş fərz namazın toplam rüknlarının sayı 126 – dır:*

*Sübh namazında ki rüknların sayı 30 – dur,*

*Məğrib namazında ki rüknların sayı 42 – dir,*

*Dörd rükətli namazların hər birindəki rüknların sayı da 54 – dür.*

***Kim, fərz namazı ayaqda qılmaqdan aciz olarsa, oturaraq qılar. Kim oturaraq da qılmaqdan aciz olarsa, uzanaraq qılar.***[163]

[163] Çünki İmran bin Husaynın (r.a) rəvayət etdiyi hədisdə belə deyilir: “Namazı ayaq üstə qıl, əgər buna gücün çatmazsa oturaraq, yenə gücün çatmazsa yan tərəfinə uzanaraq qıl.”

**السهو في الصلاة**

**والمتروك من الصلاة ثلاثة أشياء: فرض وسنة وهيئة. فالفرض لا ينوب عنه سجود السهو بل إن ذكره والزمان قريب أتى به وبنى عليه وسجد للسهو. والسنة لا يعود إليها بعد التلبس بالفرض لكنه يسجد للسهو عنها. والهيئة لا يعود إليها بعد تركها ولا يسجد للسهو عنها وإذا شك في عدد ما أتى به من الركعات بنى على اليقين وهو الأقل وسجد للسهو. وسجود السهو سنة ومحله قبل السلام**

***Namazda səhv***

*Namazda olub tərk edilən şeylər üçə ayrılır:*

1. *Fərz,*
2. *Sünnət,*
3. *Hey`ət.*

1) *Fərz olan bir şey tərk edilərsə, onun yerinə səhv səcdəsi kafi gəlməz. Əyər fərzi tərk etdiyini xatırlayarsa və zaman yaxındırsa (yəni aradan uzun zaman keçməmişsə), o fərzi yerinə gətirər və səhv səcdəsini edər.*[164]
2) *Sünnət olan bir şey tərk edilərsə, o sünnətdən sonraki fərzə başlamışsa, tərk edilən sünnəti işləmək üçün geri dönməz və o sünnətin yerinə səhv səcdəsi edər.*[165]
3) *Hey`ət olan bir şey tərk edilərsə, onu işləmək üçün geri dönməz və onun yerinə səhv səcdəsi də etməz.*[166]

*Namaz qılan, qıldığı rükətlərin ədədində şübhəyə düşərsə, qəti olan say nə isə onu əsasa alar. Bu da ən az sayıdır. Və sonra etmiş olduğu səhvdən ötrü səhv səcdəsin edər.* [167]

***Səhv səcdəsi***

*Səhv səcdəsi sünnətdir.*[168] *Yeri salam vermədən öncədir.*[169] *(Ediliş şəkli isə, digər rükətlərdəki səcdə kimidir.)*

---

[164] Buxari (1169), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Bir dəfə Allah Rəsulu (s.a.v) bizə zöhr namazını və ya əsr namazını qıldırdı. Salam verdikdən sonra Zül-yədeyn ona dedi: Ya Rəsulallah, namaz qısaldılıbmı ? Peyğəmbər (s.a.v) yoldaşlarından soruşdu: “Onun dediyi doğrudur ? (doğurdanmı mən namazı əskik qıldırdım ?)” Cavab verdilər ki: bəli. Bunu eşidən Allah Rəsulu (s.a.v) qalan iki rükəti də qıldı, sonra iki dəfə (səhv) səcdəsi etdi.

[165] Buxari (1166) və Müslim (570), Abdullah bin Büheynə (r.a)- rəvayət etdiklərinə görə belə buyurdu: “Allah Rəsulu (s.a.v) bizə (dörd rükətli) namazlardan birinin iki rükətini qıldırdıqdan sonra, - bir rəvayətdə də, “günorta namazının iki rükətini qıldıqdan sonra”- oturmadan (üçüncü rükətə) qalxdı. Camaat da onunla birlikdə qalxdı. Namazını bitirib biz onun salam verməsini gözləyəndə salamdan qabaq təkbir gətirib (Allahu əkbər deyib) oturduğu yerdən iki dəfə səcdə etdi, ondan sonra salam verdi.”

İbn Macə (1208), Əbu Davud (1036) və başqası Muğeyra bin Şöbə (r.a)-dan rəvayət etdiklərinə görə Allah Rəsulu (s.a.v) belə buyurdu: “Sizdən biriniz ikinci rükətdən (oturmadan) qalxdığınız zaman, əgər tam dikəlməmişsə otursun. Yox əgər tam dikəlmişsə oturmasın. İki səhv səcdəsi etsin.”

[166] Çünki bir hey`ətin tərki üçün səhv səcdəsi edildiyinə dair bir dəlil varid olmamışdır.

[167] Müslim (571), Əbu Səid əl-Xudri (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə dediyini rəvayət edir: “Sizlərdən biriniz namazda üç və ya dörd rükət qıldığına şəkk edərsə, şəkki tərk edərək yəqin olduğu sayı nəzərə alsın, sonra isə salam verməmişdən öncə iki (səhf səcdəsi) səcdə etsin. Əgər beş rükət qılmış olsa bu (iki səcdə) onu cütləşdirər, əgər dörd rükəti tamamlamış olsa , bu şeytanı üzü üstə süründürməkdir.”

[168] Çünki bir vacibin tərki üçün məşru qılınmamışdır.
[169]Necəki keçən hədislərdə sabit oldu.

**الأوقات التي تكره فيها الصلاة**

**وخمسة أوقات لا يصلى فيها إلا صلاة لها سبب: بعد صلاة الصبح حتى تطلع الشمس وعند طلوعها حتى تتكامل وترتفع قدر رمح وإذا استوت حتى تزول وبعد صلاة العصر حتى تغرب الشمس وعند الغروب حتى يتكامل غروبه**

***Namaz qılmağın məkruh olduğu vaxtlar***

*Beş vaxt var ki, bu vaxtlarda heç bir namaz qılınmaz. Ancaq özü üçün bir səbəb olan namazlar bu vaxtlardan istisna edilmişdir.*

1. *Sübh namazını qıldıqdan sonra günəş doğuncaya qədər,*
2. *Günəşin çıxmasından bir mizraq boyu yüksəlib təkamül edincəyə qədər,*
3. *Günəş tam zirvədə ikən (qərbə) meyl edincəyə qədər,*
4. *İkindi namazını qıldıqdan sonra, günəş batıncaya qədər,*
5. *Günəş batmaq üzərə ikən tamamən batıncaya qədər.*[170]

---

[170] Buxari (561) və Müslim (827), Əbu Səid əl-Xudri (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: “Rəsulullah (s.a.v)-in belə buyurduğunu eşitdim: “Sübh namazından sonra günəş yüksələnədək namaz yoxdur, əsr namazından sonra günəş batanadək namaz yoxdur.” Yəni: “bu vaxtlarda heç kim namaz qılmasın!”

Müslim (831) Uqba ibn Amir (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: “Üç vaxt vardır ki, Peyğəmbər (s.a.v) bizə o vaxtda namaz qılmağı və ölülərmizi basdırmağı qadağan etmişdir:

1. Günəş doğmağa başlayandan yüksələnədək,
2. Günəş zenitdə (tam ortada) olduqdan zeniti keçənə qədər
3. Günəş batmağa yaxınlaşandan tam batana qədər.”

Hədisdəki qadağan, “Haram” hökmünü ifadə edir.

Amma özü üçün bir səbəb olan namazlar “istər nafilə olsun, istər fərz” hər vaxtda qılına bilər. Buxari və Müslimdə keçən bu hədis ona dəlalət edir. Buxari (572) və Müslim (684) Ənəs (r.a)-dan bunu rəvayət edirlər: Peyğəmbər (s.a.v) buyurdu: “Kim bir namazı unudarsa, xatırladığı an (onu qılsın, həmin namazın kəffarəsi ancaq budur (qəza etməkdir) “... Məni anmaq üçün namaz qıl!” (Ta ha / 14)

Buxari (1176) və Müslim (834), Ummu-Sələmə (r.a)-dan bunu rəvayət edirlər: “Peyğəmbər (s.a.v) ikindi namazından sonra iki rükət namaz qıldı. Məndə bundan soruşduqda belə cavab verdi: “Ey Əbu Ümeyyənin qızı! Əsrdən sonraki iki rükət barədə sual verdin. Əbdülqeys oğullarından bir dəstə adam yanıma gəlmişdi. Onlar (sual və söhbətləri ilə) mənə zöhrdən sonraki iki rükəti qılmağa imkan vermədilər. Bu , (gördüyün) həmin iki rükət idi.”

**صلاة الجماعة**

**وصلاة الجماعة سنة مؤكدة وعلى المأموم أن ينوي الائتمام دون الإمام ويجوز أن يأتم الحر بالعبد والبالغ بالمراهق ولا تصح قدوة رجل بامرأة ولا قارئ بأمي وأي موضع صل في المسجد بصلاة الإمام فيه وهو عالم بصلاته أجزأه ما لم يتقدم عليه، وإن صلى في المسجد والمأموم خارج المسجد قريبا منه وهو عالم بصلاته ولا حائل هناك جاز**

***Camaat namazı***

*Camaat namazı sünnət-i müəkkədə`dir.*[171] *İmama uymaq istəyən kimsənin, imama uymağa niyyət etməsi lazımdır. İmamın isə imamlığa niyyət etməsi vacib deyildir.*[172]

*Namazda, hürr (azad) insanın köləyə və baliğ olanın da baliğ olmayan müməyyiz uşağa uyması caizdir.*[173]

*Kişinin qadına uyması caiz deyildir.*[174] *Qarinin (Fatihəni gözəl oxuyub hərflərin haqqını verənin) də ümmi (hərfləri yalnış tələffüz edib haqqını verməyən) kimsəyə uyması caiz deyildir.*[175]

*İmam məscidin içində namaz qılırsa, adam məscidin hər yerində ona uya bilər; yetər ki bu iki şərt yerində olsun.*

1. *Uyan adamın, imamın namazından xəbərdar olması,*[176]
2. *İmamın önünə keçməməsi.*

*Əyər imam məscidin içində namaz qıldırırsa, ona uymaq istəyən adamda məscidin xaricində ona uyursa, bu üç şərtlə caiz olar:*

1. *Uyan adamın imama (və ya safa) yaxın olması,*
2. *İmamın namazından xəbərdar olması,*
3. *Aralarında (yol kimi) bir əngəlin olmaması.*

---

171 Həm kişi həm qadınlar üçün. Buxari (619) və Müslim (650), Abdullah bin Ömər (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) buyurdu: "Camaat namazı təkbaşına qılınan namazdan iyirmi yeddi dərəcə fəzilətlidir (üstündür)."

Ən səhih görüşə görə; İslamın şüarı zahir olacaq şəkildə camaatla namaz qılmaq, muqim (yerli) olan kişilər haqqında fərzi kifayədir. Çünki Əbu Davud`un (557) rəvayət eydiyi və İbni Hibbanında (425) təshih etdiyi hədisdə belə keçir: "Kəntdə və ya çöldə üç nəfər olduqda namazı camaatla (bir rəvayətə görə "namaz") qılmazlarsa Şeytan mütləq onlara qalib gələr.

172 Ta ki, imama uymaları səhih olsun və camaatla namazın səvabına nail olsunlar. Çünki hədisdə də "əməllər, ancaq niyyətə görə dəyərləndirilir" deyilir.

173 Çünki, Buxaridə (4051) belə keçir: "Amr bin Sələmə (r.a), altı və ya yeddi yaşında ikən qövmünə namaz qıldırırdı."

174 Əbu Davud (596) və başqası, Malik bin Huveyris (r.a)-dan bunu rəvayət edir; "Peyğəmbər (s.a.v)-in belə buyurduğunu eşitdim: "Hər kim bir qövmə qonaq gələrsə, onlara imamlıq etməsin! Onlara özlərindən bir kişi imam dursun!"

Hədisdən anlaşılan budur ki, aralarında kişi olan bir camaata qadın imamlıq edə bilməz.

175 Çünki qiraətin tam edilməsi bir rükundur. Yanlış oxuyub hərflərin haqqını verməyən, rüknə xələl gətirmiş olar. Onun namazı özü üçün səhihdir. Çünki öyrənmə imkanı olmadığı üçün zərurət sayılır.

176 Yəni, səsini eşitmək və ya onu görmək və ya mübəlliğin səsini eşitmək ya da safdan bəzi adamları görməklə hal və hərəkətlərindən xəbərdar olmaq.

**صلاة المسافر**

**ويجوز للمسافر قصر الصلاة الرباعية بخمس شرائط: أن يكون سفره في غير معصية. وأن تكون مسافته ستة عشر فرسخا. وأن يكون مؤديا للصلاة الرباعية. وأن ينوي القصر مع الإحرام. وأن لا يأتم بمقيم**

## Müsafirin namazı

Müsafir, bu beş şərtlə dörd rükətli namazlarını (iki rükət şəklində) qısalta bilər.[177]

1. Səfərinin günah məqsədli olmaması,
2. Səfər məsafəsinin on altı fərsəx olması,[178]
3. Əda ediləcək namazın dörd rükətli olması,[179]
4. İhram təkbiri ilə bərabər, namazını qısaldaraq qılacağına niyyət etməsi,
5. Muqim (yerli) olan birinə uymaması.[180]

---

[177] Çünki Qurani Kərimdə belə buyurulur: "Yer üzündə səfərə çıxdığınız zaman. əgər kafirlərin sizə pislik etməsindən qorxsanı, namazları qısa qılmanızda bir günah yoxdur." (Nisa; 101)

Müslim (686), Yəalə bin Umeyyə (r.a)-dan belə rəvayət edir: "Ömər ibn əl-Xattaba (Allah ondan razı olsun) belə dedim: "Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq sizə günah hesab edilməz" Artıq insanlar əmin amanlıqdadır" O mənə belə cavab verdi: "Mən də sənin təəccübləndiyin şeyə təəccüblənmişdim və Peyğəmbərdən (s.a.v) bu barədə soruşduğumda, belə cavab verdi: " Bu , Allahın sizə bəxş etdiyi bir sədəqədir. Onu qəbul edin".

Bu hədis, dörd rükətli namazların qısaltılması, qorxu halına məxsus olmadığına dəlalət edir.

Buxari (1039) və Müslim (690), Ənəs (r.a)-dan bunu rəvayət edir: "Peyğəmbər (s.a.v) ilə birlikdə zöhr namazını Mədinədə dörd rükət, Zul-hüleyfədə isə (əsr namazını) iki rükət qıldım."

[178] Buxari, (Namaz nə qədər məsafədə qısaldılır?) mövzusunda bunu rəvayət edir: "İbn Ömər (r.a) və İbn Abbas (r.a), dörd bəridlik məsafədə həm namazı qısaldaraq qılar, həm də oruc tutmazdılar. Bu on altı fərsəx edir." On altı fərsəx, təqribən səksən bir (81) km – dir.

[179] Yəni, səfər halında əda edəcəyi dörd rükətlik namazı, qısaldaraq qılacaq. Muqim (yerli) ikən qaçırdığı namazları səfərdə ikən qəza edərsə, o namazı qısaldaraq qıla bilməz. Həmçinin səfərdə qaçırdığı namazı muqimlik halında qəza edərsə yenədə qısalda bilməz.

[180] Əhməd bin Hənbəl, İbn Abbas (r.a)-dan rəvayət edir: "Ona (yəni, İbn Abbasa), `Yolçu tək başına ikən namazlarını (qısaldaraq) iki rükət, yolçu olmayan bir imama uyduğu zaman da (qısaltmadan) dörd rükət qılır. Buna nə deyirsiz? deyə sual verildi. O da, "sünnət olan budur" dedi."

**جمع الصلاة**

**ويجوز للمسافر أن يجمع بين الظهر والعصر في وقت أيهما شاء وبين المغرب والعشاء في وقت أيهما شاء، ويجوز للحاضر في المطر أن يجمع بينهما في وقت الأولى منهما**

## *Namazı cəm etmək*

*Səfərdə olan, günorta və ikindi namazlarını cəm edərək istərsə günorta, istərsə ikindi vaxtında cəm edərək qıla bilər. Eyni şəkildə məğrib və işa namazlarını da istərsə məğrib namazı, istərsə işa namazı vaxtında cəm edərək qıla bilər.*[181]

*Yağışlı havalarda muqim (yerli) olan kimsə günorta ilə ikindi, məğrib ilə işa namazlarını birinci namazın vaxtında cəm edərək qıla bilər.*[182]

---

[181] Buxari (1056), İbn Abbas (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) səfərdə günorta namazını ikindi ilə, məğrib namazını isə, işa ilə cəm edirdi."

Əbu Davud (1208), Tirmizi (553) və başqası Muaz (r.a)-dan bunu rəvayət edirlər: "Peyğəmbər (s.a.v) Təbuk döyüşündə idi. Günəş zeniti keçmədən öncə yola çıxardısa, zöhrü əsrə qədər gecikdirər və əsr namazı ilə birlikdə qılardı. Əgər günəş zeniti keçdikdən sonra yola çıxmış olsa idi, zöhrlə əsri bir yerdə qılıb, sonra yola düşərdi. Əgər məğribdən öncə yola çıxsa idi, məğribi gecikdirər, hətta işa ilə birlikdə qılardı. Əgər məğribdən sonra yola düşəcəkdisə, işanı tezləşdirib məğriblə bir yerdə qılardı."

[182] Buxari (518) və Müslim (705) İbn Abbas (r.a)-dan rəvayət etdiklərinə görə: "Peyğəmbər (s.a.v), Mədinədə (cəm edərək) yeddi və (cəm edərək) səkkiz (rükət) namaz qıl(dır)dı. Zöhrü və əsri (səkkiz rükət olaraq cəm etdiyi kimi), məğrib və işanı (da yeddi rükət cəm olaraq qıldırdı)." Müslim öz rəvayətində, "qorxu və yolçuluq olmadığı halda" ifadəsini də əlavə etmişdir. Buxaridə də, hədisi rəvayət edənlərdən biri Əyyub, "Ola bilsin ki, (güclü) yağışlı gecədə (gündə) olmuşdur" deyə keçməkdədir.

Səfər və qorxu halları xaricində iki namazı cəm edərək qıla bilmək üçün namazın camaatla məsciddə qılınması şərtdir. Eyni zamanda hər iki namazın, birinci namazın vaxtında qılınması lazımdır, ikinci namazın vaxtında deyil. Çünki çox vaxt ikinci vaxtda yağış kəsilir və bir üzr olmadan birinci namazın vaxtı çıxmış olar.

صلاة الجمعة

وشرائط وجوب الجمعة سبعة أشياء: الإسلام والبلوغ والعقل والحرية والذكورية والصحة والاستيطان

***Cümə namazı***

*Cümə namazının fərz*[183] *olmasının şərtləri 7 – dir:*

1. *Müsəlman olmaq,*
2. *Baliğ olmaq,*
3. *Ağıllı olmaq,*
4. *Hürr (azad) olmaq,*
5. *Kişi olmaq,*
6. *Sağlam olmaq,*
7. *Muqim olmaq.*[184]

شرائط فعل الجمعة

وشرائط فعلها ثلاثة: أن تكون البلد مصرا أو قرية. وأن يكون العدد أربعين من أهل الجمعة. وأن يكون الوقت باقيا فإن خرج الوقت أو عدمت الشروط صليت ظهرا

***Cümə namazının səhih olmasının şərtləri***

*Cümə namazının səhih olmasının şərtləri 3 – dür:*

1. *Cümə namazı qılınan yerin şəhər və ya kənt olması,*[185]
2. *Cümə namazı fərz olan qırx müsəlman tərəfindən qılınması,*[186]

---

[183] Cümə namazının fərz olduğuna dair dəlil, Qurani Kərimin bu ayətidir: “Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üşün nə qədər xeyirlidir! Namaz qılınıb qurtardıqdan sonra yer üzünə dağılın və Allahın lütfündən ruzi diləyib axtarın.” (Cümə: 9)

Müslim (865) və başqası, Əbu Hureyrə və İbn Ömər (r.a)-dan belə rəvayət etmişlər: “Onlar Peyğəmbər (s.a.v)-in minbərinin pilləsində dayanaraq belə dediyini eşitmişlər: “Cümə namazlarını tərk edən kimsələr , ya bu əməllərindən əl çəkəcəklər, ya da Allah Təala onların qəlblərini möhürləyəcək və onlar qafillərdən olacaqlar.”

[184] Yəni: səfərdə olmayıb iqamət etdiyi yerdə olmaq. İlk üç şərt, namaz qılmağın şərtləridir. Qalan dörd şərtə də, Darəqutni`nin (2/3) və başqasının, Cabir (r.a)-dan rəvayət etdikləri bu hədislər dəlalət edir. Peyğəmbər (s.a.v)-dən nəql olunmuşdur ki: “Kim, Allaha və axirət gününə iman gətirmişsə, ona cümə namazı vacibdir. Ancaq qadın, müsafir, kölə və xəstə olan kimsələr xaric.”
Əbu Davud (1067) Tariq ibn Şihab (r.a)-dan belə rəvayət edir: Peyğəmbər (s.a.v) demişdir: “Dörd (sinif insandan başqa) bütün müsəlmanlara camaatla cümə namazı qılmaq vacibdir. Onlar kölə, qadın, xəstə, uşaqdır.”

[185] Çünki Peyğəmbər (s.a.v) və Səhabələri ancaq bu halda cümə namazını qılıblar. Ərəb qəbilələri, Mədinənin ətrafında iqamə etmişdilər. Onlar cümə namazını qılmırdılar və Peyğəmbər (s.a.v) onlara cümə namazını əmr də etmirdi.

[186] Yəni, özlərində geridə keçən şərtləri daşımaqla mükəlləf olanların sayı qırx və ya daha çox olmalıdır. Bu şərtə, Darəqutni (2/4) və Beyhaqi`nin (3/177), Cabir (r.a)-dan etdikləri bu rəvayət dəlalət edir: “Sünnət (təsdiq edib) keçmişdir ki, hər qırx və ya daha çox (mükəlləf kişilərə) cümə namazı vacibdir.”

3. *Cümə namazı (günorta vaxtında camaat ilə əda ediləcək qədər) vaxtın qalması.*[187]

*Əgər vaxt çıxarsa və ya bu şərtlərdən biri olmazsa günorta namazı qılınır.*

---

Əbu Davud (1069) və başqası Kəb bin Malik (r.a)-dan belə rəvayət edir: "onları ilk dəfə cəm edib (cümə namazını qıldıran) Əsad bin Zuraradır (r.a). O gün qırx nəfər idilər."

[187] Buxari (3935) və Müslim (860), Sələmə bin Əkva (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Biz Peyğəmbər (s.a.v) ilə bərabər cümə namazını qılardıq. (Namazı bitirdikdən) sonra dönüb baxardıq ki, divarların kölgələnə biləcəyimiz qədər kölgəsi qalmazdı." Səhl bin Səd (r.a)-dan etdikləri rəvayətlərində isə belə keçir; "Biz (cümə günü) qaylulə (günorta istirahəti) ilə nahar yeməyini cümədən sonra edərdik." (Buxari: 897, Müslim: 859)

Keçən iki hədis, cümə namazının günorta namazının vaxtında, hətta vaxtın əvvəlində qılındığına dəlalət edir.

فرائض الجمعة

**وفرائضها ثلاثة: خطبتان يقوم فيهما ويجلس بينهما وأن تصلى ركعتين في جماعة**

***Cümənin fərzləri***

*Cümənin fərzləri 3 – dür:*

1. *İki xütbənin oxunması. Xətib xütbələri oxuyarkən ayağa qalxar,*
2. *İki xütbə arasında oturmaq,*[188]
3. *Camaatla*[189] *iki rükət namaz qılmaq.*[190]

هيئات الجمعة

**وهيئاتها أربع خصال: الغسل وتنظيف الجسد ولبس الثياب البيض وأخذ الظفر والطيب. ويستحب: الإنصات في وقت الخطبة ومن دخل والإمام يخطب صلى ركعتين خفيفتين ثم يجلس**

***Cümənin heyət`ləri***

*Cümənin heyətləri 4 – dür:*

1. *Qüsl almaq,*
2. *Vücudu təmiz təmizləmək,*
3. *Ağ rəngli paltar geyinmək,*
4. *Dırnaqları tutmaq və gözəl ətir vurmaq.*[191]

*Xütbə oxunarkən susmaq (danışmamaq) müstəhəbdir.*[192] *İmam xütbə oxuyarkən biri içəri girərsə, xəfif iki rükət namaz qılar və sonra oturar.*[193]

---

[188] Buxari (878) və Müslim (861), İbn Ömər (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) xütbəni ayaq üstə oxuyar, sonra (bir qədər) oturar, sonra yenə ayağa qalxardı. (O eynilə) siz indi etdiyiniz kimi (edərdi).

[189] Çünki bu mövzuda icma vardır. Ayrıca, Nəsai (3/111) və başqası, Ömər (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Cümə namazı iki rükətdir... Muhamməd (s.a.v)-in ifadəsinə dayanaraq."

[190] Çünki Peyğəmbər (s.a.v) və Xuləfa`i-Raşidin dönəmində cümə namazı ancaq bu cür (yəni camaatla) qılınmışdır. Ayrıca Əbu Davud (1067), Tariq bin Şihab (r.a)-dan, o da Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu: "Bütün müsəlmanlara camaatla cümə namazı qılmaq vacib bir haqdır."

[191] Buxari (843) və başqası, Salman Farisi (r.a)-dan rəvayət etdiklərinə görə Peyğəmbər (s.a.v) buyurdu; "Hər kim cümə günü qüsl edib bacardığı qədər təmizlənər, (saçlarını və saqqalını)yağlayar və ya evində olan ətirlə ətirlənər, sonra (məscidə) gedər və (məsciddə) iki nəfərin (camatın) arasını ayırmadan (bir tərəfə çəkilib Allahın) ona nəsib etdiyi qədərnamaz qılar, sonra imam xütbə verərkən susub dinləyərsə, həmin cümə ilə ötən cümə arasında olan (kiçik) günahlar bağışlanar." İmam Əhmədin (3/81) rəvayətində, "Ən gözəl paltarını da geyinərsə" ifadəsi də keçir. Paltarlardan ağ olanı tərcih edildi. Çünki Tirmizi`də (994) keçən xəbərdə belə gəlmişdir: "Paltarlarınızdan ağ olanını geyinin. Çünki onlar sizin ən xeyirli paltarlarınızdandır. Və ölülərinizi də onlarda kəfənləyin.

Bəzzar "Müsnədində" bunu rəvayət edir; "Peyğəmbər (s.a.v) Cümə günü dırnaqlarını tutar və bığlarını qısaltardı."

[192] Buxari (892), Müslim (851) və başqası, Əbu Hureyrə (r.a)-dan rəvayət etdiklərinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "Cümə günü imam xütbə verərkən sən yanındaki (danışan) yoldaşına "sus" desən mənasız, boş söz danışmış olarsan." Əbu Davud`un (1051), Əli (r.a)-dan etdiyi rəvayətdə də belə deyilir; "Kim boş yerə danışarsa o, cümədən tam savab qazanmaz."

[193] Müslimin (875) Cabir (r.a)-dan etdiyi rəvayətdə Allah rasulu (s.a.v) buyurur; "Sizdən biriniz cümə günü gələrsə və İmamda xütbə, oxuyursa iki rükət namaz qılsın və onları xəfif tutsun." (Bax: Buxari; 888)

**صلاة العيدين**

**وصلاة العيدين سنة مؤكدة وهي: ركعتان يكبر في الأولى سبعا سوى تكبيرة الإحرام وفي الثانية خمسا سوى تكبيرة القيام. ويخطب بعدها خطبتين يكبر في الأولى تسعا وفي الثانية سبعا. ويكبر من غروب الشمس من ليلة العيد إلى أن يدخل الإمام في الصلاة وفي الأضحى خلف الصلوات المفروضات من صبح يوم عرفة إلى العصر من آخر أيام التشريق**

***İki bayram namazı***

*Hər iki bayram namazı da sünnət`i-müəkkədədir.*[194]

*Rükət sayıları ikidir.*[195]

*Birinci rükətdə İhram təkbirindən ayrı yeddi dəfə təkbir alınır. Ikinci rükətdən qiyam (qalxış) təkbirindən ayrı beş təkbir alınır.*[196]

*Bayram namazlarından sonra iki xütbə oxunur. Birinci xütbədə doqquz, ikinci xütbədə yeddi təkbir gətirilir.*[197]

*Bu bayramların gecəsində günəşin batmasından etibarən imam bayram namazının ihram təkbiririni gətirincəyə qədər təkbirlər gətirilir.*[198]

*Qurban bayramında ərəfə günü sabahından ən son təşriq günün (bayramın 4. günün) ikindi vaxtına qədər təkbirlər gətirilir.*[199]

---

194 Buxari (913) və Müslim, (889) Əbu Səid əl-Xudri (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: " Peyğəmbər (s.a.v) Ramazan və Qurban bayramı günündə namazgaha çıxardı. (Həmin gün) onun başladığı ilk iş namaz qılmaq olardı. Sonra namazı bitirər və dərhal camaatın qarşısında, onlarla üzbəüz dayanardı. Insanlar səf tutduqları yerdəcə otarardılar. Peyğəmbər (s.a.v) vəz (nəsihət) verə, tövsiyə və əmrlərini bildirərdi. Əgər Peyğəmbər (s.a.v) bir qəzavata qoşun göndərmək istəyərdisə (orada) onları müəyyənləşdirər (seçər) və ya (onlara) bir şey əmr etmək (tapşırmaq) istəyərdisə, əmr edərdi, sonra dönərdi.

195 Nəsai (3/111) və başqası, Ömər (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Ramazan bayramı namazı iki rükətdir. Qurban bayramı namazı da iki rükətdir..." Sonra Ömər (r.a), "Muhammədin (s.a.v) ifadəsi üzərinə" dedi. Eyni zamanda bu xüsusda İcmada vardır.

196 Ömər bin Avf əl-Muzni (r.a)-dan rəvayət edildiyinə görə: "Peyğəmbər (s.a.v), hər iki bayram namazında, birinci rükətdə qiraətdən öncə yeddi təkbir, ikinci rükətdə də, qiraətdən öncə beş təkbir alardı."

Bunu Tirmizi (536) rəvayət edərkən arxasında, "bu xüsusda, Peyğəmbər (s.a.v) – dən rəvayət olunanın ən səhihidir (həsəndir)" deyir.

197 Buxari (920) və Müslim (888) İbn Ömər (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), Əbu Bəkr və Ömər (r.a) hər iki bayram namazını xütbədən öncə qılardılar."

Buxari (932), İbn Abbas (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Ramazan bayramı və ya qurban bayramı günü Peyğəmbər (s.a.v) ilə bərabər çıxdım. Peyğəmbər (s.a.v) öncə namaz qıldı, sonra xütbə oxudu."

İmami Şafei (Allah ona rəhmət etsin) əl-Umm adlı əsərində (1/211) Ubeydullah bin Abdullah (r.a)-dan rəvayət etdiyinə görə belə buyurur: "Sünnət olan, İmamın hər iki bayramda iki xütbə oxuyub aralarında oturmaqla onları bir-birindən ayırmasıdır." Beyhaqi də (3/299) eyni şəxsdən rəvayət edir: "Sünnət olan, birinci xütbəni, ard arda doqquz təkbirlə və ikinci xütbəni də ard arda yeddi təkbirlə açmaqdır."

198 Çünki Qurani Kərimdə belə buyurulur; "O (istəyir ki,) müəyyən olunmuş sayı (miqdarı) tamamlayasınız və sizi hidayət etməsinin şükrü olaraq "təkbir" deyərək Allahı əzəmətli sayasınız, bəlkə (Onun) şükrünü yerinə yetirə bildiz." (Bəqərə/185)

199 Hakim (1/299), Əli (r.a) və Ammar (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v), fərz namazlarda, "Bismilləhir-Rahmənir-Rahim"-i açıqdan oxuyardı. Sübh namazında qunut duası oxuyardı. Ərəfə günü sübh namazından etibarən təkbir gətirərdi və o təkbirləri, son təşriq gününün ikindi namazından sonra kəsərdi."

Hakim, "Bu hədisin isnad baxımından səshih olduğunu və raviləri arasında cərh`ə məruz qalanı bilmədiyini (eşitmədiyini)" deyir.

**صلاة الكسوف والخسوف**

**وصلاة الكسوف سنة مؤكدة فإن فاتت لم تقض ويصلي لكسوف الشمس وخسوف القمر ركعتين في كل ركعة قيامان يطيل القراءة فيهما وركوعان يطيل التسبيح فيهما دون السجود ويخطب بعدها خطبتين ويسر في كسوف الشمس ويجهر في خسوف القمر**

***Küsuf və Xüsuf namazı***

***(Günəş və ay tutulması namazı)***

*Günəş tutulması namazı sünnət-i müəkkədədir. Qaçırıldığı təqdirdə qəza edilməz. Günəş və ay tutulması üçün iki rükət namaz qılınır. Hər rükətdə iki qiyam vardır. Bunlarda qiraət uzadılır. Həmçinin (hər rükətdə) iki rüku vardır. Hər iki rükuda təsbihlər uzatılır. Səcdələrdə isə təsbihlər uzatılmaz. Bu namazlardan sonra iki xütbə oxunur.*[200]

*Günəş tutulması namazlarında qiraətlər gizli, Ay tutulması namazında isə aşkar oxunur.*[201]

---

İmam Buxari buyurur ki; "Hz. Ömər (r.a) Mina`daki çadırında təkbir gətirər, məscid əhlidə onu eşidərək təkbirlər gətirərdilər. Bazarlarda olanlar da (onlara qoşularaq) təkbir gətirərdilər. Beləliklə, təkbir sədalarıdan Mina (sanki) lərzəyə gələrdi. İbn Ömər (r.a) həmin günlərin hamısında Minada da, namazlardan sonra da, yatağında da, evində də, məclisdədə, yolla gedərkən də təkbir gətirərdi." (Bax: Minada keçən günlərdə təkbir babı).

[200] Buxari (997) və Müslim (901), Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu:"Peyğəmbər (s.a.v) dönəmində günəş tutuldu və buna görə də Peyğəmbər (s.a.v) camaata namaz qıldırdı. Qiyamı çox uzatdı və sonra rukuya getdi və rukunu çox uzatdı. Sonra rukudan başını qaldırdı və qiyama durdu və qiyamı cox uzatdı. Bu , birinci qiyamdan daha qısa bir qiyam idi. Sonra rukuya getdi və rukunu cox uzatdı. Bu ruku birincidən daha qısa idi. Sonra səcdəyə getdi. Sonra qalxaraq qiyama durdu və qiyamı uzatdı. Bu birinci qiyamdan daha qısa idi. Sonra rukuya getdi və rukunu uzatdı. Bu birinci rukudan daha qısa idi. Sonra başını rukudan qaldıraraq qiyama durdu və qiyamı uzatdı. Bu birinci qiyamdan daha qısa idi. Sonra rukuya getdi və rukunu uzatdı bu birinci rukudan daha qısa idi. Sonra səcdəyə getdi. Sonra namazı bitirdiyində günəş artıq açılmışdı. İnsanlara xütbə verərək Allaha həmd sənalar dedi, sonra isə belə buyurdu: "Həqiqətən günəş və ay Allahın ayətlərindəndir (möcüzələrindəndir). Onlar kiminsə ölümü və həyatına görə tutulmaz. Onların tutulduğunu gördükdə təkbir edin, Allaha dua edib namaz qılın, sədəqə verin."

Peyğəmbər (s.a.v) -in zamanında, oğlu İbrahimin öldüyü gündə günəş tutulmuşdur. Cahiliyyə dönəmində, günəş və aydan biri tutulsaydı, böyük bir insanın bu dünyadan köçdüyünə yozardılar. Peyğəmbər (s.a.v) bu yanlış anlayışı düzəltmək üçün, "...Onlar kiminsə ölümü və həyatına görə tutulmaz..." dedi.

[201] Tirmizi (562), Səmura bin Cundəb (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), bizə günəş tutulması namazını qıldırdı. Biz onun səsini eşitmirdik."

Buxari (1016) və Müslim (901) Hz. Aişə (r.a)-dan rəvayət etdiklərinə görə: "Peyğəmbər (s.a.v) ay tutulması namazında qiraəti səsli oxudu."

Keçən iki hədisdən birincisi günəş tutulması namazına aid edildi. Çünki bu namaz gündüz qılınan namazdır. ikinci hədis isə ay tutulması namazına aid edildi. Çünki bu namaz gecə qılınan namazdır.

**صلاة الاستسقاء**

**وصلاة الاستسقاء مسنونة فيأمرهم الإمام بالتوبة والصدقة والخروج من المظالم ومصالحة الأعداء وصيام ثلاثة أيام ثم يخرج بهم في اليوم الرابع في ثياب بذلة واستكانة وتضرع ويصلي بهم ركعتين كصلاة العيدين ثم يخطب بعدهما ويحول رداءه ويكثر من الدعاء والاستغفار ويدعو بدعاء رسول الله صلى الله عليه وسلم وهو: "اللهم اجعلها سقيا رحمة ولا تجعلها سقيا عذاب ولا محق ولا بلاء ولا هدم ولا غرق اللهم على الظراب والآكام ومنابت الشجر وبطون الأودية اللهم حوالينا ولا علينا اللهم اسقنا غيثا مغيثا هنيئا مريئا مريعا سحا عاما غدقا طبقا مجللا دائما إلى يوم الدين اللهم اسقنا الغيث ولا تجعلنا من القانطين اللهم إن بالعباد والبلاد من الجهد والجوع والضنك ما لا نشكو إلا إليك اللهم أنبت لنا الزرع وأدر لنا الضرع وأنزل علينا من بركات السماء وأنبت لنا من بركات الأرض واكشف عنا من البلاء ما لا يكشفه أحد غيرك اللهم إنا نستغفرك إنك كنت غفارا فأرسل السماء علينا مدرارا" ويغتسل في الوادي إذا سال ويسبح للرعد والبرق**

## *Yağış (tələbi) namazı*

*Yağış tələbi namazı sünnətdir.*[202] *İmam; öncə xalqı tövbə etməklə, sədəqə verməklə, zülm etməkdən qaçınmaqla, (qul haqlarını ödəməklə) "Allahın düşmənləri xaric" düşmənlərlə barışmaqla və üç gün oruc tutmaqla əmr edər.*[203]

*Sonra imam, dördüncü gündə xalq ilə birlikdə köhnə (iş) paltarında*[204] *tadarru ilə (boynu bükük) sükunətlə (qəlb hüzuru ilə namazgaha) çıxar;*[205] *bayramlarda olduği kimi xalqa iki rükət namaz qıldırar*[206] *və sonra iki xütbə oxuyar.*[207] *Ridasını, (üst geyimini yuxarısa aşağıya gələcək şəkildə) tərs vəziyyətdə arxasına alar.*[208] *Bu arada çoxlu dua edər və əff diləyər. (İmam), Peyğəmbər (s.a.v) –in etdiyi dua dua edər. Həmin dua budur:* ***"Allahım ! Yağışı (bizə) rəhmət yağışı qıl ! Bizə əzab bərəkətsiz, bəla, yıxım və***

---

202 Buxari (966) və Müslim (894), Abdullah bin Zeyd bin Asim (r.a)-dan rəvayət olunduğuna görə: "Peyğəmbər (s.a.v) namazgaha çıxdı, yağış duası etdi. Sonra qibləyə yönəldi, ridasını (üst geyimini) tərsinə çevirdi və iki rükət namaz qıldırdı." Buxarinin digər bir rəvayətində, "hər iki rükətdə qiraəti açıqdan oxudu" ifadəsi keçir.

203 Çünki bu kimi işlərin, duanın qəbul olunmasına vəsilə ola bilməsi hədislərdə sabitdir.

Düşmənlərdən məqsəd, aralarında dünya işləri ilə əlaqəli kin və nifrət olan Müsəlman kimsələrdir.

204 Şərhlərdə bu şəkildə gördüm. Yəni: kibr və qürur hissini verməyəcək ölçüdə iş paltarı və ya köhnəlmiş paltarlar geyinərək.

205 İbn Macə (1266) və başqası, İbn Abbas (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v), (yağış duasına) paltarı ilə ətrafını örtərək, xuşu içində, təvazökar, möhtac və yalvaran şəkildə çıxdı və xalqa bayram namazlarında olduğu kimi iki rükət namaz qıldırdı."

206 Yəni: birinci rükətdə yeddi, ikinci rükətdə beş təkbir alır. Çünki Əbu Davud (1165) və Tirmizi (558), İbn Abbas (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v)-in yağış duası namazını necə qıldığına dair İbn Abbas (r.a)-dan sual olundu. O da, "Bayram namazında olduğu kimi iki rükət namaz qıldı" şəklində cavab verdi.

207 İbn Macə (1268), Əbu Hureyrə (r.a)-dan Rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) bir gün yağış duası namazına çıxdı. Bu arada, əzan və iqamət olmadan bizə iki rükət namaz qıldırdı. Sonra xütbə oxudu və Allaha dua etdi. Bu arada əllərini qaldıraraq qibləyə yönəldi. Sonra ridasını (üst geyimini), sağ tərəfi sola və sol tərəfi sağa gələcək şəkildə tərs gələcək şəkildə (kürəyinə aldı)."

Peyğəmbər (s.a.v), hər iki xütbəsində, bayram namazı xütbələrindəki təkbirlər yerinə, bağışlanma diləyərdi. Çünki Allahu Təala belə buyurur: "Rəbbinizdən əff diləyin. Çünki O, çox bağışlayandır. (Əff diləyin ki) üzərinizə göydən bol bol yağış endirsin." (Nuh; 10 - 11)

208 Allahdan quraqlıq və sıxıntılı günləri, bərəkətli, verimli günlərə çevirməsinə yönəlik bir hərəkətdir.

***batırıcı[209] suyu göndərmə. Allahım ! Yağdıracağın yağışı kiçik təpələrə, ağacların bitdikləri yerlərə, vadilərin içinə yağdır. Allahım ! Yağdıracağın yağışı (faydamız üçün) ətrafımıza yağdır. (Zərərimiz üçün) üzərimizə yağdırma.[210] Allahım ! Can qurtaran, afiyət verən, bol, göz doyuran, yerin dərinliklərinə enən, hər yeri islatan şirin və qiyamətə qədər[211] davamlı bir yağış yağdır. Allahım ! Bizə yağışı ehsan et. Bizi, ümidini kəsənlərdən etmə .[212] Allahım ! Qullarda və Şəhərlərdə sıxıntı, aclıq və darlıq var. Belə ki, bunu ancaq sənə ikıayət edə bilərik. Allahım ! Əkinlərimizi bitir, heyvanların məmələrində südü çoxalt, üzərimizə göyün bərəkətlərindən endir və yerin bərəkətlərində bitir. Səndən başqa kimsənin qaldırmayacağı bu bəlanı qaldır. Allahım ! Səndən bağışlanma diləyirik. Şübhəsiz yeganə bağışlayan Sənsən. Göydən üzərimizə bol yağış yağdır.”***

*Sel axdıqda vadilərdə yuyunmalı[213] və şimşək çaxıb göy guruldayanda təsbih edilir.[214]*

---

[209] Mürsəldir. Bax: İmami Şafei, əl-Umm: 1/222

[210] Rəvayət edən: Buxari: 967 Müslim: 897.

[211] Rəvayət edən: Əbu-Davud: 1169 və başqası.

[212] Yəni: Yağışın gecikməsi ilə ümidsiz olanlardan etmə !...

[213] İmami Şafei (r.a) nəql etmişdir: “Peyğəmbər (s.a.v) (yağış yağdıqdan sonra) sel axdığı zaman belə dedi: “Bizimlə bərabər Allahın təmizləyici qıldığı bu suya çıxın. Onunla təmizlənək və ondan ötrü Allaha həmd edək.” (Bax: əl-Umm: 1/223)

Müslim (898) və başqası, Ənəs (r.a)-dan belə rəvayət edir: “Peyğəmbərlə (s.a.v) birgə olduğumuz bir vaxtda bizi yağış tutdu. Peyğəmbər (s.a.v) paltarını yağış suyunun ona dəyməsi üçün açdı. Biz ondan: “Ey Allahın elçisi nə üçün belə etdin?” deyə soruşduqda, O: “Bu yağış Rəbbimin yanından təzə enir” deyə cavab verdi” İmami Nəvəvi (r.a) buyurdu: Bu hədisin mənası budur ki: Yağış (Allahın) rəhmətidir. Allah onu yeni yaratmışdır. Elə isə onunla təbərrük olundu.

[214] İmam Malik, əl-Muvatta (2/992) adlı əsərində, Abdullah bin. Zubeyr (r.a)- dan bunu rəvayət edir: “O, göy gurultusunu eşitdiyi zaman danışmağı tərk edər və belə deyərdi: “Göy gürultusu həmd edərək ona təriflər deyir. Mələklər də Onun qorxusundan (təriflər deyirlər).” Sonra belə burdu: “Şübhəsiz bu, yer üzündəkilərinə şiddətli bir xəbərdarlıqdır. Çünki onunla enən ildırımlar, sellər və başqa şeylərlələ (insanlara) xəbərdarlıq olunur.

Abdullah bin. Zeydin (r.a) oxuduğu dua, “Rad” surəsi 13. ayətindən iqtibas olunmuşdur.

**صلاة الخوف**

**وصلاة الخوف على ثلاثة أضرب أحدها: أن يكون العدو في غير جهة القبلة فيقهرهم الإمام فرقتين: فرقة تقف في وجه العدو وفرقة خلفه فيصلي بالفرقة التي خلفه ركعة ثم تتم لنفسها وتمضي إلى وجه العدو وتأتي الطائفة الأخرى فيصلي بها ركعة وتتم لنفسها ويسلم بها. والثاني: أن يكون في جهة القبلة فيصفهم الإمام صفين ويحرم بهم فإذا سجد سجد معه أحد الصفين ووقف الصف الآخر يحرسهم فإذا رفع سجدوا ولحقوه والثالث: أن يكون في شدة الخوف والتحام الحرب فيصلي كيف أمكنه راجلا أو راكبا مستقبل القبلة وغير مستقبل لها**

***Qorxu halında namaz***

*Qorxu halında qılınan namazın üç halı vardır:*

1. *Düşmənin qiblə tərəfində olmaması halı. İmam (camaatı) iki qrupa ayırar. Bir qrup düşmənə hazır vəziyyətdə gözləyər. Digər qrup da imamın arxasında durar. İmam arxasındaki qrupa bir rükət namaz qıldırar. Sonra bu qrup geridə qalan namazını imamdan ayrı öz başına tamamlayar və ardından cəbhəyə gedib düşmənə qarşı hazır vəziyyətə keçər. Bu arada gözləməkdə olan digər qrup gəlib imamın arxasında namaz qılmağa başlayar. İmam, bu qrupa da bir rükət namaz qıldırdıqdan sonra bu qrup, qalan namazını imamdan ayrı, öz başına tamamlayar və imamla bərabər salam verər.*[215]
2. *Düşmənin qiblə tərəfdə olması halı: İmam (camaatı) iki safa ayırar onlarla birlikdə ihram təkbirini alar. İmam səcdəyə geytdiyində birinci saf imamla bərabər səcdəyə gedər, digər saf səcdəyə gedənləri mühafizə edər. İmam qiyama qalxdığında digər saf səcdəyə gedər və qiyamda imama yetişər.*[216]
3. *Şiddətli qorxu və savaş halı: Bu halda mümkün olduğu şəkildə namaz qılarlar. İstər qibləyə yönəlsin istər yönəlməsin, istər heyvanın belində olsun istər piyada (namazını necə qıla bilirsə elə qılar).*[217]

---

[215] Buxari (3900), Müslim (842) və başqası, Salim bin Xavvat (r.a)-dan, O da "Zatur-Riqa" günündə Peyğəmbər (s.a.v)-in qorxu namazına şahid olanlardan bunu rəvayət edir: "Bir dəstə Peyğəmbərin (s.a.v) arxasında cərgələrə düzüldü, digəri isə düşmənə qarşı üz tutdu. Peyğəmbər (s.a.v) arxasında namaza durmuş dəstəyə bir rükət qıldırdıqdan sonra ayağa qalxıb yerində durdu, arxasındakılar isə (ayrı-ayrılıqda) ikinci rükəti tamamladılar. Onlar namazlarını bitirdikdən sonra gedib düşmənə tərəf səf-səf düzüldülər. Sonra o biri dəstə (gəlib Peyğəmbərə (s.a.v) qoşuldu və Peyğəmbər (s.a.v) onlara özünün qalan bir rükətini qıldırdı və oturub gözlədi. Onlar ayağa qalxıb ikinci rükəti tamamladıqdan sonra Peyğəmbər (s.a.v) salam verib onlarla birlikdə (namazını bitirdi)."

[216] Buxari (902), İbn Abbas (r.a)-dan bunu rəvayət edir: "Peyğəmbər (s.a.v) namaza durdu, camaatda onunla birgə (iki qrup şəklində onun arxasında) namaza durdu. Peyğəmbər (s.a.v) təkbir gətirdi, camaat da onunla birgə təkbir gətirdi. Peyğəmbər (s.a.v) rükuya getdi, camaatdan bir qrup onunla birgə rükuya getdi. Sonra (Peyğəmbər (s.a.v) ikinci rükəti qıldırmaq üçün qalxdı. (Bu zaman) səcdə etmiş olanlar da ayağa qalxıb (təkbir gətirdikləri halda nə rüku nə də səcdə etmədən onları qoruyan ikinci qrup) qardaşlarını qorumağa başladılar. (Sonra) ikinci qrup gəlib Peyğəmbərlə (s.a.v) birgə rüku və səcdə etdilər. (Bu zaman əslində) camaatın hamısı eyni bir namazda idilər, lakin bir-birini qoruyurdular."

[217] Çünki Qurani Kərimdə belə buyurulur: "Namazları və (xüsusiylə) orta namazı qoruyun və Allahın qarşısında mütiliklə durun. Əyər (nədənsə) qorxsanız, (namazınızı) ayaq üstə və ya minik üzərində (qılın). Təhlükə sovuşduqda isə Allahı, sizə bilmədiklərinizi necə öyrədibsə, o cür yad edin." (Bəqərə: 238-239)

Buxari (4261), qorxu halında qılınan namazın vəsfi haqqında İbn Ömər (r.a)-dan bunu rəvayət edir: "Əyər daha şiddətli bir qorxu halı olarsa, piyada ayaq üstə və minik üstündə, qibləyə yönəlmiş və ya yönəlməmiş vəziyyətdə namazınızı qılın...! Malik dedi ki: Nafi dedi: " Abdullah bin. Ömərin (r.a) bu hədisi Peyğəmbər (s.a.v)-dən (örənib) rəvayət etdiyindən başqa bir şey görmürəm."

اللباس

**ويحرم على الرجال لبس الحرير والتختم بالذهب ويحل للنساء، وقليل الذهب وكثيره في التحريم سواء، وإذا كان بعض الثوب إبريسما وبعضه قطنا أو كتانا جاز لبسه ما لم يكن الإبريسم غالبا**

### *İpək paltar və qızıl*

Kişilərə ipək paltar geyinmək və qızıl üzük taxmaq haramdır. Qadınlara isə hər ikisi də halaldır. Qızılın azı və çoxu haramlıqda eynidir.[218]

Geyiləcək paltarın bir qismi ipək, bir qismi də pambıq və ya kətan olsa, ipək, pambıq və ya kətandan çox olmadığı müddətcə caizdir.[219]

---

[218] Buxari (5110) və Müslim (2067), Huzeyfə (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edirlər: "İpək və dibəc (ipək növü) geyinməyin !..."

Buxari (5526) və Müslim (2089), Əbu Hureyrə (r.a)- dən bunu rəvayət edirlər: "Peyğəmbər (s.a.v) qızıldan üzük taxmağı qadağan etdi."

Tirmizinin (1720) rəvayət etdiyinə görə Rəsulullah (s.a.v) buyudu: "İpək paltar və qızıl ümmətimin kişiləri üçün haram qılındı, qadınları üşün isə halal (qılındı)."

[219] Buxari (5490) və Müslim (2069), Ömər (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) ipək geyinməyi qadağan etdi. Ancaq bu şəkildə olarsa xaric. Bunu deyərkən baş barmaqdan sonraki iki barmaq ilə işarət etdi. Hədisi rəvayət edən, "onun işarətindən, paltarın kənarına və başqa yerlərində olan zolaqları qəsd etdiyini anlayırdıq" dedi.

**الجنازة**

**ويلزم في الميت أربعة أشياء: غسله وتكفينه والصلاة عليه ودفنه واثنان لا يغسلان ولا يصلي عليهما: الشهيد في معركة المشركين. والسقط الذي لم يستهل صارخا. ويغسل الميت وترا ويكون في أول غسله سدر وفي آخره شيء من كافور. ويكفن في ثلاثة أثواب بيض ليس فيها قميص ولا عمامة**

***Cənazə***

*Ölü üçün 4 şey lazımdır:*

1. *Onu yumaq,*
2. *Kəfənləmək,*
3. *Namazını qılmaq,*
4. *Dəfn etmək.*[220]

*Ölülərdən iki sinif var ki, nə yuyulur nə də cənazə namazları qılınır:*

1. *Müşriklərlə döyüşdə şəhid olan,*[221]
2. *Düşük olaraq doğulub səs çıxarmayan uşaq.*[222]

*Cənazə (üç, beş və ya daha çox, sayı ) tək olaraq yuyulur. (Birinci yumada sidr istifadə olunur). Axırıncı yumada isə biraz kafur da istifadə olunur.*[223]

Cənazə üç ağ bezdə kəfənlənir. Köynək və sarğı bunların arasında deyil.[224]

---

[220] Müsəlmanlar, bu dör şeyin "Fərzi-Kifayə" olduğuna icma ediblər. Bu dörd şeyin vacib olduğunun dəlili, az irəlidə gələcək hədislərə dayanan icmadır.

[221] Buxari (1278), Cabir (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v), Uhud Şəhidlərinin, qanlı-qanlı dəfn edilməsini əmr etdi. Onlara nə qüsl verildi, nə də namazları qılındı."

[222] Çünki Tirmizi (1032) və başqası; Cabir (r.a)-dan. O da Peyğəmbər (s.a.v)-dən bunu rəvayət edir: "Doğulan uşaq səs çıxarmazsa, üzərinə namaz qılınmaz, miras almaz və miras buraxmaz."

İbn Macə (1508), Cabir (r.a)-dan, Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Doğulan uşaq, doğularkən səs çıxararsa, üzərinə namaz qılınır və miras haqqına sahib olur."

[223] Buna, Buxari (165) və Müslim`in (939) Ummu Ətiyyə əl-Ənsariyyə (r.a)-dan etdikləri bu rəvayət dəlalət edir. Ummu Ətiyyə (r.a) buyurur: "Peyğəmbər (s.a.v) yanımıza gəldi: bizdə onun qızının cənazısini yuyurduq. Bu arada dedi ki; "Onu üç və ya beş dəfə yaxud məsləhət bilirsinizsə, bundan da çox su və sidr ilə yuyun. Axırıncısına biraz kafur da qatın. Öncə sağ tərəfindən və dəstəmazda yuyulan əzalarından başlayın."

[224] Buxari (1214) və Müslim (941), Hz. Aişə (r.a)- dan bunu rəvayət edirlər: "Peyğəmbər (s.a.v) üç ədəd ağ səhuliyyə deyilən parçalar ilə kəfənləndi. Onların arasında nə əmmamə var idi, nə də qamis (köynək).

**الصلاة على الميت**

**ويكبر عليه أربع تكبيرات: يقرأ الفاتحة بعد الأولى ويصلي على النبي صلى الله عليه وسلم بعد الثانية، ويدعوا للميت بعد الثالثة فيقول: "اللهم هذا عبدك وابن عبديك خرج من روح الدنيا وسعتها ومحبوبه وأحباؤه فيها إلى ظلمة القبر وما هو لاقيه كان يشهد أن لا إله إلا أنت وحدك لا شريك لك وأن محمدا عبدك ورسولك وأنت أعلم به منا اللهم إنه نزل بك وأنت خير منزول به وأصبح فقيرا إلى رحمتك وأنت غني عن عذابه وقد جئناك راغبين إليك شفعاء له. اللهم إن كان محسنا فزد في إحسانه وإن كان مسيئا فتجاوز عنه ولقه برحمتك رضاك وقه فتنة القبر وعذابه وافسح له في قبره وجاف الأرض عن جنبيه ولقه برحمتك الأمن من عذابك حتى تبعثه آمنا إلى جنتك برحمتك يا أرحم الراحمين". ويقول في الرابعة: "اللهم لا تحرمنا أجره ولا تفتنا بعده واغفر لنا وله". ويسلم بعد الرابعة**

## *Cənazə namazı*

*Cənazə namazı qılınarkən dörd təkbir alınır.*[225] *Birinci təkbirdən sonra Fatihə oxunur.*[226] *İkinci təkbirdən sonra Peyğəmbərə (s.a.v) salat gətirilir.*[227] *Üçüncü təkbirdən sonra ölüyə dua edilir. Ediləcək dua budur: "Allahım... ! Bu Sənin qulundur və iki qulunun oğludur. Sevgili və sevdiklərini arxada buraxaraq dünyanın rahat və genişliyindən çıxıb qəbrin qaranlığına və qarşılaşacağı hallara döndü. Səndən başqa ilah olmadığına, Sənin tək İlah olduğuna, şərikin olmadığına və Muhammədin (s.a.v) Sənin qulun və elçin olduğuna şahidlik edirdi. Sən onu (bizdən) daha yaxşı bilirsən. Allahım ! O Sənə (qonaq) gəldi. Sən isə ikram edənlərin ən xeyirlisisən. O Sənin Rəhmətinə fəqir və möhtacdır. Sənin ona əzab etməyə ehtiyacın yoxdur. Biz onun üçün şəfaətçi olaraq ümüd için Sənə (hüzuruna) gəldik. Allahım ! Bu adam yaxşı yaxşı bir kimsə idisə Sən onun yaxşılığını artır. Əgər pis bir adamdırsa günahlarını bağışla. Və rəhmətinlə ona rızanı göstər. Onu qəbr əzabın və fitnəsindən qoru, qəbrini genişlət, yanlarından yeri uzaqlaşdır və cənnətinə göndərincəyə qədər mərhəmət edərək onu əzabından əmin et, ey mərhəmətlilərin ən mərhəmətlisi."*[228] *Dördüncü təkbirdən sonra, "Allahım ! Bizi onun səvabından məhrum etmə və ondan sonra bizi fitnəyə uğratma. Bizi və onu əff et"*[229] *duası oxunur və salam verilir.*[230]

---

[225] Buxari (1188) və Müslim (951), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə: "Nəcaşi öldüyü gün Rəsulullah (s.a.v) onun ölüm xəbərini (camaata) xəbər verdi. O musallaya (namazgaha) çıxdı, camaatı səflərə düzərək (cənazə namazı qıldırdı və namazda) dörd dəfə təkbir gətirdi.

[226] Buxari (1270), Təlhə bin Abdullah bin Əvf (r.a)-dan rəvayət etdiyinə görə belə dedi: "Bir dəfə İbn Abbasın (r.a) arxasında cənazə namazı qıldım. O, Fatihəni oxudu. (Namazdan sonra bunun səbəbini soruşanlara) dedi: camaat bilsin ki, O (Fatihəni oxumaq) sünnətdir.

[227] İmami Şafei Müsnədində və Nəsai də (4/75) səhih bir isnadla Əbu Umamə bin Səhl (r.a)-dan bunu rəvayət edirlər: "Peyğəmbər (s.a.v)-in səhabələrindən biri, ona bunu xəbər verdi: "Cənazə namazında sünnət olan budur ki: Öncə imam təkbir alır. Bu təkbirdəndən sonra içində gizli olaraq Fatihə oxuyur. Sonra Peyğəmbər (s.a.v)-ə salat gətirir. Sonra cənazəyə dua edər və daha sonra gizlicə salam verər."

[228] Bu duaları, İmam Şafei (bu xüsusda gələn) xəbərlərin məcmusundan götürmüşdür və əshabıda gözəl görmüşdür. Ancaq bu babda ən səhih hədis, Müslimin (963) Avf bin Malikin (r.a) rəvayət etdiyi bu hədisdir; "Peyğəmbər (s.a.v) bir cənazəyə namaz qıldı. Onun belə dua etdiyini eşitdim: "Allahım! Onu bağışla, ona rəhm et, ona salamatlıq ver, onu əfv et. Onu gözəl tərzdə qarşıla, onun yerini geniş et! Onu su, qar və dolu ilə yu. Ağ paltarı kirdən təmizlədiyin kimi onu da günahlarından təmizlə! Ona evinin əvəzinə daha xeyirli bir ev, ailəsinin əvəzinə daha xeyirli bir ailə, zövcəsinin əvəzinə daha xeyirli bir zövcə ver. Onu cənnətə daxil et! Onu qəbr və Cəhənnəm əzabından qoru!" Hətta mən o cənazənin yerində olmağı arzuladım."

Tirmiz (1024) və Əbu Davud (3201), Əbu Hureyrə (r.a)-dan bunu rəvayət edirlər: "Peyğəmbər (s.a.v) bir cənazə üzərinə namaz qılacağı zaman belə dua edərdi: "Allahım ! dirimizi, ölümüzü, burada olanımızı, olmayanımız, kiçiyimizi, böyüyümüzü, kişimizi, qadınımızı bağışla! Allahım ! aramızda yaşadacaqları Islam üzrə yaşat., öldürəcəklərini imanlı olaraq öldür."

[229] Əbu Davud (3201), "ondan sonra bizi (haqdan) azdırma" ifadəsi ilə rəvayət etmişdir.

[230] Beyhaqi (4/43), (ceyyid) yaxşı bir isnadla Abdullah bin Məsud (r.a)-dan bunu rəvayət edir: "Peyğəmbər (s.a.v) cənazə namazında, normal namazda salam verdiyi kimi salam verərdi."

الدفن

**ويدفن في لحد مستقبل القبلة ويسل من قبل رأسه برفق ويقول الذي يلحده: بسم الله وعلى ملة رسول الله صلى الله عليه وسلم ويضجع في القبر بعد أن يعمق قامة وبسطة ويسطح القبر ولا يبنى عليه ولا يجصص**

### *Cənazənin dəfni*

*Cənazə (xərəkdən alınarkən) baş tərəfindən yumuşaqlıqla çəkilir*[231] *və üzü qibləyə gələcək şəkildə ləhddə dəfn olunur.*[232] *Cənazəni ləhdə yerləşdirən kimsə, "Bismilləhi və alə milləti Rasulilləh (Allahın adı ilə və Rəsulullahın milləti (dini) üzrə)" deyər.*[233] *Qəbir, bir boy və bir qol qədər dərinləşdirildikdən sonra cənazə sağ yanı üzərinə yatırılaraq yerləşdirilir.*[234] *Qəbir(in üstü) səthiləşdirilir (dəvə hörgüçü kimi edilməz). Onun üzərində bina edilməz və gipslənməz.*[235]

---

[231] Əbu Davud (3211), səhih bir isnadla bunu rəvayət edir:"Səhabələrdən olan Abdullah bin Yəzid əl-Hatmi, Harisi ayaq tərəfdən qəbrə daxil etdi və belə dedi: "bu sünnətdəndir."

[232] Müslim`in (966), rəvayət etdiyinə görə: "Sad ibn Əbu Vaqqas (r.a) vəfat etdiyi xəstəliyi ərəfəsində belə buyurdu: "Mənim qəbrimi Peyğəmbərə (s.a.v) edilən kimi ləhd qazın və üzərimə daş lövhə qoyun."

[233] Əbu Davud (3213) və Tirmizi (1046), İbn Ömər (r.a)-dan bunu rəvayət edir: "Peyğəmbər (s.a.v) meyyiti qəbrə qoyduğu zaman, "Bismilləhi və alə milləti Rasulilləhi..." deyərdi."

[234] Əbu Davud (3215) və Müslim (1713), Hişam bin A`mir (r.a)-dan Peyğəmbər (s.a.v)-in Uhud (da şəhid olan) ölülər haqqında belə buyurduğunu rəvayət edir: "(Qəbri) qazın, geniş tutun və gözəl edin."

[235] Çünki bundan qadağan olunmuşdur. Müslim (969) və başqası rəvayət edir ki; Əbu əl-Həyyac əl-Əsədi belə rəvayət edir: "Əli ibn Əbu Talib (r.a)) mənə belə buyurdu: "Peyğəmbərin (s.a.v) mənə əmr edərək göndərdiyi kimi sənə də bir şeyi əmr edərək göndərməyimi istəyirsənmi? Dağıtmadığın heç bir heykəl və (yerdən az yüksək olmaqla) yerlə bir səviyyədə etmədiyin heç bir yüksək qəbir qoyma."

Müslim (970) Cabir (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) qəbrin gipslənməsini, üzərində oturulmasını və onun üzərinə bina edilməsini qadağan etdi."

Bu qadağandan sonra qəbri qaldırmaq və süsləmək, mərmər və bunun kimi şeyləri qoymağın halı (höhmü) nə olar ? Peyğəmbər (s.a.v)-dən gələn bu açıq qadağandan sonra heç şəkk yoxdur ki, "burada şəriətin qadağan etmiş olduğu malı zay (israf) etmə olduğu üçün və sünnətə müxalif olduğundan dolayı" haramdır.

**البكاء**

**ولا بأس بالبكاء على الميت من غير نوح ولا شق جيب ويعزى أهله إلى ثلاثة أيام من دفنه ولا يدفن اثنان في قبر إلا لحاجة**

### *Ölü üçün ağlamaq*

*Ölü üzərinə səsini yüksəltmədən və yaxasını yırtmadan,[236] tavazökar bir şəkildə ağlamaqda bir beis yoxdur.[237] Ölünün dəfnindən etibarən üç gün ailəsinə (yaxınlarına) təziyə verilir.[238]*

*Ehtiyac olmadığı halda[239] iki ölü bir qəbrə dəfn edilməz.*

---

[236] Yəni: Allahın qəza və qədərinə qarşı üsyan sayılan və İslami bağlılığa zidd olacaq hər söz və hərəkət haram sayılır. Yaxaları yırtmaq, yanaqlara vurmaq (və saçları yolmaq) bu qəbildən olan şeylərdir.

Müslim (935) Əbu Malik əl-Əşari (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) buyurdu: "Ölü üçün şivən qoparan qadın, ölmədən öncə (bu əməlinə görə) tövbə etməzsə, qiyamət günü (qəbrindən) qalxdığında əynində qətrandan şalvar və ağrı verici bir zireh olacaqdır."

Buxari (1232), Abdullah bin Məsud (r.a)-dan rəvayət etdiyinə görə Peyğəmbər (s.a.v) belə buyurdu: "(Yaxını vəfat edəndə) yanaqlarına (üzlərinə) döyənlər, yaxalarını yırtanlar, (dinimizdə haram edilmiş) cahiliyyə sözləri işlədənlər bizdən deyildir!"

[237] Buxari (1241) və Müslim (2315-2316) rəvayət etdiklərinə görə: "Peyğəmbər (s.a.v) oğlu İbrahim vəfat etmədən öncə ona ağladı və belə dedi: Göz ağlayar, qəlb hüzünlənər, lakin biz sadəcə Allahın razı olduğunu söyləyərik: Biz sənin ayrılığına "ey İbrahim" üzgünük!"

Müslim (976), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) anasının qəbrini ziyarət etdi. Bu arada həm özü ağladı həm də ətrafındakıları ağlatdı."

[238] İbni-Macə (1601), Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu: "Hər hansı bir müsəlman, bir müsibətdən dolayı qardaşına təziyə verərsə, Allahu Təala qiyamət günü ona saygı (hörmət) paltarlarından geyindirər."

Üç gündən sonra təziyə vermək məkruhdur, ancaq səfərdə olan kimsə üçün məkruh deyildir. Çünki bu müddət ərzində hüzün və matəm çox vaxtı bitər. Bu səbəblə hüznü yeniləmək gözəl görülməz. Necə ki, təziyəni təkrar etmək məkruhdur. Ölünün yaxınları onu təchiz etməklə məşğul olduğu üçün gözəl olan təziyəni dəfndən sonra verməkdir. Ancaq hüzünləri artarsa "onlara münasib olan halı gözləməklə" öncə edilməsi daha yaxşıdır.

[239] Buxari (1280), Cabir bin. Abdullah (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) Uhud döyüşündə qətlə yetirilənlərdən iki nəfəri bir yerə cəm edirdi (bir qəbrə dəfn edirdi).

# كتاب الزكاة

# Zəkat bölümü

**الأموال التي تجب فيها الزكاة**

**تجب الزكاة في خمسة أشياء وهي: المواشي والأثمان والزروع والثمار وعروض التجارة**

***Zəkatın vacib olduğu mallar***

*Beş malda zəkat vermək vacibdir:*

1. *Heyvan (dəvə, inək, qoyun-keçi),*
2. *Pul,*
3. *Əkin məhsulları,*
4. *Meyvə,*
5. *Ticarət malları.*[240]

[240] Zəkatın vacib olması, həm ayət həm hədislərlə sabitdir:

Ayət: Onların mallarından sədəqə (zəkat) al ki, bununla onları (günahlarından) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan." (Tövbə: 103)

Hədis: Peyğəmbər (s.a.v) Muazı (r.a) Yəmənə göndərərkən ona belə demişdir: "Onlara, Allahu Təalanın onların varlılarından götürülərək kasıblara verilən bir sədəqə (zəkat) fərz buyurduğunu xəbər ver." Bu hədisi Buxari (1331), Müslim (19) və başqaları rəvayət etmişdir."

Amma zəkatın yuxarıda keçən beş malda vacib olmasının dəlili, hər bir malın açıqlanacağı yerdə gələk.

**المواشي**

**فأما المواشي فتجب الزكاة في ثلاثة أجناس منها وهي: الإبل والبقر والغنم. وشرائط وجوبها ستة أشياء: الإسلام والحرية والملك التام والنصاب والحول والسوم**

***Heyvanlarda zəkat***

*Heyvanlardan bu üç cinsdə zəkat vacibdir:*

1. *Dəvə,*
2. *İnək,*
3. *Qoyun-keçi.*[241]

*Zəkatın vacib olmasının şərtləri altıdır:*

1. *Müsəlman olmaq,*
2. *Hürr (azad) olmaq,*
3. *Tam mülkiyyət,*
4. *Nisab (Yəni, Heyvanın sayı, zəkatın fərz olan minimum saya çatması),*[242]
5. *(Heyvanın üzərindən) bir ilin keçməsi,*[243]
6. Saimə olması (ilin yarıdan çoxunu otlaqlarda bəslənərək keçirən heyvana"Saimə" deyilir).[244]

---

[241] Göstərilən cinslərdə zəkatın vacib olduğuna və bunların şərtlərindən çoxuna, Buxarinin (1386), Ənəs bin. Malik (r.a)-dan rəvayət etdiyi hədis dəlalət edir: Hz. Əbu Bəkr (r.a) onu Bəhreynə göndərəndə ona belə bir məktub yazmışdır. Həmin məktubun əvvəlində bu yazılmışdır: "Mərhəmətli və Rəhmli Allahın adı ilə. Bu, Peyğəmbərin (s.a.v) müsəlmanlara vacib buyurduğu zəkatdır. Hansı müsəlmandan burada göstərilən miqdarda zəkat tələb olunarsa, onu versin; bundan artığı tələb olunsa, verməsin.

Həmin məktubda, zəkata tabe olan heyvanın cinsləri, onların nisanları və onlarda vacib olan şeyin (miqdarı) göstərilmişdir. Bunlar irəlidə mövzu ilə əlaqəli yerdə gələcəkdir.

[242] Nisab: malın, zəkatın vacib olacaq müəyyən bir miqdara çatmasıdır. "əl-Misbəhu`l – Munir" – də qeyd olunduğuna görə Nisab: zəkatın vacib olması üçün etibar olunan miqdardır. Hər malın nisabı öz mövzusunda dəlili ilə barəbər gələcək.

[243] Çünki Peyğəmbər (s.a.v) belə buyurur: "Üzərindən bir il keçmədiyi meddətcə, malda zəkat yoxdur." (Əbu Davud:1573). Yəni, Bir malın üzərindən (ay təqvimi ilə) qəməri bir il keçmədikcə zəkat vacib olmaz.

[244] "Saimə," (heyvanın) ilin tamamını və ya çoxunu mübah otlaqda bəslənərək keçirməsidir. Əbu Bəkrin (r.a) məktubunda, "saimə olan qoyunun zəkatında" şəklində gəlmişdir.

الأثمان

**وأما الأثمان فشيئان: الذهب والفضة. وشرائط وجوب الزكاة فيها خمسة أشياء: الإسلام والحرية والملك التام والنصاب والحول**

***Pulun zəkatı***

*Pulda zəkat iki şeyə düşər:*

1. *Qızıl,*
2. *Gümüş.*[245]

*Pulda zəkatın vacib olmasının şərtləri beşdir:*

1. *Müsəlman olmaq,*
2. *Hürr (azad) olmaq,*
3. *Tam mülkiyyət,*
4. *Nisab (pulun miqdarının zəkatın vacib olacağı minimum həddə çatması),*
5. *Bir ilin keçməsi.*

---

[245] Qızıl və gümüşdə zəkatın fərz olduğuna dair dəlil, Qurani Kərimin bu ayətidir: "Qızıl-gümüş yığıb onları Allah yolunda sərf etməyənləri ağrılı-acılı bir əzabla müjdələ." (Tövbə: 34)

Müslim (987), Əbu Hureyrə (r.a)-dan, Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Elə bir qızıl və gümüş sahibi yoxdur ki, onun (malının) haqqını vermədikdə, qiyamət günü onlar onun üçün oddan lövhələrə cevrilib və cəhənnəm odunda qızardılaraq sahibinin yanı, alnı və kürəyi damğalanmasın. Bu lövhələr hər dəfə soyuduqda miqdarı bir günü əlli min il olan, insanlar arasında hökm verilən günə kimi sahibinə əzab üçün yenidən əvvəlki halına qaytarılar. Sonra nəhayət ona gedəcəyi Cənnət ya da Cəhənnəm yolu göstərilər."

الزروع

**وهو: "خمسة "وأما الزروع فتجب الزكاة فيها بثلاثة شرائط: أن يكون مما يزرعه الآدميون. وأن يكون قوتا مدخرا. وأن يكون نصابا أوسق لا قشر عليها**

***Əkin məhsullarının zəkatı***

*Əkin məhsullarında zəkat üç şərtlə vacibdir:*

1. *İnsan tərəfindən əkilmiş olması,*
2. *Qida olaraq (buğda, arpa, noxud və bunlar kimi anbarda) saxlanıla bilən (yeyəcək) maddələrdən olması,*[246]
3. *Nisaba çatması. Yəni, qabıqsız olaraq beş vəsq olması.*[247]

الثمار

**وأما الثمار فتجب الزكاة في شيئين منها: ثمرة النخل. وثمرة الكرم. وشرائط وجوب الزكاة فيها أربعة أشياء: الإسلام والحرية والملك التام والنصاب**

***Meyvələrin zəkatı***

*Meyvələrdən sadəcə iki şeydə zəkat vacibdir:*

1. *Üzüm,*
2. *Xurma.*[248]

*Meyvədə zəkatın vacib olmasının şərtləri dörtdür:*

1. *Müsəlman olmaq,*
2. *Hürr (azad) olmaq,*
3. *Tam mülkiyyət,*
4. *Nisab (miqdarına çatması).*

---

[246] Yəni, pozulmadan saxlanılması mümkün olmalıdır. Qida, şəhər xalqının yemək olaraq ən çox istəfadə etdiyi şeydir. Qidadan məqsəd, buğda, arpa, noxud və bunun kimi şeylərdir.

[247] Dəlili ilə bərabər açıqlaması öz fəslində gələcək.

[248] Əbu Davud (1603) və Tirmizi (644) Attab bin Useyd (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v); bizi, üzüm haqqında "xurmada olduğu kimi" təqdir (qiymətləndirmək) etməklə əmr etdi. Beləcə üzüm təqdir ediləcək və zəkatı quru üzüm olaraq alınacaq; eyniylə quru xurmada olduğu kimi."

**عروض التجارة**

**وأما عروض التجارة فتجب الزكاة فيها بالشرائط المذكورة في الأثمان**

***Ticarət mallarının zəkatı***

*Ticarət mallarında zəkat, pulun zəkatında keçən şərtlərlə vacib olur.*[249]

**زكاة الإبل**

**وأول نصاب الإبل خمسة وفيها شاة وفي عشر شاتان وفي خمسة عشر ثلاث شياه وفي عشرين أربع شياه وفي خمس وعشرين بنت مخاض وفي ست وثلاثين بنت لبون وفي ست وأربعين حقة وفي إحدى وستين جذعة وفي ست وسبعين بنتا لبون وفي إحدى وتسعين حقتان وفي مائة وإحدى وعشرين ثلاث بنات لبون ثم في كل أربعين بنت لبون وفي كل خمسين حقة**

***Dəvələrin zəkatı***

*Dəvələrin ilk nisabı beşdir. Beş dəfə üçün bir qoyun verilir. On dəvə üçün iki qoyun, on beş dəvə üçün üç qoyun, iyirmi dəvə üçün dörd qoyun, iyirmi beş dəvə üçün bir ilini tamamlayıb ikinci ilə keçmiş bir dişi dəvə, otuz altı dəvə üçün iki ilini tamamlamış bir dişi dəvə, qırx altı dəvə üçün üç yaşını tamamlamış bir dişi dəvə, altımış bir dəvə üçün dörd ilini tamamlamış bir dişi dəvə, yetmiş altı dəvə üçün iki ilini tamamlamış iki dişi dəvə, doxsan bir dəvə üçün üç ilini tamamlamış iki dişi dəvə, yüz iyirmi bir dəvə üçün iki ilini tamamlamış üç dişi dəvə verilir.*

*Bundan sonra artan hər qırx dəvə üçün iki ilini tamamlamış bir dişi dəvə və artan hər əlli dəvə üçün isə üç yaşını tamamlamış bir dişi dəvə hesablanaraq zəkat çıxarılır.*[250]

---

[249] Ticarət mallarında zəkatın vacib olduğuna dair dəlil, Qurani Kərimin bu ayətidir: "Ey iman gətirənlər! Qazandığınız şeylərin yaxşısından Allah yolunda xərcləyin." (Bəqərə: 267) Mücahid, bu ayətin ticarət haqqında nazil olduğunu demişdir. Nəsəfi`də təfsirində, "bu ayətdə ticarət mallarında zəkatın vacib olduğunu" demişdir.

Əbu Davud (1562), Samura bin Cundub (r.a)-dan bunu rəvayət edir: "Rasulullah (s.a.v), satmaq üçün hazırladığımız şeylərdən zəkat çıxarmağımızı əmr edərdi."

[250] Hz. Əbu Bəkrin (r.a) məktubunda belə keçir: "Dəvələrin sayı: 1-24-ə qədər olarsa, hər beş dəvə üçün bir qoyun, 25-35-ə qədər olarsa, birillik bir dişi dəvə, 36-45-ə qədər olarsa, ikiillik bir dişi dəvə, 46-60-a qədər olarsa, cütləşmək həddinə çatmış üçillik bir dişi dəvə, 61-75-ə qədər olarsa, dördillik bir dişi dəvə, 76-90-a qədər olarsa, bir cüt ikiillik dişi dəvə, 91-120-ə qədər olarsa, cütləşmək həddinə çatmış bir cüt üçillik dişi dəvə, 120 dəvədən yuxarı olarsa, hər qırx dəvə üçün ikiillik bir dişi dəvə, hər əlli dəvə üçün üçillik bir dişi dəvə zəkat verilməlidir.

Cəmi dörd dəvəsi olan kimsəyə zəkat vermək vacib deyil. Lakin sahibi istəsə, (bir qoyun) verə bilər. Dəvələrinin sayı beşə çatdıqda isə bir qoyun verməlidir."

**زكاة البقر**

**وأول نصاب البقر ثلاثون وفيها تبيع وفي أربعين مسنة وعلى هذا أبدا فقس**

***İnəklərin zəkatı***

*İnəklərin ilk nisabı otuzdur. Otuz inək üçün iki yaşlı erkək buzov, qırx inək üçün 3 yaşlı bir dana verilir. Bu minval üzrə qiyas edilərək zəkat çıxarılır.*[251]

**زكاة الغنم**

**وأول نصاب الغنم أربعون وفيها شاة جذعة من الضأن أو ثنية من المعز وفي مائة وإحدى وعشرين شاتان وفي مائتين وواحدة ثلاث شياه وفي أربعمائة أربع شياه ثم في كل مائة شاة**

***Qoyun (və keçilərin) zəkatı***

*Qoyun (və keçilərin) zəkatının ilk nisabı qırxdır. Qırx qoyun (və ya qırx keçi) üçün bir ilini tamamlayan bir qoyun (və ya iki ilini tamamlayan bir keçi) verilir. Yüz iyirmi bir qoyun üçün iki qoyun, iki yüz bir qoyun üçün üç qoyun, dörd yüz qiyun üçün dörd qoyun verilir. Bundan sonra hər yüz qoyun üçün bir qoyun verilir.*[252]

---

[251] Tirmizi (623), Əbu Davud (1576) və başqası, Muaz bin Cəbəl (r.a)-dan rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) məni Yəmənə tərəf göndərəndə əmr etdi ki, zəkat olaraq hər otuz inəkdən illik bir erkək və ya dişi inək, hər qırx inəkdən isə bir ədəd iki yaşlı dişi inək götürsün. Həddi-büluğa çatmış hər kişidən bir dinar və ya onun dəyərində məafir alınsın. Məafir Yəməndə olan paltar növüdür."

[252] Bu xüsusda Hz. Əbu Bəkrin (r.a) məktubunda belə keçir: "Qoyunların zəkatı: Otlaqda otarılmış qoyunların sayı 40-120-ə qədər olarsa, bir qoyun, 121-200-ə qədər olarsa, iki qoyun, 201-300-ə qədər olarsa, üç qoyun, 300 qoyundan yuxarı olarsa, hər yüz qoyun üçün bir qoyun zəkat veril-məlidir. Əgər adamın otlaqda otarılan qoyunların sayı qırxdan azdırsa, (bu sayın tam olması üçün) bircə qoyun belə çatmırsa, onda o kimsəyə zəkat vermək vacib deyil. Lakin sahibi istəsə, (bunun üçün də zəkat) verə bilər.

**زكاة الخليطان**

**والخليطان يزكيان زكاة الواحد بسبع شرائط: إذا كان المراح واحدا والمسرح واحدا والمرعى واحدا والفحل واحدا والمشرب واحدا والحالب واحدا وموضع الحلب واحدا**

***Ortaq malın zəkatı***

*Heyvanlarını bir birinə qarışdıran iki adam yeddi şərtlə bir adamın malı kimi zəkat verərlər:*[253]

1. *Heyvanların gecə toplandığı yerin bir olması,*
2. *Heyvanların (otlaq sahəsinə sürülməsi üçün) toplandığı yerin bir olması,*
3. *Heyvanların otlaqlarının bir olması,*
4. *Damazlıqlarının bir olması*
5. *Heyvanların su içdikləri yerin bir olmas,*
6. *Südü sağanın bir olması,*
7. *Sağım yerlərinin bir olması.*

**زكاة الذهب والفضة**

**ونصاب الذهب عشرون مثقالا وفيه ربع العشر وهو نصف مثقال وفيما زاد بحسابه ونصاب الورق مائتا درهم وفيه ربع العشر وهو خمسة دراهم وفيما زاد بحسابه ولا تجب في الحلي المباح زكاة**

***Qızıl və Gümüşün zəkatı***

*Qızılın nisabı iyirmi misqaldır. Zəkatı, iyirmi misqalda (qırxda biri olan) onda birin dörtdə biridir. Bu da yarım misqaldır. Daha sonra iyirmi misqalı nə qədər aşarsa, ona görə hesablanaraq zəkat çıxarılır.*[254]

*Gümüşün nisabı isə, iki yüz dirhəmdir. Zəkatı, iki yüz dirhəmdə onda birin dörtdə biridir. Bu da (qırxda bir) beş dirhəmdir. Daha sonra iki yüz dirhəmdən nə qədər çox olarsa ona görə hesablanır.*[255]

*Mübah olan zinət əşyalarında zəkat vacib olmaz.*[256]

---

[253] Bir malda ortaq olanlar, eyniylə birisininmiş kimi zəkat verərlər; Təbii ki, Hz. Əbu Bəkrin (r.a) məktubunda qeyd olunan şərtlər mövcud olduğu zaman: "Zəkət verməmək üçün cəm olunmuş malı ayırmaq, ayrı-ayrı olan malı da cəm etmək olmaz. Şərikli maldan zəkat verildiyi zaman şəriklər (qoyduqları mala) müvafiq miqdarda zəkat verməlidir."

Yəni: Hər bir adamın malı, başqasının malından ayrı isə, zakat vacib olsun deyə malları birləşdirilməz. Əgər malları ortaqdırsa, zəkat vacib olmasın deyə bir birindən ayrılmaz. Çünki bu zaman mal nisabın altına düşər. Ortaq olan maldan zəkat alındığı zaman, hər ortaq, sahib olduğu miqdarda zəkat (çıxarını) qarşılamış olar.

[254] Çünki Əbu Davud (1573) və başqası, Hz. Əli (r.a)-dan, o da Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu: "Qızılın, iyirmi dinar oluncaya qədər sənə (zəkatdan) heç bir şey yoxdur. Sənin iyirmi dinarın olduqda və üzərindən bir il keçdikdən sonra ondan yarım dinar (qırxda bir) zəkat verməyin vacibdir. Bundan artıq olanı da bu cür hesablanır." Hədisdə ki dinar misqal mənasındadır.

[255] Hz. Əbu Bəkrin (r.a) məktubunda, "Gümüşdə qırxda bir hissəsi zəkat verilməlidir" deyilir. Ayrıca Buxari (1413) və Müslimdə (980) keçən hədisi çərifdə belə buyurulur: "Gümüşdən beş övqiyədən azında zəkat yoxdur." Bir övqiyə qırx dirhəm olduğuna görə iki yüz dirhəm edər. Beləcə gümüşün nisabı iki yüz dirhəm edir.

[256] Beyhaqi (4/138) və başqası, Cabir (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Zinət əşyalarında zəkat yoxdur."

**زكاة الزروع والثمار**

**ونصاب الزروع والثمار خمسة أوسق وهي: ألف وستمائة رطل بالعراقي وفيما زاد بحسابه وفيها إن سقيت بماء السماء أو السيح العشر وإن سقيت بدولاب أو نضح نصف العشر**

***Əkin məhsulları və meyvələrin zəkatı***

*Əkin və meyvələrin nisabı beş vəsqdir.*[257] *Beş vəsq, İraq ölçüsü ilə 1.600 litrdir.*[258] *Nisabdan çox olan miqdar hesaba alınaraq zəkat çıxarılır. Əkin və meyvələr səma və ya çay suyu ilə sulanırsa, bunların nisabı onda birdir. Əgər (məsrəfli) vasitələr ilə və ya quyu və ya bənzəri yerlərdə su çəkilərək sulanmışsa, bunların nisabı onda birin yarısı`dır.*[259]

**زكاة عروض التجارة**

**وتقوم عروض التجارة عند آخر الحول بما اشتريت به ويخرج من ذلك ربع العشر وما استخرج من معادن الذهب والفضة يخرج منه ربع العشر في الحال وما يوجد من الركاز ففيه الخمس**

***Ticarət mallarının zəkatı***

*Ticarət malı, ilin sonunda alındığı pul ilə dəyərləndirilir və qırxda biri zəkat olaraq çıxarılır.*[260]

*Qızıl və gümüş mədənlərindən əldə olunan maldan ilin keçməsini gözləmədən qırxda biri zəkat olaraq çıxarılır. Tapılan dəfinədən isə, beşdə biri zəkat olaraq çıxarılır.*[261]

---

[257] Buxari (1340) və Müslim`in (979), Rəvayətinə görə Peyğəmbər (s.a.v) belə buyurmuşdur: “Beş vəsəq`dən az olan məhsullarda zəkat yoxdur.” Müslim`də (979), “dənli bitkilər və xurma beş vəsəq olmayınca onda zəkat yoxdur” şəklində keçir.

[258] Təqribən 715 kq edər.

[259] Buxari (1412) ibn Ömər (r.a)-dan, o da Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu: “Yağmurla, bulaq suyu ilə sulanmış və ya dibinə su tökülmədən kökündən su içən (bitkilərdən yığılan) məhsulun onda biri (zəkat verilməlidir). Süni yolla suvarılan (ərazilərdən götürülmüş) məhsulun isə onda birinin yarısı (zəkat verilməlidir).”

Müslim (981), Cabir (r.a)-dan bunu rəvayət edir: “Peyğəmbərin (s.a.v) belə buyurduğunu eşitdim: “çay və bulud suyu ilə suvarılmış məhsullarda onda bir, heyvanla suvarılan məhsullardan onda birin yarısı qədər zəkat çıxarılır.”

Meyvələrin zəkatı, üzüm quru üzüm halına, yaş xurma da quru xurma halına gəldikdən sonra çıxarılır. Əkin məhsullarının zəkatı isə təhsil olunduğu zaman verilir. Çünki Quranı kərimdə belə buyurulur: “... Yığım günü haqqını (zəkatını) verin.” (Ənam; 141)

[260] Əgər qızıl ilə alınmışsa, qızıl ilə dəyərləndirilir, gümüş ilə alınmışsa, gümüş ilə dəyərləndirilir. Şayət ticarət malı pul ilə deyil də başqa bir mal qarşılığında alınmışsa yenə də pul ilə dəyərləndirilir.

[261] Buxari(1428) və Müslim (1710), Əbu Hureyrə (r.a)-dan, O da Peyğəmbər (s.a.v)-dən rəvayət etdiyinə görə belə buyurdu: “Dəfinədə beşdə bir zəkat vardır.” Dəfinə: qızıl və ya gümüş olsun, cahiliyyə dönəmində basdırılan xəzinədən çıxarılan şeydir. Tapılır tapılmaz bir ilin keçməsini gözləmədən beşdə biri zəkat olaraq çıxarılır.

**زكاة الفطر**

**وتجب زكاة الفطر بثلاثة أشياء: الإسلام وبغروب الشمس من آخر يوم من شهر رمضان ووجود الفضل عن قوته وقوت عياله في ذلك اليوم. ويزكي عن نفسه وعمن تلزمه نفقته من المسلمين صاعا من قوت بلده وقدره خمسة أرطال وثلث بالعراقي**

***Fitrə Sədəqəsi***

*Fitrə sədəqəsi üç şeylə vacib olur:*

1. *Müsəlman olması,*
2. *Ramazan ayının son günündə günəşin batması,*
3. *O günü, özünün və ailəsinin nəfəqəsindən çox mala sahib olması.*

*Adam, özünün və müsəlmanlardan baxmaqla yükümlü olduğu kimsələrin adından şəhər xalqının qida olaraq (ən çox) istifadə şeydən 1 sa Fitrə sədəqəsi verər.*[262]

*Bir sa`, İraq litrəsiylə beş tam üçdə bir (5. 1/3) litrədir.*[263]

---

[262] Buxari (1433) və Müslimin (984) İbn Ömər (r.a)-dan rəvayət etdiyinə görə: "Rasulullah (s.a.v), Ramazanın fitrə zakatını 1 sa xurma və ya 1 sa arpaq olmaqla Müsəlmanlarda hər azad, qul, qadın və kişiyə fərz buyurmuşdur." Buxarinin (1432) rəvayətində, "İnsanların namaza çıxmasında öncə əda olunmasını əmr etdi" şəklində keçir.

Buxari (1439), Əbu Səid əl-Xudri (r.a) rəvayət etdiyinə görə belə buyurdu: "Biz Peyğəmbər (s.a.v)-in dövründə fitrəni yeyinti məhsullarından 1 sa olaraq verərdik. O vaxt bizim yediyimiz arpa, quru üzüm, yağı alınmış pendir və xurma idi."

[263] Təqribən 2,400 kq edər.

**مصارف الزكاة**

**وتدفع الزكاة إلى الأصناف الثمانية الذين ذكرهم الله تعالى في كتابه العزيز في قوله تعالى: (إنما الصدقات للفقراء والمساكين والعاملين عليها والمؤلفة قلوبهم وفي الرقاب والغارمين وفي سبيل الله وابن السبيل) وإلى من يوجد منهم ولا يقتصر على أقل من ثلاثة من كل صنف إلا العامل**

***Zəkat verilən yerlər***

*Zəkat, Allahu Təalanın Əziz Kitabının bu ayətində zikr etdiyi səkkiz sinifə verilir: "Zəkatlar Allah tərəfindən bir fərz olaraq yalnız yoxsullara, miskinlərə, onu yığıb paylayanlara, qəlbləri İslam dininə isinişdiriləcək kimsələrə, kölələrin azad olunmasına, borclulara, Allah yolunda cihad edənlərə və müsafirlərə məxsusdur."[264] (Tövbə; 60)*

*Zəkat, bu səkkiz sinifdən mövcud olanlara verilir. Zəkat bu səkkiz sinifin hər sinifindən ən azı üç kimsəyə verilir. Ancaq amil (zəkatı yığıb paylayan) xaric. (Yəni: bir tək amilə də verilə bilər)*

---

[264] **YOXSULLAR** ; ehtiyaclarını qarşılaya biləcək dərəcədə varlığa sahib olmayan kimsələrdir. Məs: on ehtiyacından ikisini ve ya heç birini qarşılaya bilməyən kimsə kimi.

**MİSKİNLƏR** ; Kafi gələcək dərəcədə varlığa sahib olmayanlardır. Məs: on ehtiyacından yalnız səkkizini qarşılaya bilən kimsə kimi.

**AMİLLƏR** (Zəkatı yığıb paylayanlar) ; imamın, zəkatı toplamaq və onları lazımi şəxslərə paylamaq üçün vəzifələndirdiyi kimsələrdir.

**MÜƏLLƏFEYİ-QULUB** ; Yəni, müsəlman olub hələ qəlbi İslama yetərincə isinməmiş kimsələr.

**KÖLƏLƏR** ; müəyyən bir miqdar qarşılığında azadlığına qovuşacaq kölə və ya əsir.

**BORCLULAR** ; borclarını ödəyə biləcək miqdarda mal və imkanı olmayanlar.

**ALLAH YOLUNDA OLANLAR** ; İslamı qorumaq üçün , Beytul-maldan əvəz (maaş) almadan Allah yolunda cıhad edən kimsələr.

**YOLÇULAR (yolda qalanlar)** ; məmləkətinə dönmək istəyən müsafirdir. Ancaq onu məqsədinə çatdıracaq xərcliyi yoxdur.

**من لا يصرف اليهم الزكاة**

**وخمسة لا يجوز دفعها إليهم: الغني بمال أو كسب والعبد وبنو هاشم وبنو المطلب والكافر ومن تلزم المزكي نفقته لا يدفعها إليهم باسم الفقراء والمساكين**

## Zəkat verilməyən kəslər

Beş kimsəyə zəkat vermək caiz deyildir:

1. (Malı və ya qazanma gücü ilə) varlı olanlara,[265]
2. Kölələrə,
3. Haşim və Müttəlib oğullarına,[266]
4. Kafirə,[267]
5. Nəfəqəsi vacib olanlara. Yəni: Zəkatı çıxaran mükəlləf, baxmaqla məsul olduğu şəxslərə yoxsulluq və ya miskinlik adı altında zəkat verə bilməz.[268]

---

[265] Çünki Peyğəmbər (s.a.v) belə buyurur: “Varlıya və işləyib qazanma gücünə sahib olanlara sədəqə (zəkat) halal deyildir. Bunu, Tirmiz (652) və Əbu Davud (1634) rəvayət edir.

[266] Çünki, Peyğəmbər (s.a.v) belə buyurur: “Bu sədəqələr, İnsanların kiridir, Muhamməd (s.a.v) və Muhammədin ailəsinə halal olmaz.” (Müslim: 1072)

Buxari (1420) və Müslim (1069), Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: “Hz. Əli`nin (r.a) oğlu Həsən (r.a), sədəqə xurmalarından bir dənəsi alıb ağzına qoydu. Bu arada Peyğəmbər (s.a.v) xurmanı atsın deyə uşağa “kıx-kıx” dedi və belə buyurdu: bizim sədəqə yediyimizi bilmirsənmi ?”

Hədisdə Keçən “Muhammədin ailəsinə”-dən məqsəd, Haşim və Müttəlib oğullarıdır. Bunlara zakatın haram olmasına qarşılıq xumus`un beşdə biri verilir. Cihad kitabında bu mövzu gələk.

[267] Çünki Peyğəmbər (s.a.v), Hz.Muaza (r.a) belə dedi: “Onlara, Allahu Təalanın onların varlılarından götürülərək kasıblara verilən bir sədəqə (zəkat) fərz buyurduğunu xəbər ver.” Yəni, müsəlman olan varlılar və kasıblar. Müsəlman olmayan varlılardan zəkat alınmadığı gibi, Müsəlman olmayan kasıblara da verilməz.

[268] Yəni, onlar yoxsul və miskin olsalar belə zəkat veilməz. Çünki bunların nəfəqəsi, zəkatı verənə aid olduğu üçün zəkata ehtiyacları qalmaz. Bu iki vəsfin xaricində qalan vəsflərlə onlara zəkat verilə bilər. Məs: borcluluq kimi...

Nikah bölümündə nəfəqələr fəslində nəfəqəsi vacib olan kimsələrə bax.

# كتاب الصيام

# Oruc bölümü

**شروط وجوب الصيام**

**وشرائط وجوب الصيام أربعة أشياء: الإسلام والبلوغ والعقل والقدرة على الصوم**

***Orucun fərz olmasının şərtləri***

*Orucun vacib olmasının şərtləri üçdür:*[269]

1. *Müsəlman olmaq,*
2. *Ağıllı və həddi-büluğ yaşına çatmaq,*
3. *Oruc tutmağa gücünün çatması.*[270]

---

[269] Orucun mütləq olaraq fərz olduğuna dəlil, Qurani Kərimin bu ayətidir: "Ey iman edənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə fərz edildiyi kimi, sizədə fərz edildi ki, (bunun vasitəsi ilə) siz pis əməllərdən çəkinəsiniz!" (Bəqərə:185)

Xüsusi ilə Ramazan orucunun fərz olduğu dəlil, Qurani Kərimin bu ayətidir: "İnsanlara doğru yolu göstərən, bu yolun və haqqı batildən ayırd edənin açıq-aydın dəlilləri olan Quran ramazan ayında nazil edilmişdir. Sizlərdən bu aya çatan şəxslər həmin ayı oruc tutmalıdırlar." (Bəqərə: 185)

Hədislərdən də dəlil, Buxari (1792) və Müslimin (11) rəvayət etdiyi bu hədis (göstərilə bilər): "Bir bədəvi, (Peyğəmbərə (s.a.v)) "Allahın mənə orucdan nəyi fərz qıldığını bildir! Deyə sual verincə, Peyğəmbər (s.a.v), "Ramazan orucu" deyərək cavab verdi."

[270] Çünki Allahu Təala belə buyurur: "oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində bir yoxsulu doyuracaq qədər) fidyə verməlidirlər." (Bəqərə: 184)

Buxari (4275), Ata`dan (r.a), İbn Abbas`ın (r.a) mövzu ilə əlaqəli ayətdə ki "Yutiqunə" kəliməsini, "Yutavviqunəhu" şəklində oxuduğunu rəvayət edir. Eyni zamanda İbn Abbasın (r.a), "bu qiraətin mənsux olmadığını" demişdir. Bu qiraətə görə: Oruc tuta bilməyən yaşlı qadın və kişilərin hər bir günün yerinə bir fəqirə yedirmək üzərə fidyə verər."

فرائض الصيام

**وفرائض الصوم أربعة أشياء: النية والإمساك عن الأكل والشرب والجماع وتعمد القيء**

***Orucun fərzləri***

*Orucun fərzləri dörddür:*

1. *Niyyət etmək,*[271]
2. *Yemək və içməkdən,*
3. *Cinsi münasibətdən,*[272]
4. *Və qəsdən qusmaqdan uzaq durmaq.*[273]

مفطرات الصائم

**والذي يفطر به الصائم عشرة أشياء: ما وصل عمدا إلى الجوف والرأس والحقنة في أحد السبيلين والقيء عمدا والوطء عمدا والإنزال عن مباشرة والحيض والنفاس والجنون والردة**

***Orucu pozan şeylər***

*Orucu pozan şeylər ondur:*

*1,2) (Açıq bir mənfəzdən (dəlikdən)) İnsanın vücudunun iç qisminə hər hansı bir şeyin girməsi,*

*3) (Fitil və ya başqa bir şey ilə) ön və arxa yollardan dərma yeridilməsi,*

*4) Qəsdən qusmaq,*

*5) Bilərəkdən cinsi münasibətdə olmaq,*

*6) (Cinsi münasibətdə olmadan toxumaq və ya öpmək kimi səbəblərdən) məni`in çıxması,*

*7) (Oruc əsnasında) Heyz olmaq,*

*8) ... Nifas olmaq*

*9) ... Dəli olmaq,*

*10)  ... Dindən Çıxmaq.*[274]

---

[271] Hər günün orucu üçün fəcrdən (imsak vaxtından) öncə niyyət edilir. Çünki Darəqutni və başqasının rəvayətinə görə Peyğəmbər (s.a.v) buyurmuşdur: “Fəcrdən öncə niyyət etməyənə oruc yoxdur.”

[272] Çünki Qurani Kərimdə belə buyurulur: “Sübh açılınca, ağ sap (gündüzün aydınlığı) qara sapdan (gecənin zülmətindən) fərqlənincəyə qədər yeyib için: sonra gecəyə qədər orucunuzu tamamlayın; məscidlərdə ibadətdə (etikafda) olduğunuz zaman onlarla (qadınlarınızla) yaxınlıq etməyin.” (Bəqərə: 187)

[273] Əbu Davud (2380), Tirmizi (720) və başqası, Əbu Hureyrə (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: “Oruclu qeyri-ixtiyari qusarsa qəza lazım deyil. Öz istəyi ilə qusarsa orucunu qəza etsin.”

[274] Çünki bu şeylər, özündə daşıyan kimsəni ibadət etmə əhliyyətindən çıxarar.

ما يستحب للصائم

ويستحب في الصوم ثلاثة أشياء: تعجيل الفطر وتأخير السحور وترك الهجر من الكلام

***Oruclu üçün müstəhəb olan şeylər***

*Oruc xüsusunda üç şey müstəhəbdir:*

1. *(vaxtı girdikdən sonra) iftar etməyə tələsmək,*[275]
2. *(İmsak vaxtının keçməməsi şərti ilə) sahur yeməyini gecikdirmək,*[276]
3. *Çirkin kəlamları tərk etmək (dilini qorumaq).*[277]

---

[275] Buxari (1856) və Müslim (1098) Səhl bin Səddən (r.a) rəvayət etdiyinə görə Rasulullah (s.a.v) belə buyurdu: "İnsanlar iftarda tələsdikləri müddətcə xeyir üzərindədirlər."

Fəzilətli olan, orucun su və ya xurma ilə açılması, sonra axşam namazının qılınması və yeməyin yeyilməsidir.

İbni-Hibban, səhih bir isnadla rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) oruclu olduğu zaman, təzə xurma və ya su gətirilib iftar iftar etmədiyi müddətcə namaz qılmazdı. Qış olduğu zaman, yenə quru xurma və ya su gətirilib iftar etmədiyi müddətcə namaz qılmazdı."

[276] İmam Əhməd, Müsnədində Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Ümmətim iftarı tez edib sahuru gecikdirdiyi müddətcə xeyir üzərindədirlər."

İbni-Hibban bunu rəvayət edir: "Sahuru gecikdirmək Peyğəmbərlərin sünnətindəndir."

Sahur yeməyini gecikdirilməsi bu şəkildə olur; Fəcrin doğmasından (imsakdan) az öncə yeməyi və içməyi bitirmək.

Buxari (556), İbni-Malikdən (r.a) rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) Zeyd b. Sabit ilə bərabər sahur yeməyini yedilər. (yeməkdən) sonra Peyğəmbər (s.a.v) namaza qalxdı və namaz qıldı. Biz Ənəs`ə (r.a) dedik ki; yeməkdən ayrılmaları ilə namaza başlamaları arasında nə qədər zaman keçdi ? O, "adamın əlli ayət oxuyacağı qədər" deyə cavab verdi."

[277] Yəni, Söymək, qeybət etmək və bunun kimi çirkin və batil sözlərdən. Buxari (1804), Əbu Hureyrə`dən (r.a), Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Kim batil (sözlər) danışmaqdan və onunla əməl etməkdən əl çəkməsə, yeməyini və içməyini tərk etməsinə Allahın ehtiyacı yoxdur." Yəni: hər nə qədər fərz yerinə gəlmiş olsada, orucdan ötürü savab qazanmaz.

**ما نهي من صومه**

**ويحرم صيام خمسة أيام: العيدان وأيام التشريق الثلاثة**

***Oruc tutulması haram olan günlər***

*Beş gündə oruc tutmaq haramdır:*

1. *Ramazan və Qurban bayramları günləri,*[278]
2. *(Qurban bayramı günündən sonra ki) üç təşriq günləri.*[279]

**ما يكره من صومه**

**ويكره صوم يوم الشك إلا أن يوافق عادة له**

***Oruc tutulması məkruh olan günlər***

*Şəkk günündə oruc tutmaq məkruhdur. Ancaq adət etdiyi günə rast gələrsə məkruh olmaz.*[280]

---

[278] Müslim (1138), Əbu Hureyrədən (r.a) rəvayət etdiyinə görə: "Allah Rasulu (s.a.v), - qurban bayramı və ramazan bayramı günləri olmaqla - iki gündə oruc tutmağı qadağan etmişdir." Buxari də (1890), bunu Əbu Səid əl-Xudri`dən (r.a) rəvayət etmişdir.

[279] Müslim (1142), Kə`b bin Malikdən (r.a) rəvayət etdiyinə görə: "Allah Rəsulu (s.a.v) onu və Əvs bin Hadsəni təşriq günlərində (elan etmək üçün)göndərdi və belə nida etdilər: "Cənnətə ancaq iman gətirənlər girər; (və bilinsin ki) mina günləri, yemək və içmək günləridir."

Əbu Davud (2418), Amr bin Asdan (r.a) rəvayət etdiyinə görə belə buyurdu: "Bu həmin o günlərdir ki, Allah Rəsulu (s.a.v) bu günlərdə orucumuzu açmağı əmr edər və oruc tutmağı qadağan edərdi. Malik, "o günlər təşriq günləridir." demişdir.

[280] Şəkk günü, Şaban ayının otuzuncu günüdür. İnsanların, "görəsən Şaban ayındanmı və ya Ramazan ayındanmı?" deyə şübhə etdikləri gün. Şafei məzhəbinin mötəməd görüşünə görə: bu günün orucu haramdır və səhih deyildir. Çünki Əbu Davud (2334) və Tirmizi (686), Ammar bin Yasirdən (r.a) Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edirlər: "İnsanların şəkk (şübhə) etdiyi gündə oruc tutan kimsə, Əbul-Qasım`a (s.a.v) asi olmuşdur."

Mətində "şəkk gününün orucu məkruhdur" deyildi. Bu ifadə "təhrimən məkruh"-a yorumlanmışdır ki, belə məzhəbin mötəməd görüşünə uyğun düşür.

Şaban ayının ikinci yarısında da oruc tutmaq haramdır. Çünki, Əbu Davud`un (2337) Əbu Hureyrə`dən (r.a) rəvayət etdiyi və Tirmizinin (738) səhih gördüyü hədisə görə Allah Rasulu (s.a.v) belə buyurur: "Şaban ayı yarı olduğu zaman oruc tutmayın." İbni-Macə`nin rəvayətində isə; "Şaban ayı yarı olduğu zaman, Ramazan gəlincəyə qədər oruc tutmayın." şəklindədir.

Birinin adəti, şəkk gününə və ya şabanın ikinci yarısına rast gələrsə və ya orucunu Şabanın ikinci yarısında ki orucdan öncəki oruca birləşdirərsə, bu günlərdə oruc tutmaq haram olmaz.

Buxari (1815) və Müslim (1082), Əbu Hureyrə (r.a)-dan Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Ramazan ayını bir və ya iki gün əvvəldən orucla qarşılamayın. Ancaq kim ki, adəti üzrə bu günləri oruclu keçirirsə o tutsun."

**كفّرة الافطار و من يجوز له**

**ومن وطئ في نهار رمضان عامدا في الفرج فعليه القضاء والكفارة وهي: عتق رقبة مؤمنة فإن لم يجد فصيام شهرين متتابعين فإن لم يستطع فإطعام ستين مسكينا لكل مسكين مد**

***Oruclu halda cinsi münasibətdə olmaq***

*Ramazan ayının gündüzündə bilərək cinsi əlaqədə olan kimsənin, o günü qəza etməklə bərabər kəffarə də verməsi lazımdır. Veriləcək kəffarə, müsəlman bir kölə azad etməkdir. Əgər bunu tapmazsa, iki ay ard-arda oruc tutar. Buna da gücü çatmazsa, altımış miskini yedirər. Hər miskinə bir müd verilir.*[281]

**قظاء الصوم عن الميّة**

**ومن مات وعليه صيام من رمضان أطعم عنه لكل يوم مد**

***Ölünün yerinə orucun qəza edilməsi***

*Üzərində Ramazan orucu qaldığı halda ölən kimsənin, qəzaya qalan hər bir gün üçün bir müd (qida maddəsi) verilir.*[282]

---

281 Buxari (1834), Müslim (1111) və başqası, Əbu Hureyrə (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Biz Peyğəmbərin (s.a.v) yanında oturmuşduq. Birdən bir nəfər gəlib dedi: "Ya Rəsulullah, həlak oldum." Peyğəmbər (s.a.v) soruşdu: "Nə olub sənə?" Dedi: "(Ramazanda) oruclu ikən zövcəmlə cinsi əlaqəyə girmişəm." (Peyğəmbər (s.a.v)) soruşdu: "Kölə azad edə bilərsənmi?" O: "Xeyr!"– dedi. (Peyğəmbər (s.a.v)) soruşdu: "İki ay ardıcıl oruc tuta bilərsənmi?" O: "Xeyr!"– dedi. (Peyğəmbər (s.a.v)) soruşdu: "Altmış kasıbı yedirdə bilərsənmi?" O: "Xeyr!"– dedi. Bundan sonra Peyğəmbər (s.a.v) bir qədər durdu. Bu əsnada Peyğəmbərə (s.a.v) bir zənbil xurma gətirdilər. (Peyğəmbər (s.a.v)) soruşdu: "Sual verən adam haradadır?" Adam: "Mən (buradayam)"– dedi. (Peyğəmbər (s.a.v) zənbili ona tərəf uzadıb) buyurdu: "Götür bunu, (öz adından) sədəqə ver!" Adam dedi: "Məndən də kasıb olanamı sədəqə verim, ya Rəsulullah? Vallahi, Mədinənin bu iki daş-kəsəkli sahəsi arasında mənim ailəmdən daha kasıb ailə yoxdur." Peyğəmbər (s.a.v) dişləri görünənədək güldü, sonra dedi: "Elə isə bunu ailənə yedirt!"

Altımış kasıbı yedirə biləcək kasıbın, bu hədisi dəlil göstərərək verəcəyi kəffarəni və ya buna bənzər kəffarələri öz ailəsinə sərf etməsi caiz deyildir. Çünki hədisdə zikir olunan, xüsusi bir hal olub sadəc o adama məxsusdur.

282 Kəffarə, şəhər xalqının qida olaraq ən çox yediyi şeydən çıxarılır. Məs: buğda kimi. Bir müd, boyu 9.2 $sm^3$ olan bir qaba uyğundur. Çəki olaraq 600 q. qida maddəsi ala bilən bir qabdır. Veriləcək kəffarə, eyni ilə borclar kimi ölünün mirasından çıxarılır. Əgər ölənin malı yoxdursa, onun yerinə çıxarıb vermək caizdir. Və ölünün zimməti qəzaya qalan orucdan qurtular.

Tirmizi (817), İbni-Ömər (r.a)-dan belə buyurdu: "Üzərində bir ayın orucu qaldığı halda ölən kimsənin yerinə hər bir gün üçün bir miskin yedirilsin."

Əbu Davud (2401), İbni-Abbas (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Bir adam Ramazan ayında oruc tutmadan xəstələnib ölərsə, onun (oruc tutmadığı günlərin) əvəzinə (kasıb) yedirilməlidir."

Ölünün yaxını və ya varisi ya da olünün izin verdiyi hər hansı biri, ölü yerinə oruc tutarsa, qida verməkdən daha yaxşıdır. Çünki, Buxari (1851) və Müslim`in (1147), Hz. Aişədən (r.a) rəvayət etdiklərinə görə Allah Rasulu (s.a.v) belə buyurur: "Üzərində oruc qaldığı halda ölən kimsəninin vəlisi (yaxını) onun yerinə oruc tutar."

Buxari (1852) və Müslim (1148), İbni-Abbas (r.a)-dan rəvayət etdiyinə görə belə buyurdu: "Bir nəfər Peyğəmbərin (s.a.v) yanına gəlib dedi: "Ya Rəsulullah, anam vəfat etmiş və boynunda bir ayın orucu qalmışdır. Mən onun yerinə bu orucu tuta bilərəmmi?". Peyğəmbər (s.a.v): "Bəli, (tuta bilərsən). Borcu ödənməyə ən çox haqqı olan Allahdır."

Bütün bunlar, bir üzr səbəbi ilə oruc tutmayıb ancaq qəza etmək imkanı olduğu halda onu tutmayan kimsələr haqqındadır. Bir üzr səbəbi ilə oruc tutmayıb eyni zamanda qəza etmək imkanı olmayan kimsə isə; Məs: üzr davam edərərk ölmüşsə və ya üzrü qalxıb da qəza edəcək qədər gün yaşamamışsa; onun yerinə nə qəza edilir, nə də fidyə verilir, nə də ona günah olmaz.

**صوم الشّيخ والحامل والمرضع والمريض والمسافر**

**والشيخ إن عجز عن الصوم يفطر ويطعم عن كل يوم مدا. والحامل والمرضع إن خافتا على أنفسهما: أفطرتا وعليهما القضاء وإن خافتا على أولادهما: أفطرتا وعليهما القضاء والكفارة عن كل يوم مد وهو رطل وثلث بالعراقي. والمريض والمسافر سفرا طويلا يفطران ويقضيان**

### *Yaşlı, hamilə, uşaq əmzikli, xəstə və yolçunun orucu*

*Çox yaşlı olan kişi və qadınlar, oruc tutmaqdan aciz olduqları zaman oruc tutmazlar. Ancaq tutmadıqları hər günün orucu üçün bir müd kəffarə verərlər.*

*Hamilə və uşaq əmizdirən qadınlar, öz canlarına bir zərər gəlməyindən qorxarlarsa, oruc tutmazlar. Ancaq tutmadıqları günlərin orucu qəza edərlər.*[283] *Şayət (öz canları üçün deyil də) uşağa bir zərər gəlməyindən qorxarlarsa, tutmadıqları günlərin orucunu qəza etməklə bərabər hər bir gün üçün 1 müd kəffarə verərlər.*[284] *1 müd Bağdad litrəsi ilə bir litr və üçdə bir (1.1/3) miqdardır.*

*Xəstə və uzun məsafə yolçuları, oruc tutmaya bilərlər. Daha sonra isə qəza edərlər.* [285]

---

[283] Tirmizi (715), Əbu-Davud (2408) və başqası, Ənəs bin Malik əl-Ka`bidən (r.a) Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edirlər: "Allahu Təala yolçudan orucu (başqa günlərə buraxmaqla) və namazın yarısını (qısaltmaqla) xəfiflətmişdir, hamilə və ya əmzikli qadınlardan da orucu (başqa günlərə buraxmaqla) xəfiflətmişdir."

[284] Əbu –Davud (2318), İbni-Abbasın (r.a) belə dediyini rəvayət edir: "(Taqəti olmayıb) Orucu çətinliklə tuta bilənlər (hər günün əvəzinə) bir yoxsulu doyuracaq qədər fidyə verməlidirlər" ayəti, yaşlı kişi və qadınlara bir rüxsətdir. Bunlara oruc tuta bildikləri halda, tutmama rüxsətini verir. Ancaq oruc yerinə hər bir gün üçün bir yoxsula fidyə vermələri lazımdır. Həmçinin hamilə və əmzikli qadınlar da uşaqları üçün qorxduqları təqdirdə oruc tutmayıb fidyə verərlər.

[285] Çünki Qurani Kərimdə belə buyurulur: "Sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar." (Bəqərə: 185) Yəni, Ramazan günlərində oruc tuta biləyəcək dərəcədə xəstə olan və ya səfərdə olan kimsələr, istəsələr oruc tutmaya bilərlər. Ancaq tutmadıqları günləri, üzr aradan qalxdıqdan sonra Ramazandan sonraki günlərdə tutsunlar.

**الاعتكاف**

**والاعتكاف سنة مستحبة وله شرطان: النية واللبث في المسجد. ولا يخرج من الاعتكاف المنذور إلا لحاجة الإنسان أو عذر من حيض أو مرض لا يمكن المقام معه ويبطل بالوطء**

***Etikaf***

*Etikaf (Məsciddə ibadət niyyəti ilə xüsusi bir şəkildə qalmaq) müstəhəb olan bir sünnətdir.*[286] *Etikafın iki şərti vardır:*

1. *Etikafa niyyət etmək,*
2. *Məsciddə durmaq.*

*Nəzir olunan etikafdan çıxılmaz. Ancaq təbii ehtiyaclar*[287] *və ya məsciddə durmağa imkan verməyən xəstəlik və ya heyz kimi üzrdən dolayı çıxa bilər.*

*Cinsi əlaqədə olmaqla Etikaf pozular.*[288]

---

[286] Buxari (1922) və Müslim (1172) Hz. Aişə (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) vəfat edincəyə qədər (hər) Ramazan ayının son on günü etikafda keçirərdi. Onun vəfatından sonra onun zövcələri Etikaf etməyə davam etdilər."

Buxari (1936), rəvayət etdiyi uzun bir hədisdə: "Peyğəmbər (s.a.v), Şəvval ayında on gün etikafa girdi."

[287] Buxari (1925) və Müslim (297), Hz. Aişədən (r.a) rəvayət etdiyinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) məsciddə (etikafda olarkən) başını mənim (hücrəmə) daxil edər və mən onun saçlarını darayardım. O, etikafda olduğu zaman bir ehtiyac olmadığı təqdirdə evə girməzdı."

[288] Çünki Qurani Kərimdə belə buyurulur: "Məscidlərdə ibadətdə (etikafda) olduğunuz zaman qadınlarınızla yaxınlıq etməyin." (Bəqərə: 187)

# كتاب الحج

# Hacc bölümü

**شروط وجوب الحج**

**وشرائط وجوب الحج سبعة أشياء: الإسلام والبلوغ والعقل والحرية ووجود الزاد والراحلة وتخلية الطريق وإمكان المسير**

***Haccın fərz olmasının şərtləri***

*Haccın fərz olmasının şərtləri 7 – dir:*[289]

1. *Müsəlman olmaq,*
2. *Həddi-büluğ çatmaq,*
3. *Ağıllı olmaq,*
4. *Azad olmaq,*
5. *Azuqə və miniyin olması,*[290]
6. *Yolun boş (əmniyyətli) olması,*
7. *Gediş (zaman) imkan.*[291]

[289] Haccın vacib olmasının dəlili, bu ayəti kərimədir: "Beytullaha getməyə gücü çatan hər kəsin o evi hacc etməsi, Allahın insanlar üzərində bir haqqıdır." (Ali İmran: 97)

Ayrıca dəlil olaraq hədisdən də Müslimin (1337), Əbu Hureyrədən (r.a) rəvayət etdiyi bu hədisi göstərə bilərik. Əbu Hureyrə (r.a) dedi ki: "Peyğəmbər (s.a.v) bizə xitab edərək belə buyurdu: " Ey insanlar! Allah sizə həcci fərz qıldı, elə isə haccı yerinə yetirin!" Həmçinin, Buxari və Müslimin rəvayət etdiyi: "İslam beş əsas üzərinə bina edilmişdir..."hədisi də dəlildir.

[290] Çünki ayətdə keçən "Səbil" (Hacca yol tapa bilən) kəliməsi, "Azuqə" və "Minək" ilə təfsir edilmişdir. Belə ki, Hakim (1/442), Ənəs (r.a)-dan, O da Peyğəmbər (s.a.v)-dən bunu rəvayət edir: "(Peyğəmbər (s.a.v)-dən "Səbil" kəliməsinin təfsiri soruşuldu. O da, "Azuqə və Minək" deyə cavab verdi."

[291] Yolun əziyyət verən şeylərdən (əngəllərdən) boş olması və adətən hacc edə biləcək qədər zamanın da qalması.

## أركان الحج

**وأركان الحج أربعة: الإحرام مع النية والوقوف بعرفة والطواف بالبيت والسعي بين الصفا والمروة**

### *Haccın rüknları*

*Haccın rüknları 5 – dir:*

1. *Niyyət edərək Ehrama girmək,*[292]
2. *Ərafatda vəqfə etmək,*[293]
3. *Beytullahı (Kəbəni) təvaf etmək,*[294]
4. *Səfa ilə Mərvə arasında səy etmək (7 dəfə gedib gəlmək),*[295]
5. *Təraş olmaq və ya saçları qısaltmaq (həlq və ya təqsir)*[296]

---

[292] Ehrama girmək; hər hansı bir şəxsin, həcc və ümrə etmək niyyətilə, digər vaxtlarda halal olan bəzi şeyləri özünə həcc və (ümrə müddətində) haram etməsidir.

[293] Çünki, Tirmizi (899), Əbu-Davud (1940) və başqası, Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: "Həcc ərafatdan ibarətdir. Kim toplanma (Müzdəlifə) gecəsi fəcrin doğuşunda öncə gəlib (Vəqfə edərsə), Həccə yetişmiş olar."

[294] Çünki Qurani Kərimdə belə buyurulur; "Və qədim evi (Kəbəni) təvaf etsinlər." (Həcc: 29) İcma ilə bu təvaf, "Təva-i İfəda" dir.

[295] Darəqutni (1/270) və başqasının, səhih bir isnadla rəvayət etdiyi xəbərə görə: "Peyğəmbər (s.a.v) səy ediləcək yerdə insanlar dönüb belə dedi: "Şübhəsiz Allah sizə səy`i fərz qıldı, səy edin!"

Buxari də (1565), İbni-Ömər (r.a)-dan bunu rəvayət edir: "Peyğəmbər (s.a.v) Məkkəyə gəldi. Bu arada Beyti (Kəbəni). Sonra iki rükət namaz qıldı. Sonra Səfa ilə Mərvə arasında səy etdi (7 dəfə gedib gəldi). Sonra İbni-Ömər (r.a) bu ayəti oxudu: "Şübhəsiz sizin üçün Rəsulullahda gözəl nümunə vardır." (Əhzab:21)

[296] Buxari (169) və Müslim (1305) və başqası, Ənəs bin Malikdən (r.a) rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) Minaya gəldi. Bu arada Cəmrəyə gəlib ona daş atdı. Sonra Minadaki yerinə gəldi və qurban kəsdi. Sonra bərbərə, (saçını göstərərək) "al" dedi. Bir rəvayətdə də, "(başının) öncə sağ sonra sol tərəfinə işarə edərək "qırx" dedi. Sonra saçını (orada olan) səhabələrə verdi."

Kişilər üçün təraş (həlq), qısaltmaqdan (təqsir) daha fəzilətlidir. Çünki Peyğəmbər (s.a.v) bu şəkildə etmişdir və belə buyurmuşdur: "Allahım, saçını qırxdıranlara rəhm et!" (Səhabələr): "Qısaldanlara da, ya Rəsulullah?" deyə soruşdular. Dedi: "Allahım, saçını qırxdıranlara rəhm et!" Onlar: "Qısaldanlara da, ya Rəsulullah?" deyə soruşdular. Dedi: "Qısaldanlara da (rəhm et)!" (Buxari: 1640, Müslim: 1301) Qadınlar üçün isə qısaltmaq (təqsir) daha fəzilətli, tıraş isə məkruhdur. Çünki Peyğəmbər (s.a.v) belə buyurur: "Qadınlar üçün təraş (həlq) yoxdur. Onlara üçün qısaltma (təqsir) vardır." (Tirmizi: 1984-1985) Əbu Davud (914) Hz. Əlidən (r.a) rəvayət etdiyinə görə belə buyurdu: "Rasulullah (s.a.v) qadının başını təraş etməsindən qadağan etdi."

أركان العمرة

وأركان العمرة أربعة : الإحرام والطواف والسعي والحلق أو التقصير في أحد القولين

### *Ümrənin rükunları*

*Ümrənin rükunları 4 – dür:*

1. *Ehrama girmək,*
2. *(Kəbəni) təvaf etmək,*
3. *(Səfa ilə Mərvə arasında) səy etmək (7 dəfə gedib gəlmək),*
4. *Təraş və ya digər bir görüşə görə qəsaltmaq.*[297]

[297] Buxari (1568), Cabir (r.a)-dan rəvayət etdiyinə görə beıə dedi: "Peyğəmbər (s.a.v) səhabələrinə ümrə etməyi, (Kəbəni) təvaf etməyi, saçlarını qısaltmağı və beləliklə də, ehramdan çıxmağı əmr etdi." İbni-Abbasdan (r.a) olan rəvayətdə də (1470) belə keçir: "Peyğəmbər (s.a.v) səhabələrinə Kəbəni təvaf etməyi, Səfa və Mərvə arasında səy etməyi, sonra saçlarını qısaltmağı, sonra da ihramdan çıxmağı əmr etdi." Bu hədislərə əsasən, qısaltmağın da, təraş kimi yetərli olacağı zahir olmuşdur.

واجبات الحج

**وواجبات الحج غير الأركان ثلاثة أشياء: الإحرام من الميقات ورمي الجمار الثلاث والحلق**

***Haccın vacibləri***

*Rükunların xaricində həccin vacibləri 3 – dür:*[298]

1. *Miqatdan (ehrama girmə yeri və vaxtı) ehrama girmək,*[299]
2. *Hər üç cəmrəyə daş atmaq,*[300]
3. *Təraş olmaq.*[301]

---

[298] Bəzi qaynaqlarda "beşdir" deyilir. Buna əsasən, təraş olmaq rüknlardan hesab edilərkən, gecə Müzdəlifə də olmaq, Minada gecələmək və vida təvafını etmək də vacib sayılır.

[299] Məkan miqatı, Məkkənin ətrafında hər tərəfdən həcc və ya ümrə etmək üçün gələnlərin Məkkəyə girmədən öncə ehrama girmələri üçün Allah Rasulunun təyin etdiyin xüsusi yerlərdir. Buxari (1454) və Müslim (1181), İbni-Abbas`dan (r.a) rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) Mədinə əhalisi üçün Zul-Huleyfəni, Şam əhalisi üçün Cuhfəni, Nəcd əhalisi üçün Qarni-Mənəzil, Yəmən əhalisi üçün Yələmləmi (ehrama girmək) üçün miqat təyin etdi. Bu yerlər adları söylənilən məmləkətlərin əhalisi və başqa məmləkətlərdən olub həcc və ümrə etmək istəyən, yollarını bu miqatlara salan kimsələrin miqatıdır. Miqat ərazisində yaşayanlar ailələrinin olduğu yerdən ehrama girərlər. Məkkə əhalisi Məkkədən ehrama girərlər."

Buxari (1458), İbni-Ömərdən (r.a) rəvayət etdiyinə görə belə buyurdu: "Bu iki şəhər (Bəsrə və Küfə) fəth edilincə (oranın xalqı) Hz. Ömərə gəlib dedilər ki: Ey möminlərin əmiri ! Rəsulullah (s.a.v), Nəcd əhalisinə "Qarnı" miqat göstərdi. Orası isə yolumuzdan uzaqdır və ora gedib ehrama girmək bizim üçün çətindir. (Hz. Ömər), "Yolunuzdan oranın müqabilinə baxın" dedi və onlara "Zatu İrq"-ı miqat təyin etdi."

Hədislərdə qeyd olunan yerlər, oranın sakinləri və ya başqa vasitələr ilə günümüzdəki hacılara bildirilməkdədir. Ancaq (bəzən) bu yerlərə başqa adlar da verilir.

[300] Cəmrələrə daş atmaq təşriq günləri olan Zilhiccə ayının 11, 12 və 13-cü günlərində olur. "Cəmratu-l Aqabə" isə bayram günündə daşlanır. Yəni Zilhiccə ayının onuncu günü.

Buxarinın (1665) rəvayət etdiyinə görə: "ibn Ömər (r.a) (Minaya) yaxın (kiçik) cəmrəyə yeddi daş atar və hər daşı atdıqda təkbir gətirərdi. Sonra irəli keçib vadinin aşağı tərəfində üzü qibləyə uzun müddət dayanar və əllərini göyə qaldırıb dua edərdi. Sonra eyni şəkildə orta cəmrəyə daş atar və (daşları atıb qurtardıqdan) sonra sol tərəfə keçib vadinin aşağı tərəfində üzü qibləyə uzun müddət dayanar və əllərini göyə qaldırıb dua edərdi. Sonra vadinin aşağı tərəfindəki böyük Aqabə cəmrəsinə daş atar və yanında dayanmazdı və: "Mən Peyğəmbərin (s.a.v) belə etdiyini gördüm"– deyərdi."

Daşlama, bayram günü günəşin doğmasından sonra və təşriq günlərində zəvaldan sonra olur. Müslim (1299), Cabirdən (r.a) rəvayət etdiyinə görə belə dedi: "

Peyğəmbər (s.a.v) Cəmaratu əl-Aqabəni Qurban bayramı günü Duha (Sabah gün çıxdıqdan sonra) vaxtı, başqa günlər isə günəş zeniti keçdikdən sonra daşladı."

Əbu Davudun (1973), Hz. Aişədən (r.a) etdiyi rəvayət belə keçir: "Sonra Peyğəmbər (s.a.v) Minaya qayıtdı və təşriq günlərində orda qaldı. Günəş zeniti keçdikdən sonra hər cəmrəyə yeddi daş atlrdı."

[301] Saç təraşı, Həccin vaciblərindən sayılması zəyif bir görüşdür. Az əvvəl də bilindiyi kimi tərcih olunan görüşə görə, saç təraşı həcc və ümrənin bir ruknüdür.

**سنن الحج**

**وسنن الحج سبع: الإفراد وهو تقديم الحج على العمرة والتلبية وطواف القدوم والمبيت بمزدلفة وركعتا الطواف والمبيت بمنى وطواف الوداع**

***Haccın sünnətləri***

*Haccın sünnətləri 7 – dir:*

1. *İfrad həcci etmək. Bu da həcci, ümrədən öncə etməkdir.*[302]
2. *Təlbiyə gətirmək ("Ləbbeyk, Allahummə ləbbeyk" oxumaq),*[303]
3. *Qüdum təvafı etmək,*[304]
4. *Müzdəlifədə gecələmək,*[305]
5. *(Təvafdan sonra) iki rükət namaz qılmaq,*[306]
6. *Minada gecələmək,*[307]
7. *Vida təvafı etmək,*[308]

---

[302] Çünki Peyğəmbər (s.a.v) vida həccində bu şəkildə etmişdir. Buxari (4146), Hz. Aişə`dən (r.a) rəvayət etdiyinə görə belə buyurdu: "Biz vida həccində Peyğəmbərlə (s.a.v) ilə bəramər (Məkkəyə yola) çıxdıq. Aramızdan kimisi ümrə niyyəti ilə, kimisi həcc və ümrə niyyəti ilə, kimisi də həcc niyyəti ilə ihrama girdi. Peyğəmbər (s.a.v) həcc niyyəti ilə ihrama girdi. Həcc niyyəti və ya həcc və ümrə niyyəti ilə ihrama girənlərə gəlincə, onlar qurban gününədək ihramdan çıxmadılar."

[303] Peyğəmbər (s.a.v)-in oxuduğu təlbiyəni oxumaq müstəhəbbdir. Buxari (1474) və Müslim (1184), İbni-Ömərdən (r.a) bunu rəvayət edir: "Peyğəmbər (s.a.v) Zül-Hüleyfə məscidinin yanında miniyinə qalxarkən təlbiyə edər və belə deyərdi: " Ləbbeykə Allahummə ləbbeykə. Ləbbeykə lə şəriykə ləkə ləbbeykə. İnnəl-həmdə vən-nemətə ləkə vəl-mulk. Lə şəriykə lək. "(Hüzurundayam! Allahım! Hüzurundayam! Hüzurundayam! Sənin şərikin yoxdur, hüzurundayam! Həmd Sənədir. Nemət və mülk Sənə məxsusdur. Sənin şərikin yoxdur."

[304] Buxari (1536) və Müslim (1235), Hz. Aişədən (r.a) bunu rəvayət edir: "Peyğəmbər (s.a.v) Məkkəyə gəldiyində ilk gördüyü şey, dəstəmaz almaq və sonra Beyti (Kəbəni) təvaf etmək idi."

[305] Çünki Müslimin (1218) Cabirdən (r.a) rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) Müzdəlifəyə gəldi, orada məğrib və işa namazını qıldı və uzandı. Sabah namazı girdiyində sabah namazını qıldı."

Müzdəlifədə gecələməyin sünnət sayılması zəif bir görüşdür. Zahir və tərcih olunan görüş, onun vacib olmasıdır. İmam Nəvəvi`də bu görüşü "Şərhu-l Muhəzzəb" kitabında səhih qılmışdır. İmam Nəvəviyə görə müzdəlifədə gecələmək, gecənin ikinci yarısından bir an miqdarı ilə hasil olur. (Bax: əl-Məcmu; 8/127_128).

[306] Buxari (1544), İbni-Ömər (r.a)-dan rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) (Məkkəyə) gəldi və Beyti (Kəbəni) yeddi dəfə təvaf etdi. Sonra (İbrahim (a.s)) məqamın arxasında iki rükət namaz qıldı."

[307] Çünki Peyğəmbər (s.a.v) Mina`da gecələmişdir. İmam Nəvəvi, "əl-Məcmu" 8/188 əsərində deyir ki; "Peyğəmbər (s.a.v)-in təşriq günlərində Minada gecələdiyini dair olan hədis səhih və məşhurdur. Tərcih olunan görüş onun vacib olduğu deyən olmasıdır. Çünki Buxari (1553) və Müslim (1315), İbni-Ömə (r.a)-dan rəvayət etdiyinə görə: "Abbas bin AbdulMuttəlib Mina gecələrində hacılara su vermək məqsədilə Məkkədə gecələmək üçün Peyğəmbərdən (s.a.v) izn istədi, O da ona izn verdi." Bu da dələlət edir ki, üzrsüz Mina gecələrini tərk etmək caiz deyildir. Gecənin böyük bir qismini oarad kemirmək şərtdir.

[308] Zahir olan görüşə görə: vida təvafı da sünnət deyil, vacibdir. Çünki Müslim (1327), İbni-Abbasdan (r.a) rəvayət etdiyinə görə: "İnsanlar hər tərəfə dağılıb gedirdilər. Peyğəmbər (s.a.v) belə buyurdu: "Sizlərdən biriniz , vidalaşdığı son yer ev (Kəbə) olmadan , heç bir yerə getməsin."

Təvaf, heyz və nifaslı qadınlardan düşər. Çünki Buxari (1668) və Müslim (1328), İbni-Abbasdan (r.a) rəvayət etdiklərinə görə: ""(Həcc ziyarətində olan) insanlara son olaraq Kəbəni təvaf etmək əmr edilmişdir. Yalnız heyzli qadınlar üçün bu (hökm) yüngülləşdirilmişdir." Nifaslı qadın da heyzli qadına qiyas olunmuşdur.

الإحرام

**ويتجرد الرجل عند الإحرام من المخيط ويلبس إزارا ورداء أبيضين**

***Ehram***

*Ehrama girən kişi, tikişli paltardan soyunar, izar (beldən aşağını örtən) və rida (beldən yuxarını örtən) olaraq iki ağ bez geyinər.*[309]

[309] Buxari (1470), İbni-Abbasdan (r.a) rəvayət etdiyinə görə: "Peyğəmbər (s.a.v) (saçlarını) darayıb yağladıqdan və izarını və ridasını geyindikdən sonra Səhabələri ilə bərabər Mədinədən çıxdı. O, (heç kəsə) hır hansı rida və izarı geyinməyi qadağan etmədi." Rida və izarın ağ olması, Peyğəmbər (s.a.v)-in, "Paltarlarınızdan ağ olanını geyinin !" hədisindən qaynaqlanır.

Ehrama girən şəxsin öncə qüsl alar, sonra ətirlənər və ehrama paltarlarını geyinər, sonra iki rükət ehram sünnətini qılar və ehrama girər. Buxari (1479), Nafidən (r.a) rəvayət etdiyinə görə: "İbni Ömər (r.a), Məkkəyə çıxıb (getmək) istədiyi zaman gözəl qoxusu olmayan bir yağ ilə (saçını) yağlayar, sonra Zulhuleyfə`yə gələrək namaz qılar, sonra (minəyinə) minərdi. Minəyinə mindiyi zaman ehrama girər və sonra belə deyərdi: "Peyğəmbəri (s.a.v) bu şəkildə edərkən gördüm."

Buxari (1465) və Müslim (1189), Hz. Aişədən (r.a) rəvayət etdiklərinə görə belə buyurdu: "Peyğəmbər (s.a.v) ehrama girməyə hazırlaşarkən ehramı üçün və ehramdan çıxarkən beyti (Kəbəni) təvaf etməmişdən qabaq mən ona ətir vurardım."

**محرمات الحج**

**ويحرم على المحرم عشرة أشياء: لبس المخيط وتغطية الرأس من الرجل والوجه من المرأة وترجيل الشعر وحلقه وتقليم الأظفار والطيب وقتل الصيد وعقد النكاح والوطء والمباشرة بشهوة وفي جميع ذلك الفدية إلا عقد النكاح فإنه لا ينعقد ولا يفسده إلا الوطء في الفرج ولا يخرج منه بالفساد**

***Ehramlıya qadağan olan şeylər***

*Ehramlıya on şey haramdır:*

1. *Tikişli paltar geyinmək,*
2. *Kişinin başını, qadının da, üzünü örtməsi,*[310]
3. *Saçı daramaq,*[311]
4. *Saçı qırxmaq,*[312]
5. *Dırnaqları kəsmək,*[313]
6. *Ətir sürtmək,*[314]
7. *Ov heyvanını öldürmək (ov ovlamaq),*[315]
8. *Nikah əqd etmək (kəbin kəsmək),*[316]
9. *Cinsi əlaqədə olmaq,*
10. *Şəhvətlə toxunmaq (cinsi əlaqəyə yol açan hərəkətlər),*[317]

*Bütün bunlarda (hər hansı biri edildiyi təqdirdə) fidyə vardır. Ancaq nikah kəsməkdə fidyə yoxdur. Çünki o nikah səhih olmaz (keçərsizdir).*[318]

---

[310] Buxari (1468) və Müslim (1177), İbni-Ömərdən (r.a) rəvayət etdiyinə görə: “Bir nəfər, Peyğəmbərə (s.a.v), ehramlı kimsənin nə libaslardan nə geyinə biləcəyini soruşdu. Peyğəmbər: Köynək, sarıq, (pijama) şalvar, kapşonlu geyim və məst geyə bilməz. Yalnız bir cüt ayaqqabı tapmayan bir cüt məst geyinsin və onlarıda topuqdan aşağı kəssin. Eyni zamanda zəfəran və ya vərs (sarı rəng verən bitki) ilə boyanmış libas geyinməyin.” Buxari (1741), “Qadın üzünü örtməz və əlcək geyinməz” ifadəsini də artırmışdır.

Qadın, istədiyi tikişli və tikişsiz paltar geyinər. Vücudundan üzü və əlləri xaric heç bir şey açıq qalmaz. Şayət fitnədən qorxarsa, onları da örtər və fidyə verər.

[311] Saçı daramağın haram olması, daramaqla saçın töküldüyünün bilinməsinə bağlıdır. Yoxsa daramaqla saçın töküldüyü zənn edilərsə məkruhdur.

[312] Çünki Qurani Kərimdə belə buyurulur: “Qurbanlıq öz yerinə çatıncaya qədər başınızı qırxdırmayın.” (Bəqərə/196) Yəni; qurban günü, qurban kəsiləcəyi yer olan Minaya çatıncaya qədər.

[313] Saçı qırxmağa qiyas edilərək haramlardan sayılmışdır. Ayrıca dırnaqları kəsməkdə rahatlıq vardır. Halbu ki, həcc edən kimsə saçı saqqalı qarışmış, toz dumanlı həyatın içində keçir.

[314] Buxari (1742) və Müslim (1216), İbni-Abbasdan (r.a) rəvayət etdiyinə görə belə dedi: “Ehramlı bir kişini dəvəsi (üstündən düşürüb) boynunu qırdı və onu öldürdü. Bu arada həmin kişi Allah Rasulunun (s.a.v) yanına gətirildi. (Peyğəmbər (s.a.v)) buyurdu: “Onu yuyun, kəfənləyin, ancaq başını örtməyin və ona qoxu vurmayın. Çünki (qiyamət günü) təlbiyə gətirərək diriltilər.”

[315] Çünki Qurani Kərimdə belə buyurulur: “Ehramda olduğunuz müddətcə quruda ov etməksizə haram edildi.” (Maidə/96)

[316] Müslim (1409), Osman bin Affandan (r.a) Peyğəmbər (s.a.v)-in belə buyurduğunu rəvayət edir: “Ehramda olan kəsə nə nikah qılınmaz, nə də ki, o nikah qıla bilər.”

[317] Çünki Quranı Kərimdə belə buyurulur: “Həcc, məlum aylardadır. (Həmin aylarad) həcc ziyarəti vacib olan şəxsə həccdə olarkən (qadınla) yaxınlıq, günah işlər, dava-dalaş etmək yoxdur.” (Bəqərə/197)

*Bunlardan –cinsi əlaqədə olmaq xaric- heç biri həcci pozmaz. Ehramlı birisi həcci pozan bir şey işləməklə ehramdan çıxmaz. (Yəni: pozulmuş həccinə davam edər).*[319]

---

[318] Yəni; çünki ihramlı ikən nikah əqdi səhih olmaz. Bu səbəblə hər hanı bir şey (fidyə) vacib olmaz. Çünki məqsəd (nikah) hasil olmamışdır.

[319] Yəni: hər nə qədər həcci fasid (pozulmuş) olsada onu tamamlaması və ona davam etməsi vacibdir. Çünki Qurani Kərimdə belə buyurulur; "Həcc və ümrəni Allah üçün tamamlayın." (Bəqərə: 196) Bununla bərabər o həccin –sünnət olsa belə- qəza edilməsi vacibdir.

İmam Malik, \`əl-Muvatta\` adlı əsrində, (1/381) bunu rəvayət edir: "Ömər bin Xəttab, Əli bin Əbi-Talib və Əbu Hureyrə\`yə (r.a), "həcc (niyyəti) ilə ehrama girdiyi halda qadını ilə cinsi əlaqədə olan kimsə haqqında" soruşuldu. Dedilər ki; Olduğu kimi həcc əməllərinə davam edər, gələcək ildə həcci qəza edər və qurban kəsər."

**مَنْ فَاتَهُ الْوُقُوفُ بِعَرَفَةَ**

**وَمَنْ فَاتَهُ الْوُقُوفُ بِعَرَفَةَ تَخَلَّلَ بِعَمَلِ عُمْرَةٍ، وَعَلَيْهِ الْقَضَاءُ، وَالهَدْيِ. وَمَنْ تَرَكَ رُكْنًا لَمْ يَحِلَّ مِنْ إِحْرَامِهِ حَتَّى يَأْتِيَ بِهِ، وَمَنْ تَرَكَ وَاجِبًا لَزِمَهُ الدَّمُ، وَمَنْ تَرَكَ سُنَّةٌ لَمْ يَلْزَمُهُ بِتَرْكِهَا شَيْءٌ**

## *Ərəfatda vəqfəni qaçıranlar*

*Ərəfatda vəqfəni qaçıran kimsə, ümrə əməllərini yerinə gətirərək həcc ehramından çıxar və (bu halda) həm həccini qəza etməsi və qurban kəsməsi vacib olar.*[320]

*(Ərəfə vəqfəsindən başqa) Həccin rükunlarından birini tərk edən kimsə, həmin rüknu yerinə yetirincəyə qədər ehramdan çıxmaz.* [321]

*Həccin vaciblərindən birini tərk edən kimsəyə, dəm (qurban kəsməsi) lazımdır.*[322]

*Həccin sünnətlərindən birini tərk edən kimsəyə, heç bir şey lazım gəlməz.*

---

[320] Çünki Peyğəmbər (s.a.v) belə buyurur: “Gecə Ərəfa`ta yetişən həccə yetişmişdir. Gecə Ərəfat`ı qaçıran da həcci qaçırmışdır (və o zaman) ümrə əməllərini yerinə yetirməyə başlasın. Gələn ildə də həccini qəza etməlidir.” (Darəqutni; 2/241) Bu hədisin sənədində, Əhməd əl-Fərra əl-Vasiti olduğu üçün zəif (sayılmışdır). Ancaq İmam Malik`in, əl-Muvatta adlı əsərində (1/383) səhih bir isnadlar rəvayət etdiyi bu hədis, yuxarıdaki hədisi qüvvətləndirir: “Həbbar bin Əsvəd (r.a), qurban günü gəldi –o sırada Ömər bin Xəttab (r.a) qurbanını kəsirdi- və belə dedi: “Ey möminlərin əmiri ! biz günləri saymaqda xəta etdik. Bu günü ərəfə günü olduğunu düşünürdük.” (bunun üzərinə Ömər (r.a)) dedi; “Məkkəyə get, sən və səninlə bərabər olan kimsələr (Kəbəni) təvaf edin, yanınızda qurbanınız varsa kəsin, sonra (saçlarınızı) təraş edin vəya qısaldın və geri (məmləkətinizə) dönün. Gələn ildə də həcc edin və qurban kəsin. Qurbanlıq tapmayan kimsə, üç gün həccdə və yeddi gün də (evinə) döndüyündə (toplam on gün olmaqla) oruc tutsun.”

Beyhaqi də (5/175), səhih bir isnadla İbni-Ömər`dən (r.a) yuxarıdaki hədisin bir bənzərini rəvayət edir. İmam Nəvəvi, “Şərhu-l Mühəzzəb” adlə kitabında belə deyir: “Bu məşhur bir şeydir və kimsə bunu inkar etməmişdir. Beləliklə icma olmuşdur.” (Kifayə: 1/232)

[321] Yəni: qurban kəsmək tərk edilən rüknun yerini tutmaz. Əksinə, həcc ibadətinin yerinə gəlməsi həmin rükna bağlıdır. Çünki həccin mahiyyəti, ancaq rükunların tamamı (yerinə gətirilməsi) ilə hasil olar (onlardan biri tərk edildiyi zaman o bütünlük meydana gəlməz). Hacı, həccə başlamaqla onu tamamlamaq məcburiyyətindədir. Beləliklə bütün rükunları yerinə gətirmədikcə ehramdan çıxa bilməz.

[322] Beyhaqi, səhih bir isnadla İbni-Abbas`dan (r.a) bunu rəvayət edir: “Hər kim bir vacibi tərk edərsə, bir qurban kəsməsi lazım gələr. (Bax: əl-Məcmu: 8/106).

**الدَّمَاء الْوَاجِبَةُ فِي الْإِحْرَام**

**(فصل) وَالدَّمَاء الْوَاجِبَةُ فِي الْإِحْرَام خَمْسَةُ أَشْيَاءَ: أَحَدُهَا الدَّمُ الْوَاجِبُ بترك نُسُكِ، وَهُوَ عَلَى التَّرْتِيبِ فَيَجِبُ شَاءٌ، فَإِنْ لَمْ يَجِدْ فَصِيَامُ عَشَرَةِ أَيَّامٍ ثَلَاثَةٍ فِي الْحَجِّ وَسَبْعَةٍ إِذَا رَجَعَ إِلَى أَهْلِهِ. وَالثَّانِي الدَّمُ الْوَاجِبُ بِالْحَلْقِ وَالتَّرَفُّهِ، وَهُوَ عَلَى التَّخْيِيرِ: شَاةٌ، أَوْ صَوْمُ ثَلَاثَةِ أَيَّامٍ، أَوِ التَّصَدُّقُ بِثَلَاثَةِ أَصْعٍ عَلَى سِتَّةِ مَسَاكِينَ. وَالثَّالِثُ الدَّمُ الْوَاجِبُ بالإِحْصَارِ، فَيَتَحَلَّلُ وَيُهْدِي شَاةٌ. وَالرَّابِعُ الدَّمُ الْوَاجِبُ بِقَتْلِ الصَّيْدِ، وَهُوَ عَلَى التَّخْيِيرِ : إِنْ كَانَ الصَّيْدُ مِمَّا لَهُ مِثْلُ أَخْرَجَ الْمِثْلَ مِنَ النَّعَمِ، أَوْ قَوَّمَهُ وَاشْتَرَى بِقِيمَتِهِ طَعَامًا وَتَصَدَّقَ بِهِ، أَوْ صَامَ عَنْ كُلِّ مُدَّ يَوْمًا، وَإِنْ كَانَ الصَّيْدُ مِمَّا لَا مِثْلَ لَهُ أَخْرَجَ بِقِيمَتِهِ طَعَامًا، أَوْ صَامَ عَنْ كُلِّ مُدْ يَوْمًا. وَالْخَامِسُ الدَّمُ الْوَاجِبُ بِالْوَطْءِ، وَهُوَ عَلَى التَّرْتِيبِ : بَدَنَةٌ، فَإِنْ لَمْ يَجِدْهَا فَبَقَرَةٌ، فَإِنْ لَمْ يَجِدْهَا فَسَبْعٌ مِنَ الْغَنَمِ، فَإِنْ لَمْ يَجِدْهَا قَوَّمَ الْبَدَنَةَ وَاشْتَرَى بِقِيمَتِهَا طَعَامًا وَتَصَدَّقَ بِهِ، فَإِنْ لَمْ يَجِدْ صَامَ عَنْ كُلِّ مُدْ يَوْمًا، وَلَا يُجْزِئُهُ الهدْي وَلَا الْإِطْعَامُ إلا بِالحَرَمِ، وَيُجْزِئُهُ أَن يَصُومَ حَيْثُ شَاءَ وَلَا يَجُوزُ قتل صيد الحرم، ولا قطع شجره، والمُحل والمحرم في ذلك سواء**

***Ehramda vacib olan qanlar (qurbanlar)***

*Ehramda vacib olan qanlar 5 – dir:*

*1.Bir vacibi tərk etməklə vacib olan qan. Bu qan tərtib üzərinə vacibdir. (Hacı, bir vacibi tərk edərsə,) öncə bir qoyun kəsər. Əgər qoyun tapmazsa, on gün oruc tutar. Bunun üç gününü həccdə, yeddi gününü də evinə döndüyü zaman tutar.*[323]

*2.Təraş olmaq və (ətir vurmaq, yağlanmaq kimi) rifah sayılan şeylər səbəbi ilə vacib olan qan. Bu halda hacı, bu üç şeydən birisini seçməkdə sərbəstdir:*

*a. Bir qoyun kəsmək,*
*b. Üç gün oruc tutmaq,*
*c. Altı miskinə, üç sa` miqdarı qida maddəsindən sədəqə olaraq vermək.*[324]

*3.Ehsar (ehrama girdikdən sonra həcc etməyə mane olan hal) səbəbiylə vacib olan qan. Bu halda hacı, ehramdan çıxar və bir qoyun qurban kəsər.*[325]

---

[323] Çünki Qurani Kərimdə belə buyurulur: "Kim həcc günlərinə qədər, öncə ümrəyə başlayarsa, asan başa gələn bir qurbanlıq kəsməlidir. Qurbanlıq tapmayanlar isə həcc əsnasında üç gün və (vətəninə) qayıtdıqda isə yeddi gün oruc tutmalıdır." (Bəqərə: 196)

Yuxarıdakı ayətdə, "öncə ümrəyə başlayarsa" ifadəsi keçdi. Yəni: öncə ümrəyə baçlayarsa və sonra miqat`a çıxmadan Məkkədə ehrama girərsə, bu halda vacıb olan "Miqatdan ehrama girməy"-i tərk etmiş olur. Bundan dolayı, bir dəm (qurban) vacib olur. Digər vaciblərin tərki də buna qiyas edilir.

[324] Çünki Quranı Kərimdə belə buyurulur: "Qurbanlıq öz yerinə (Minaya) çatıncaya qədər başınızı qırxdırmayın. Əgər (ehramda ikən) sizdən xəstələnən və yaxud baş ağrısına tutulub əziyyət çəkən olarsa, belə şəxs (başın qırxdırmağın əvəzində) fidyə olaraq (üç gün) oruc tutmalı və ya sədəqə verməli, yaxud da bir qurban kəsməlidir." (Bəqərə: 196) Yəni: başını qırxdırsın və fidyə versin.

Ayətdə keçən bu üç şeyin açıqlaması, Kab bin Ucra`nın (r.a) hədisində ifadə olunmuşdur. Belə ki, Peyğəmbər (s.a.v), Kab bin Ucra`nı Hudeybiyyə`də gördüyü zaman, (başından) üzünə bitlərin töküldüyünü görüb ona belə dedi; "Sənə başındak həşəratlar əziyyət verirmi ? Kab, "bəli" deyincə Peyğəmbər (s.a.v) belə buyurdu: "Başını qırx, (bunun əvəzinə) bir qoyun kəs və ya üç gün oruc tut və ya altı kasıba bir fəraq (üç sa`) yeyəcək qida maddəsi ver."

Kab (r.a) hədisində, "yuxarıda keçən ayət mənim haqqımda nazil oldu; bu ayət xüsusi olaraq mənim barəmdə nazil oldu, ümumən isə sizədə aiddir" demişdir. Bu hədisi, Buxari (1719) və Müslim (1202) rəvayət etmişdir. Bir Fəraq, üç sa`- dır. Bir sa` isə təqribən 2.400 kq edər.

Ətir vurmaq, dırnaq kəsmək və s. kimi ehramlı ikən edilməsi haram olan şeylər də təraş olmağa qiyas edilir. Çünki bütün bunlar eyni mənadadır və bunlarda rahatlıq vardır.

*4.Ov heyvanını öldürməklə vacib olan qan. Bu halda hacı, bunlardan birisini seçməkdə sərbəstdir.*

a. *Əgər öldürülən heyvanın bir bənzəri varsa, onu kəsmək (və kasıblara paylamaq),*
b. *Heyvanı qiymətləndirmək və həmin qiymətə yeyəcək qida alaraq (kasıblara) sədəqə vermək,*
c. *Hər müdd (ovuc) yeyəcək üçün bir gün oruc tutmaq.*

*Əgər öldürülən heyvanın bir bənzəri yoxdursa, hacı, bu ikisindən birisini seçməkdə sərbəstdir.*

d. *Heyvanı qiymətləndirmək və həmin qiymətə yeyəcək qida alaraq (kasıblara) sədəqə vermək,*
e. *Hər müdd (ovuc) yeyəcək üçün bir gün oruc tutmaq.*[326]

*5.Cinsi əlaqədə olmaqla vacib olan qan. Bu qan tərtib üzərinə vacibdir.*

a. *Bir dəvə qurban kəsmək,*
b. *Əgər dəvə tapmazsa, bir inək qurban kəsər,*
c. *Əgər inək tapmazsa, yeddi qoyun kəsər,*
d. *Əgər yeddi qoyun tapmazsa, dəvəni qiymətləndirərək, həmin qiymətə yeyəcək qida alaraq (kasıblara) sədəqə verər,*
e. *Əgər yeyəcək tapmazsa, hər müdd (ovuc ) yeyəcək üçün bir gün oruc tutar.*[327]

*İstər qurban kəsmək olsun, istər yemək vermək, bunlar ancaq Həram`də olmalıdır.*[328] *Orucu isə istədiyi yerdə tuta bilər.*

*Həramın ovunu öldürmək və ağaclarını kəsmək caiz deyildir. Bu xüsusda ehramda olan və olmayan eynidir.*[329]

---

[325] Çünki Quranı Kərimdə belə buyurulur: “Həcc və ümrəni Allah üçün tamamlayın. Əgər sizin qarşınızı kəssələr, müyəssər olan bir qurbanlıq verin. Qurbanlıq öz yerinə (Minaya) çatıncaya qədər başınızı qırxdırmayın.” (Bəqərə/196) Ayətdən də anlaşıldığına görə, Qurbanın kəsilməsi təraşdan öncə olması vacibdir.

Buxari (1717), İbni-Ömərdən (r.a) rəvayət etdiyinə görə belə dedi: “Biz, ümrə etmək üçün Peyğəmbər (s.a.v) ilə bərabər (yola) çıxdıq. Qureyş kafirləri, Beyti (Kəbəni) əngəllədilər. Bunun üzərinə Peyğəmbər (s.a.v) dəvələrini ksdi və təraş oldu.”

[326] Çünki Quranı Kərimdə belə buyurulur: “Ey iman gətirənlər ! Ehramda ikən ovu öldürməyin. Sizlərdən kim onu qəsdən öldürərsə, kəffarəsi öldürdüyünə bənzər bir qurbanlıq heyvanı əvəz ödəməkdir. Buna sizlərdən iki ədalətli kişi qərar verməli, sonra da həmin qurbanlıq heyvan Kəbəyə çatdırılmalıdır. Yaxud kəffarə olaraq kasıbları yedirtməli, yaxud da buna bərabər oruc tutmalıdır ki, öz işinin zərərini dadsın. Allah olub-keçənləri bağışlamışdır. Hər kim yenə bu günaha qayıtsa, Allah ondan intiqam alar. Allah Qüdrətlidir, intiqam almağa qadirdir.” (Maidə; 95)

[327] Bir dəvənin qurban edilməsi, Səhabənin fətvasına dayanır. İmam Malik, əl-Muvatta adlı əsərində (1/384) ibni-Abbas`dan (r.a) bunu rəvayət edir: “İbni-Abbasdan, ifadə təvafını etmədən öncə Mina`da qadını ilə cinsi əlaqədə olan kimsə haqqında suruşulduqda, ona bir dəvə kəsməyi əmr etdi.”

Bu rəvayətin bir bənzəri, Hz. Ömər, İbni-Ömər və Əbu Hureyrə`dən rəvayət olunmuşdur.

İnəyin, sonra da yeddi qoyunun devə yerinə keçməsi, bunların qurban xüsusunda bir dəvə kimi olmasıdır.

[328] Çünki Quranı Kərimdə belə buyurulur: “Həmin qurbanlıq heyvan Kəbəyə çatdırılmalıdır.” (Maidə;95) Qurani Kərimin bu ifadəsinə görə, qurban əti olsun və ya yeyəcək olsun Həramin miskinlərinə sərf edilməsi vacibdir.

[329] Çünki Məkkənin fəthi günündə Peyğəmbər (s.a.v) belə buyurdu: “Şübhəsiz bu şəhər, Allahın haram etməsilə qiyamət gününə qədər haramdır. Ağacı belə kəsilməz, ov heyvanı da hürküdülməz, tapıntısını sahibindən başqası əl uzadıb götürə bilməz, yaşıl otları qoparılmaz. İbni-Abbas: “Ya Rasulullah! İzxir (gözəl iyli) bitkisi bundan müstəsna olsun. Çünki izxir bitkisi Məkkəlilərin dəmirçiləri üçün və evləri üçün lazımlıdır. Peyğəmbər (s.a.v): “İzxir müstəsna.” Buxari (1510) və Müslim (1353), İbni-Abbasdan (r.a) Rəvayət edir.

İslam dinində hər bir müsəlman üçün fərz buyurulan ibadətlərin — dəstəmaz, qüsul, namaz, oruc, həcc və zəkat kimi əməllərin — düzgün yerinə yetirilməsi üçün zəruri olan təməl bilgilər toplusuna "elmihal" deyilir. Bu bilgiləri öyrənmək sadəcə bir seçim deyil, hər bir möminin dini həyatını sağlam əsaslar üzərində qurması üçün mənəvi bir borcdur. Çünki İslamda bir əməlin qəbul olunması üçün ilk şərt, həmin əməlin həm niyyət baxımından səmimi olması, həm də şəriət qaydalarına uyğun icra edilməsidir. Məsələn, namazın rüknlərini və ya dəstəmazı pozan halları bilməyən bir şəxsin qıldığı namazın səhihliyi (etibarlılığı) şübhə altına düşür. Beləliklə, elmihal bilgisi fərdi ibadətlərin keyfiyyətini artıraraq, insanı kor-koranə təqliddən xilas edir və şüurlu bir bəndəlik səviyyəsinə yüksəldir.

Dini bilgilərin öyrənilməsi həm də müsəlmanın gündəlik həyatını intizama salır. Qüsul və dəstəmaz kimi təmizlik qaydalarını dərindən bilmək həm fiziki, həm də mənəvi saflığın qorunmasına xidmət edir. Orucun hökmlərini öyrənmək insana iradə tərbiyəsini, həcc isə İslamın qlobal qardaşlıq ruhunu aşılayır. Peyğəmbərimizin "Elm öyrənmək hər bir müsəlman kişiyə və qadına fərzdir" hədisi məhz bu əsas bilgiləri əhatə edir. Elmihalı bilən şəxs dinini xurafatlardan və yanlış şərhlərdən qoruya bilir, çətin anlarda qarşılaşdığı dini suallara düzgün cavab taparaq daxili hüzurunu qoruyur. Nəticə etibarilə, elmihal bilgisi bir müsəlmanın Allah qarşısında məsuliyyətini dərk etməsi və axirət səadətinə qovuşması üçün ən mühim yol göstəricilərdən biridir.